RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 63 (10083) 15 aprel 2026-cı il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# MİLYONLARA SEVİNC BƏXŞ EDƏN BÖYÜK ÜRƏK SAHİBİ



Bu günlərdə Azərbaycan xalqı analoqsuz bir hadisənin şahidinə çevrildi.

Son illərdə Azərbaycan Prezidenti cənab İlham Əliyevin ən çox səfər etdiyi ünvan özünün işğaldan azad etdiyi Qarabağ bölgəsidir!

Hər səfərində dövlət başçısı "Böyük qayıdış"la bağlı yeni bir obyektin təməlini qoyur, inşası başa çatan hər hansı bir tikilinin açılışını edir, uzun həsrətdən sonra doğma yurda dönərək dövlətin onlar üçün tikib təmir etdiyi mənzillərə köçən keçmiş məcburi köçkünlərlə görüşür, onların "açarvermə" mərasimində iştirak edir, ürək sözlərini söyləyir, ünsiyyət qurur.

Belə səfərlərində Prezidentimiz bəzən yeni evə və ya mənzilə köçənlərə qonaq da gedir, onların mənzil-məişət şəraiti ilə yerində tanış olur, hərdənbir süfrə arxasında əyləşərək çay da içir.

Belə görüşlər öz səmimiliyi və təbiiliyi ilə daha yaddaqalan olur.

Qarabağa son səfərində cənab İlham Əliyev Birinci vitse-prezident Mehriban xanım Əliyeva ilə birlikdə Xocavənd rayonunun Xanoba kəndində yeni evə köçən keçmiş məcburi köçkün ailəsinə də baş çəkdi.

Ailənin kiçikyaşlı övladı Ayazla dövlət başçısının və birinci xanımın isti münasibəti, maraqlı mükaliməsi yaddaşlara əbədi həkk olundu.

"Kamaz" sürücüsünün övladı Ayazın maşına xüsusi marağını duyan cənab İlham Əliyev onu öz maşınının sükanı arxasında əyləşdirərək:

- Bu maşından xoşun gəlirmi? - deyə soruşduqda Ayaz uşaq təbiiliyi ilə istəyini dövlət başçısına bildirdi:

- Yox, mən qırmızı "Kamaz" istəyirəm!

Uşağın bu istəyi hər iki ali qonaqda səmimi bir gülüş doğurdu!

Bir neçə gündən sonra isə heç kəsin gözləmədiyi və ağlına belə gətirmədiyi bir hadisə baş verdi!

Cənab İlham Əliyev Ayaza hədiyyə olaraq bir qırmızı "Kamaz" göndərdi!

Təkcə bu ailənin deyil, heç kəsin unutmayacağı bir hadisədir!

Həm də bu faktın arxasında Azərbaycan Prezidenti İlham Əliyevin böyük ürək və səxavət sahibi olması, hər bir Azərbaycan vətəndaşının istək və arzusuna böyük diqqətlə yanaşması, insanları sevindirməkdən zövq duyması və bunu qəlb genişliyi ilə etməsi də aydın görünür!

Ən əsası isə budur ki, İlham Əliyev milyonların istək və arzularını gerçəkləşdirməklə onlara unudulmayan, əbədi xatırlanan sevinc bəxş etməyi də məharətlə bacarır.

Belə faktlar isə saysız-hesabsızdır!

5

## Yeni səfir ölkələrimiz arasında münasibətlərin inkişafı üçün səylərini əsirgəməyəcək

### Prezident İlham Əliyev Somalinin Azərbaycanda yeni təyin olunmuş səfirini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 14-də Somali Federativ Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Abdinur Dahir Fidounu qəbul edib.

AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.



2

## Nelsi Rakel Munar Xaramiyo ölkəmizdə Kolumbiyanın ilk qadın səfiridir

### Prezident İlham Əliyev Kolumbiyanın Azərbaycanda yeni təyin olunmuş səfirini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 14-də Kolumbiya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Nelsi Rakel Munar Xaramiyonu qəbul edib.

AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.



2

## Azərbaycan ilə Esvatini beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstək nümayiş etdirirlər

### Prezident İlham Əliyev Esvatininin Azərbaycanda yeni təyin olunmuş səfirini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 14-də Esvatini Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Sibusisive Mnqomezulunu qəbul edib.

AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.



2

## Bakının sülh körpüsü



Azərbaycanın sülh naminə atdığı addımlar beynəlxalq miqyasda da ən yüksək səviyyədə qiymətləndirilir. Prezident İlham Əliyevin "Zayed İnsan Qardaşlığı Mükafatı" ilə təltif edilməsi ölkəmizin humanist siyasətinin təsdiqidir.

Azərbaycan sülh üçün bütün təməl şərtləri yaradıb və üzərinə düşən humanitar, iqtisadi missiyanı yerinə yetirir. Ermənistandan da real addımlar gözlənilir. Çünki Vaşinqton sammitində sülh müqaviləsinin imzalanmamasının yeganə səbəbi Ermənistan konstitusiyasının preambula hissəsində Azərbaycana qarşı hələ də qalan ərazi iddialarıdır.

Regionda tam normallaşmanın əldə olunması üçün İrəvan siyasi iradə nümayiş etdirməli, gözlənilən referendum vasitəsilə konstitusiya dəyişikliyini həyata keçirməli və Azərbaycana qarşı ərazi iddialarına birdəfəlik son qoymalıdır.

7

## WUF13: gələcəyin şəhərlərini formalaşdıran qlobal platforma

### Bakının evsahibliyi edəcəyi bu beynəlxalq tədbirin başlanmasına çox qalmayıb



Ümumdünya Şəhərsalma Forumu tarixində ilk dəfə Xəzər və Cənubi Qafqaz regionuna gələcək. Beynəlxalq platforma bölgədə yaradılmış və planlaşdırılan "ağıllı şəhər"lərin önəmini vurğulayan, şəhərsalma sahəsində innovativliyi işıqlandıran bir ayna, həmçinin gələcəyin şəhərlərini formalaşdırmaq üçün ideyaların paylaşıldığı və yeni əməkdaşlıqların doğulduğu canlı bir laboratoriya olacaq. Tarixdə ilk dəfə Bakıda mənzil və şəhərsalma məsələlərinin ən yüksək siyasi səviyyədə müzakirəyə çıxarılması isə bu sahənin qlobal gündəlikdə önəmli mövqe tutmasına xidmət edir.

Beləliklə, WUF13 şəhərlərin taleyinə toxunan, ideyaları gerçəkləşdirən və gələcəyin urban həyatını işıqlandıran qlobal işıq nöqtəsi kimi Azərbaycanın şəhərsalma və dayanıqlı inkişaf sahələrində qazandığı təcrübəni dünyaya təqdim etmək imkanı yaradır. Prezident İlham Əliyevin uzaqgörən rəhbərliyi ilə azad edilmiş ərazilərdə xüsusilə son illər həyata keçirilən "ağıllı şəhər" və "yaşıl enerji" layihələri forum iştirakçılarının diqqət mərkəzində olacaq ki, bu da ölkəmizin innovativ yanaşmalarını beynəlxalq səviyyədə tanıtmaq baxımından mühüm fürsətdir.

9

## Ermənistan Azərbaycan vasitəsilə iqtisadi blokadadan xilas olur

### TRIPP və Azərbaycanın kommunikasiya xətləri ermənilər üçün həyat yoluna çevrilir

Uzun illər təcrid vəziyyətində qalan və logistik asılılıqdan boğulan İrəvan üçün Azərbaycan üzərindən keçən dəmir yolları yeni inkişaf mərhələsinin başlanğıcıdır. Baş nazir Nikol Paşinyanın son bəyanatları və yük daşımalarındakı statistik rəqəmlər göstərir ki, Ermənistan hökuməti son 3-4 ildir səsləndirdiyi mücərrəd "Dünyanın kəsişməsi" layihəsinin əhəmiyyətsiz olduğunu anlayaraq, Azərbaycan ərazisindən keçən yük vaqonlarını real iqtisadi çıxış yolu kimi qəbul edir.



7

# Yeni səfir ölkələrimiz arasında münasibətlərin inkişafı üçün səylərini əsirgəməyəcək

## Prezident İlham Əliyev Somalinin Azərbaycanda yeni təyin olunmuş səfirini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 14-də Somali Federativ Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Abdinur Dahir Fidounu qəbul edib.**

AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Qəbula görə minnətdarlığını bildirən Abdinur Dahir Fidou Somali Federativ Respublikasının Prezidenti Hasan Şeyx Mahmudun salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Hasan Şeyx Mahmuda çatdırmağı xahiş etdi.

Dövlətimizin başçısı ötən il ölkələrimiz arasında dostluq münasibətlərində yeni səhifə açmış Somali Prezidentinin Azərbaycana rəsmi səfərini xatırladaraq, həmin səfər çərçivəsində ikitərəfli əlaqələrin inkişafı ilə bağlı səmərəli müzakirələrin aparıldığını, əməkdaşlığın genişləndirilməsi məqsədilə bir sıra sənədlərin imzalandığını vurğuladı.

Azərbaycan Prezidenti ölkələrimiz arasında yaxşı siyasi münasibətlərin olduğunu deyərək, iqtisadi əməkdaşlığı genişləndirməyin önəminə toxundu.

Prezident İlham Əliyev səfirə fəaliyyətində uğurlar arzuladı.

Somalinin Azərbaycanda səfiri təyin olunmasından məmnunluğunu bildirən Abdinur Dahir Fidou ölkələrimiz arasında münasibətlərin inkişafı üçün səylərini əsirgəməyəcəyini dedi.

Söhbət zamanı ikitərəfli və çoxtərəfli formatlarda, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd edildi, son dövrlərdə təmasların intensivləşdiyi və qarşılıqlı səfərlərin sayının artdığı vurğulandı.

Görüşdə iqtisadiyyat, ticarət və digər sahələrdə əlaqələri genişləndirmək üçün yaxşı potensialın olduğu bildirildi.

Somali Prezidentinin ölkəmizə rəsmi səfəri çərçivəsində imzalanmış sənədə əsasən, bu ölkədə "ASAN xidmət" təcrübəsinin tətbiqi ilə bağlı işlərin davam etdirildiyi vurğulandı.

Elm və təhsil sahələrində əməkdaşlığa toxunuldu, hələ sovet dövründə Somalidən çoxsaylı tələbənin ölkəmizdə təhsil aldığı və bu ənənənin hazırda da davam etdiyi qeyd olundu. Bu xüsusda Somalidən olan tələbələrin Azərbaycanda Heydər Əliyev adına təqaüd əsasında təhsil aldıqları bildirildi.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# Nelsi Rakel Munar Xaramiyo ölkəmizdə Kolumbiyanın ilk qadın səfiridir

## Prezident İlham Əliyev Kolumbiyanın Azərbaycanda yeni təyin olunmuş səfirini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 14-də Kolumbiya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Nelsi Rakel Munar Xaramiyonu qəbul edib.**

AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı Azərbaycanla Kolumbiyanın coğrafi baxımdan bir-birindən uzaq məsafədə yerləşməsinə baxmayaraq, ikitərəfli münasibətlərin yaxşı səviyyədə qurulduğunu dedi və müxtəlif sahələrdə əməkdaşlığı genişləndirməyin əhəmiyyətinə toxundu.

Prezident İlham Əliyev siyasi əlaqələrimizə əsaslanaraq iqtisadi, investisiyalar, turizm və digər sahələrdə münasibətləri dərinləşdirməyin önəmini vurğuladı.

Azərbaycan Prezidenti səfirə fəaliyyətində uğurlar arzuladı.

Ölkəmizdə Kolumbiyanın ilk qadın səfiri olmasından şərəf hissi duyduğunu deyən Nelsi Rakel Munar Xaramiyo siyasi dialoqu və əlaqələrimizi möhkəmləndirmək, həmçinin əməkdaşlıq üçün yeni imkanların aşkarlanması istiqamətində səylə çalışacağını bildirdi.

Səfir Kolumbiya tərəfindən Azərbaycanda ispan dilinin təşviqi məqsədilə bu dilin tədrisi üzrə kursların təşkil olunduğunu, azərbaycanlı tələbələrin və mütəxəssislərin bu proqramda fəal şəkildə iştirak etdiyini məmnunluqla vurğuladı.

Söhbət zamanı ötən il Azərbaycanla Kolumbiya arasında "ASAN xidmət" modelinin bu ölkədə tətbiqi ilə bağlı anlaşma memorandumunun imzalandığı xatırlandı.

Görüşdə Azərbaycan ilə Kolumbiya arasında kənd təsərrüfatı, ərazilərin minalardan təmizlənməsi, təhsil, mədəniyyət və digər sahələrdə münasibətləri genişləndirməklə bağlı fikir mübadiləsi aparıldı.

Azərbaycanla Kolumbiyanın beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlığına toxunuldu, bu xüsusda hər iki ölkənin BMT, Qoşulmama Hərəkatı və digər çoxtərəfli platformalarda bir-birini dəstəklədiyi məmnunluqla vurğulandı.

Söhbət zamanı parlamentlərarası əməkdaşlığın möhkəmləndirilməsi, qarşılıqlı təmasların, həmçinin səfərlərin sayının artırılması və maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparıldı.

# Azərbaycan ilə Esvatini beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstək nümayiş etdirirlər

## Prezident İlham Əliyev Esvatininin Azərbaycanda yeni təyin olunmuş səfirini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 14-də Esvatini Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Sibusisive Mnqomezulunu qəbul edib.**

AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Səfir Esvatininin Kralı Əlahəzrət III Msvatinin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Esvatini Kralına çatdırmağı xahiş etdi.

Dövlətimizin başçısı Qoşulmama Hərəkatının 2019-cu ildə Bakıda keçirilmiş sammiti zamanı Esvatini Kralının ölkəmizə səfərini məmnunluqla xatırladaraq, onun gələn ay Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun Sessiyasında iştirak edəcəyinə ümidvarlığını bildirdi.

Prezident İlham Əliyev Azərbaycan Respublikası ilə Esvatini Krallığı arasında siyasi dialoqun səviyyəsindən məmnunluğunu ifadə etdi, digər sahələrdə əməkdaşlığı genişləndirmək üçün yaxşı potensialın olduğunu dedi.

Dövlətimizin başçısı səfirə fəaliyyətində uğurlar arzuladı.

Prezident İlham Əliyevin Azərbaycana uğurla rəhbərlik etdiyini vurğulayan səfir ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin bərpası, həmçinin iqtisadi inkişaf sahəsində əldə edilmiş uğurlar ilə bağlı təbriklərini çatdırdı. O, həmçinin regionda sülhün əldə edilməsində dövlətimizin başçısının diplomatik səylərinə və roluna toxunaraq, bununla bağlı da Prezident İlham Əliyevi təbrik etdi.

Səfir ikitərəfli əməkdaşlığımızın dərinləşdirilməsi üçün səylərini əsirgəməyəcəyini bildirdi.

O, ölkəsinin Afrika İttifaqının Sülh və Təhlükəsizlik Şurasının sədri qismində Afrika qitəsində sülhün təmin olunması istiqamətində ardıcıl səylərini davam etdirdiyini vurğuladı.

Söhbət zamanı Azərbaycan ilə Esvatininin beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstəyi qeyd edildi, energetika, elm, təhsil, humanitar, turizm, ətraf mühitin mühafizəsi, mədəniyyət və digər sahələrdə münasibətlərin qurulması üçün əlverişli imkanların olduğu bildirildi, potensial əməkdaşlıq sahələri ilə bağlı müzakirələrin aparılması üçün müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin həyata keçirilməsinin önəminə toxunuldu.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.

# "Yol hərəkəti haqqında" və "Avtomobil yolları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 564 (Cild I); 2024, № 7, maddə 771, № 8, maddə 932; 2025, № 1, maddə 16, № 2, maddə 94, № 6, maddə 523; Azərbaycan Respublikasının 2025-ci il 9 dekabr tarixli 307-VIIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1-ci maddənin birinci hissəsinin 6-cı bəndi aşağıdakı redaksiyada verilsin:

"6) avtomagistral - bu Qanunla müəyyən edilmiş hərəkət rejiminə malik olan, başlanğıcı və qurtaracağı müvafiq olaraq 5.1 və 5.2 nişanları ilə işarələnən, biri-birindən ayırıcı zolaq və digər konstruktiv elementlərlə ayrılan və fərqli hərəkət istiqamətləri üçün nəzərdə tutulan hərəkət hissələrinə malik, digər yollarla, o cümlədən dəmiryol, tramvay, velosiped yolları və ya piyada zolağı ilə bir səviyyədə kəsişməsi olmayan, hər 50 kilometrdən çox olmayan məsafədə xüsusi istirahət yerləri və dayanacaq meydançaları ilə təchiz edilən yoldur;";

1.2. 50-ci maddənin II hissəsi üzrə:

1.2.1. 2-ci bəndin ikinci və üçüncü abzasları müvafiq olaraq üçüncü və dördüncü abzaslar hesab edilsin və həmin bəndə aşağıdakı məzmunda ikinci abzas əlavə edilsin:

"ödənişli avtomagistrallarda - saatda 130 kilometrdən çox olmayan sürətlə;";

1.2.2. 4-cü bəndin ikinci abzasına "avtomagistrallarda" sözündən sonra "(o cümlədən ödənişli avtomagistrallarda)" sözləri əlavə edilsin;

1.3. 85-ci maddənin birinci hissəsinin 10-cu bəndinə aşağıdakı məzmunda "Qeyd" hissəsi əlavə edilsin:

**"Qeyd:**

1) nəqliyyat vasitəsinin sahibi nəqliyyat vasitəsinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) mühafizə olunan duracağına gətirilməsi və orada saxlanılması üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi məbləğdə haqqı ödədikdən dərhal sonra saxlanılmış nəqliyyat vasitəsi ona qaytarılır. Nəqliyyat vasitəsi qanunsuz saxlanılmışdırsa və ya lazımi qaydada saxlanılmaması nəticəsində ona maddi zərər vurulmuşdursa, nəqliyyat vasitəsinin sahibi inzibati qaydada və məhkəməyə şikayət edə bilər;

2) bu maddənin birinci hissəsinin 9-cu və 10-cu bəndlərinə uyğun olaraq mühafizə olunan duracağa gətirilmiş nəqliyyat vasitəsinin orada saxlanılması üçün haqq nəqliyyat vasitəsinin mühafizə olunan duracağa gətirildiyi gündən sonrakı gün saat 00:00-dan etibarən hesablanmağa başlayır. Nəqliyyat vasitəsinin mühafizə olunan duracağa aparılmasına səbəb olan inzibati xəta haqqında işin icraatına xitam verildikdə və ya xətaya görə inzibati tənbeh vermə haqqında qərardan verilmiş şikayət təmin edildikdə, nəqliyyat vasitəsinin duracağa gətirilməsi və orada saxlanılması üçün ödənilmiş haqqın məbləği müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada nəqliyyat vasitəsinin sahibinə qaytarılır.".

**Maddə 2**. "Avtomobil yolları haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 125 (Cild I); 2024, № 3, maddə 248; 2025, № 1, maddə 13, № 4 (I kitab), maddə 318) 1-ci maddəsinin birinci hissəsinin üçüncü abzası aşağıdakı redaksiyada verilsin:

"avtomagistral - "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş hərəkət rejiminə malik olan, başlanğıcı və qurtaracağı müvafiq olaraq 5.1 və 5.2 nişanları ilə işarələnən, biri-birindən ayırıcı zolaq və digər konstruktiv elementlərlə ayrılan və fərqli hərəkət istiqamətləri üçün nəzərdə tutulan hərəkət hissələrinə malik, digər yollarla, o cümlədən dəmiryol, tramvay, velosiped yolları və ya piyada zolağı ilə bir səviyyədə kəsişməsi olmayan, hər 50 kilometrdən çox olmayan məsafədə xüsusi istirahət yerləri və dayanacaq meydançaları ilə təchiz edilən yoldur;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 fevral 2026-cı il*

# "Yol hərəkəti haqqında" və "Avtomobil yolları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 24 fevral tarixli 361-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Yol hərəkəti haqqında" və "Avtomobil yolları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 24 fevral tarixli 361-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun 85-ci maddəsinin birinci hissəsinin 10-cu bəndinin "Qeyd"inin 1-ci bəndinin birinci cümləsində hər iki halda və 2-ci bəndinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 85-ci maddəsinin birinci hissəsinin 10-cu bəndinin "Qeyd"inin 2-ci bəndinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.3. həmin Qanunun 85-ci maddəsinin birinci hissəsinin 10-cu bəndinin "Qeyd"inin 1-ci bəndinin birinci cümləsində "orqan (qurum)" dedikdə birinci halda Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, ikinci halda Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin və Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rəyi nəzərə alınmaqla, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun 85-ci maddəsinin birinci hissəsinin 10-cu bəndinin "Qeyd"inin 2-ci bəndinin ikinci cümləsinə uyğun olaraq, nəqliyyat vasitəsinin duracağa gətirilməsi və orada saxlanılması üçün ödənilmiş haqqın məbləğinin nəqliyyat vasitəsinin sahibinə qaytarılması qaydasını üç ay müddətində müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. "Yol hərəkəti haqqında" və "Avtomobil yolları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 24 fevral tarixli 361-VIIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin və Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rəyi nəzərə alınmaqla, "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun 85-ci maddəsinin birinci hissəsinin 10-cu bəndinin "Qeyd"inin 1-ci bəndinin birinci cümləsinə uyğun olaraq, balansındakı mühafizə olunan duracaqlara nəqliyyat vasitəsinin gətirilməsi və orada saxlanılması üçün haqların məbləğini üç ay müddətində müəyyən etsin.

4. "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 noyabr tarixli 24 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 11, maddə 666 (Cild I); 2024, № 3, maddə 260, № 7, maddə 815, № 8, maddələr 937, 947, №10, maddə 1138; 2025, № 6, maddə 542, № 11, maddələr 1018, 1036, № 12 (I kitab), maddə 1150; 2026, № 1, maddə 24) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2.1-ci bənddə "10-cu bəndinin "Qeyd" hissəsinin birinci" sözləri "birinci hissəsinin 10-cu bəndinin "Qeyd"inin 1-ci bəndinin birinci cümləsində (hər iki halda) və 2-ci bəndinin ikinci" sözləri ilə əvəz edilsin;

4.2. 2.2-ci bəndə "IX hissəsinin ikinci cümləsində" sözlərindən sonra ", 85-ci maddəsinin birinci hissəsinin 10-cu bəndinin "Qeyd"inin 2-ci bəndinin ikinci cümləsində" sözləri əlavə edilsin;

4.3. 2.34-cü bənddən "XIX hissəsinin ikinci və üçüncü cümlələrində və" sözləri çıxarılsın;

4.4. 2.36-cı bəndə "Qanunun" sözündən sonra "53-cü maddəsinin XIX hissəsinin ikinci və üçüncü cümlələrində," sözləri əlavə edilsin;

4.5. 2.37-ci bənddə ", birinci hissəsinin birinci abzasında və 10-cu bəndinin "Qeyd" hissəsində" sözləri "və birinci hissəsinin birinci abzasında" sözləri ilə əvəz edilsin, həmin bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun;

4.6. aşağıdakı məzmunda 2.38-ci bənd əlavə edilsin:

"2.38. həmin Qanunun 85-ci maddəsinin birinci hissəsinin 10-cu bəndinin "Qeyd"inin 1-ci bəndinin birinci cümləsində "orqan (qurum)" dedikdə birinci halda Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, ikinci halda Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin və Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rəyi nəzərə alınmaqla, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi nəzərdə tutulur.".

5. Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 30 iyun tarixli 518 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 6, maddə 416 (Cild I); 2024, № 5 (I kitab), maddələr 521, 529, № 12 (II kitab), maddə 1369) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 3.1.17-2-ci yarımbənd əlavə edilsin:

"3.1.17-2. "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, balansındakı mühafizə olunan duracaqlara nəqliyyat vasitəsinin gətirilməsi və orada saxlanılması üçün haqların məbləğini Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin və Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rəyi nəzərə alınmaqla təsdiq edir;".

6. "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259 (Cild I); 2024, № 2, maddələr 151, 157, № 7, maddələr 806, 812, 814, 815, № 8, maddələr 937, 948, № 12 (I kitab), maddə 1294, (II kitab), maddələr 1359, 1378, 1384; 2025, № 2, maddə 127, № 3, maddə 231, № 4 (I kitab), maddələr 325, 338, № 5, maddə 463, № 6, maddələr 541, 561, № 7, maddə 649, № 8, maddələr 746, 754, № 9, maddə 820, № 11, maddə 1018;2026, № 1, maddələr 36, 41; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 11 fevral tarixli 598 nömrəli, 23 fevral tarixli 604 nömrəli, 12 mart tarixli 617 nömrəli, 13 mart tarixli 619 nömrəli və 16 mart tarixli 622 nömrəli fərmanları) 4-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

6.1. 4.52-ci bənd ləğv edilsin;

6.2. 4.53-cü bənddə "97.3-cü maddəsinin üçüncü cümləsində" sözləri "97.1-ci maddəsində, 97.3-cü maddəsinin birinci və üçüncü cümlələrində" sözləri ilə əvəz edilsin.

7. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 8 sentyabr tarixli 1842 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1031 (Cild I); 2024, № 8, maddə 948, № 11, maddə 1199; 2025, № 3, maddə 227, № 9, maddə 820, № 11, maddələr 1024, 1037) ilə təsdiq edilmiş "Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin Nizamnaməsi"nin 3.1.25-4-cü yarımbəndindən", habelə Bakı şəhərinin inzibati ərazisində mühafizə olunan duracaqların" və "mühafizə olunan duracaqları və" sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 aprel 2026-cı il*

# Su obyektlərindən xüsusi məqsədlər üçün istifadə ilə bağlı bəzi məsələlərin tənzimlənməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 99** **Bakı şəhəri, 14 aprel 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Su obyektlərindən xüsusi məqsədlər üçün istifadəyə icazənin verilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 18 dekabr tarixli 554 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Su obyektlərindən xüsusi məqsədlər üçün istifadə ilə bağlı ödənişlərin məbləğləri" təsdiq edilsin *(əlavə olunur).*

2. "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi ilə fiziki və hüquqi şəxslər arasında su obyektlərindən xüsusi məqsədlər üçün istifadəyə dair müqavilənin forması" təsdiq edilsin *(əlavə olunur).*

3. Bu Qərar 2026-cı il sentyabrın 1-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# "Minatəmizləmə fəaliyyətinin həyata keçirilməsi üçün qiymətləndirmənin aparılmasına və təlimlərin keçirilməsinə görə haqqın məbləği"nin təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 100** **Bakı şəhəri, 14 aprel 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Minatəmizləmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 2024-cü il 13 dekabr tarixli 90-VIIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 3 fevral tarixli 316 nömrəli Fərmanının 2.4.4-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Minatəmizləmə fəaliyyətinin həyata keçirilməsi üçün qiymətləndirmənin aparılmasına və təlimlərin keçirilməsinə görə haqqın məbləği" təsdiq edilsin *(əlavə olunur).*

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# İqtisadi Şuranın iclasında Ortamüddətli Büdcə Çərçivəsi sənədinin hazırlığı ilə bağlı tapşırıqlar verilib



Aprelin 14-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun rəhbərliyi ilə keçirilən İqtisadi Şuranın iclasının gündəliyində 2027-2030-cu illər üzrə Ortamüddətli Büdcə Çərçivəsi (OMBÇ), büdcə siyasətinin əsas istiqamət və hədəfləri, prioritet xərc istiqamətləri, ortamüddətli dövr üçün ilkin makroiqtisadi proqnozlar və makrofiskal çərçivə, büdcə dayanıqlığı, 2027-ci il və sonrakı üç il üçün dövlət və icmal büdcələrinin proqnoz göstəriciləri, sosial siyasət və əsas göstəriciləri və digər cari iqtisadi məsələlər ətraflı müzakirə olunub.

Nazirlər Kabinetindən AZƏRTAC-a bildirilib ki, gündəlikdə olan məsələlər üzrə maliyyə naziri Sahil Babayevin, əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyevin və iqtisadiyyat naziri Mikayıl Cabbarovun məruzələri dinlənilib. Təqdim olunan məsələlərə dair İqtisadi Şuranın üzvləri və iclasa dəvət olunanlar çıxış ediblər.

İclasın yekununda İqtisadi Şuranın üzvlərinin rəy və təklifləri nəzərə alınmaqla gündəlikdə olan məsələlərə dair müvafiq qərarlar qəbul olunub. Maliyyə nazirliyinə və digər aidiyyəti qurumlara növbəti ilin büdcə zərfinin və OMBÇ sənədinin hazırlığı ilə bağlı müvafiq tapşırıqlar verilib.

# Azərbaycan-Latviya hökumətlərarası komissiyasının üzvləri Fəxri xiyaban, Şəhidlər xiyabanı və Zəfər parkını ziyarət ediblər







Azərbaycanla Latviya arasında iqtisadi, elmi, texniki və mədəni əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 9-cu iclasında iştirak etmək üçün ölkəmizdə səfərdə olan Latviya Respublikasının kənd təsərrüfatı naziri Armands Krauzenin rəhbərlik etdiyi nümayəndə heyəti Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə gül dəstələri qoyublar.

Kənd Təsərrüfatı Nazirliyinin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsindən AZƏRTAC-a bildirilib ki, nümayəndə heyəti həmçinin Şəhidlər xiyabanında Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini yad edib, məzarları önünə güllər düzüblər.

Səfər çərçivəsində nümayəndə heyətləri Bakıda Zəfər parkını ziyarət edərək abidə önünə gül dəstələri qoyublar. Qonaqlara Azərbaycan xalqının Vətən müharibəsində qazandığı möhtəşəm tarixi Zəfərin yaddaşlarda yaşadılması, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə yaradılmış Zəfər parkı barədə ətraflı məlumat verilib.

Ziyarətlər zamanı nümayəndə heyətini Kənd Təsərrüfatı Nazirliyinin rəhbərliyi və digər rəsmi şəxslər müşayiət ediblər.

# Ceyhun Bayramov Rusiya xarici işlər nazirinin müavini ilə görüşüb

**Aprelin 14-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Rusiyanın xarici işlər nazirinin müavini Mixail Qaluzinlə görüşüb.**

Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı Azərbaycan-Rusiya münasibətlərinin siyasi, iqtisadi-ticarət və humanitar aspektləri, habelə qarşılıqlı maraq doğuran regional və beynəlxalq təhlükəsizlik məsələləri müzakirə olunub. Əməkdaşlıq gündəliyində duran məsələlərin müzakirəsi baxımından qarşılıqlı səfərlərin və təmasların əhəmiyyəti vurğulanıb.



Tərəflər Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumətlərarası Dövlət Komissiyasının fəaliyyətinin ikitərəfli iqtisadi əlaqələrin inkişafında mühüm rol oynadığını qeyd edərək, bu mexanizm çərçivəsində görülən işlər və perspektiv istiqamətlər üzrə müzakirələr aparıblar.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb, əməkdaşlığın perspektivləri nəzərdən keçirilib.

# Baş prokuror Kamran Əliyev bir sıra xarici həmkarları ilə görüşlər keçirir

**Daha öncə məlumat verildiyi kimi, baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Çinli həmkarının dəvəti əsasında Çin Xalq Respublikasının Şanxay şəhərində səfərdədir.**



Bu çərçivədə Kamran Əliyevlə Çində işgüzar səfərdə olan İsveçrə Konfederasiyasının baş prokuroru Stefan Blattle arasında ikitərəfli görüş keçirilib.

Bakı şəhərinə əvvəlki səfərini xüsusi məmnuniyyətlə xatırlayan cənab Blattle göstərilmiş yüksək qonaqpərvərliyə görə təşəkkürünü bildirib, müşahidə etdiyi müsbət tendensiyaları vurğulayaraq ölkəmizin sürətli inkişafının, cinayətkarlığa qarşı uğurlu mübarizə siyasəti nəticəsində kriminogen vəziyyətin nəzarət altında olmasının və təhlükəsizliyin yüksək səviyyədə olmasının şahidi olduğunu qeyd edib. O həmçinin bildirib ki, beynəlxalq və regional təşəbbüslərin aktiv iştirakçısı olan Azərbaycan sülh və sabit əməkdaşlıq platformasına çevrilib, çoxsaylı tədbirlərə uğurla evsahibliyi edib.

Öz növbəsində Kamran Əliyev qeyd edib ki, qloballaşan dünyada transmilli cinayətkarlıq da ölkələrin sərhədlərini aşır. Bu baxımdan ölkələrimizin prokurorluq orqanları arasında birbaşa dialoq kanallarının olması vacibdir. Bununla yanaşı, o, prokurorluq orqanları arasında əməkdaşlıq əlaqələrinin sıxlaşmasının hüquq sistemlərinin yaxınlaşması və təcrübi məsələlərin operativ həllinə töhfə verəcəyinə inamını ifadə edib.

Daha sonra görüşdə prokurorluq orqanları arasında əməkdaşlıq əlaqələrinin hüquqi bazasının genişləndirilməsi, konkret cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım və cinayət törətmiş şəxslərin verilməsi məsələlərinin praktiki məqamları müzakirə edilib.

# Spiker Sahibə Qafarova Türkiyə Respublikasına işgüzar səfərə gedib

**Milli Məclisin Sədri Sahibə Qafarova Parlamentlərarası İttifaqın (PAİ-nin) 152-ci Assambleyasında və Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin 5-ci Konfransında iştirak etmək üçün Türkiyənin İstanbul şəhərinə işgüzar səfərə gedib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, İstanbul Atatürk Beynəlxalq Hava Limanında spiker Sahibə Qafarovanı Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədov, ölkəmizin İstanbul şəhərindəki baş konsulu Nərminə Mustafayeva və digər rəsmi şəxslər qarşılayıblar.

Səfər çərçivəsində Milli Məclisin Sədri Sahibə Qafarovanın tədbirdə iştirak edən parlament nümayəndə heyətlərinin rəhbərləri ilə bir sıra görüşləri nəzərdə tutulub.

*"Azərbaycan"*

# Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin növbəti iclası

**Aprelin 14-də Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin videokonfrans formatında iclası keçirilib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan komitə sədri Səməd Seyidov gündəliyə beş məsələnin daxil edildiyini bildirib.

İlk öncə komitə sədri gündəliyin birinci məsələsi - "Azərbaycan Respublikası Hökuməti ilə Efiopiya Federativ Demokratik Respublikası Hökuməti arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə qanun layihəsinə dair məlumat verib. Bildirilib ki, sazişin əsas məqsədi müdafiə sahəsində ikitərəfli əməkdaşlıq üçün hüquqi çərçivə yaratmaq və əlaqələri daha da gücləndirməkdir. Bununla belə, sənəd hərbi təhsil, təlimlər, texniki əməkdaşlıq, sülhməramlı və humanitar əməliyyatlar kimi müxtəlif sahələrdə qarşılıqlı fəaliyyətin genişləndirilməsini nəzərdə tutur.

Sonra gündəliyin növbəti məsələləri - "Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında 1993-cü il 22 yanvar tarixli Konvensiyaya dəyişikliklərin edilməsi barədə Protokol"un təsdiq edilməsi haqqında və "Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında 2002-ci il 7 oktyabr tarixli Konvensiyaya dəyişikliklərin edilməsi barədə Protokol"un təsdiq edilməsi haqqında qanun layihələri müzakirəyə təqdim olunub. Qeyd edilib ki, hər iki məsələyə edilən dəyişikliklərin əsas mahiyyətini mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım haqqında konvensiyalara yetkinlik yaşına çatmayan uşaqlar üçün alimentlə bağlı məhkəmə əmrlərinin tanınması və icrası mexanizmi ilə bağlı məsələlər təşkil edir. Beləliklə, bu yeniliklər dövlətlər arasında hüquqi əməkdaşlığı gücləndirəcək, xüsusilə də uşaqların maddi təminatı ilə bağlı qərarların digər ölkələrdə daha asan və effektiv icrasına imkan yaradacaq.

Onlayn iclasda "Məhkəmə aktlarının, digər səlahiyyətli orqanların və vəzifəli şəxslərin aktlarının məcburi icrası həyata keçirilərkən məlumat mübadiləsi üzrə əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə qanunun layihəsi barədə məlumat verən komitə sədri sənədin Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin müvafiq strukturları və orqanları arasında əməkdaşlığın genişləndirilməsi, sənəd mübadiləsinin gücləndirilməsi və hüquqi aktların qanunvericilik çərçivəsində effektiv şəkildə həyata keçirilməsinin təmin edilməsi məqsədi daşıdığını söyləyib.

Sonra "Azərbaycan Respublikası Hökuməti ilə İqtisadi Əməkdaşlıq Təşkilatının Təmiz Enerji Mərkəzi arasında Ev Sahibi Ölkə Sazişi"nin təsdiq edilməsi haqqında qanunun layihəsi müzakirəyə təqdim olunub. Məlumat verilib ki, sənədin əsas məqsədi mərkəzin effektiv fəaliyyətini təmin etmək, onun hüquqi şəxs kimi səlahiyyətlərini, eləcə də bina, əmlak, maliyyə və kommunikasiya sahələrində hüquqlarını tənzimləməkdir.

Qanun layihələrinin müzakirələrində komitənin üzvləri Zaur Şükürov, Fariz İsmayılzadə, Nigar Məmmədova, Pərvanə Vəliyeva çıxış ediblər, məsələlərlə bağlı qeydlərini, təkliflərini səsləndiriblər.

Qanun layihələrinin hamısı Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə olunub.

*"Azərbaycan"*

# Bakı son illərdə təsiredici transformasiya yolu keçib, əhəmiyyətli dərəcədə dəyişib

**Müasir dövrdə şəhərlər iqtisadiyyatın, siyasətin, ekologiyanın və insanların gündəlik həyatının kəsişdiyi əsas məkanlara çevrilir. Artıq əsas sual şəhərlərin dəyişib-dəyişməyəcəyi deyil, onların necə formalaşacağı və kimə xidmət edəcəyidir. Bu məsələ Cənubi Qafqaz ölkələri üçün xüsusilə aktualdır, çünki burada sürətli inkişaf tarixi miras və yeni geosiyasi reallıqlarla paralel şəkildə baş verir.**



Bu kontekstdə Azərbaycan üçün mövzu xüsusi əhəmiyyət daşıyır. Ölkə hazırda genişmiqyaslı transformasiya mərhələsindədir: Bakı fəal şəkildə modernləşir, yeni memarlıq siması və infrastruktur formalaşdırır, işğaldan azad edilmiş ərazilər isə sıfırdan yeni nəsil şəhərlərin yaradılması üçün unikal imkan yaradır.

AZƏRTAC memarlıq və şəhərsalma üzrə özbək ekspert, müasir şəhər mühitinin inkişafı üzrə mütəxəssis Əzizbək Hakimovla müsahibəni təqdim edir.

*- Region ölkələri üçün şəhərsalmada hansı müasir tendensiyaları ən aktual hesab edirsiniz?*

- Müasir şəhərsalmanı müəyyən edən əsas tendensiyalar arasında ilk növbədə ictimai nəqliyyatın real prioritetə çevrilməsini qeyd edərdim. Bu, yalnız şüarlarla deyil, konkret həllərlə - xüsusi zolaqlar, ağıllı svetofor sistemləri və rahat naviqasiya ilə təmin olunmalıdır. Təcrübə göstərir ki, ictimai nəqliyyat üstünlük qazandıqca, insanlar da könüllü şəkildə ondan istifadəyə üstünlük verirlər.

İkinci mühüm istiqamət "15 dəqiqəlik şəhər" konsepsiyasıdır. Bu modelə görə, gündəlik xidmətlər - iş, təhsil, ticarət və səhiyyə obyektləri piyada məsafəsində yerləşməlidir. Bu yanaşma xüsusilə monofunksional şəhər rayonları üçün aktualdır və daha rahat, balanslı həyat tərzi yaradır.

Digər vacib istiqamət mavi-yaşıl infrastrukturun inkişafıdır. Parklar, ağaclar və su hövzələri yalnız estetik elementlər deyil, həm də şəhərin iqlimə davamlılığı, hava keyfiyyəti və sakinlərin sağlamlığı üçün mühüm mühəndis həlləridir.

Eyni zamanda sovet dövründən qalan şəhər modelinin yenidən qiymətləndirilməsi vacibdir. Bu çərçivədə küçə məkanlarının genişləndirilməsi, avtomobil yollarının optimallaşdırılması və şəhər həyatının yenidən ictimai məkanlara qaytarılması ön plana çıxır.

Ümumilikdə əsas çağırış avtomobilyönümlü modeldən insan mərkəzli şəhər modelinə keçiddir.

*- Bakının və digər şəhərlərin memarlıq transformasiyasını necə qiymətləndirirsiniz?*

- Son illərdə Bakı, həqiqətən də, təsiredici transformasiya yolu keçib. Şəhər əhəmiyyətli dərəcədə dəyişib, müasir memarlıq nümunələri yaradılıb, sahil zonası yenilənib və iri infrastruktur layihələri həyata keçirilib. Bu, yüksək inkişaf ambisiyalarının və siyasi iradənin göstəricisidir.

Xüsusilə şəhər meydanlarının yenidən qurulması və ictimai məkanların insanlara qaytarılması müsbət tendensiyadır. Hesab edirəm ki, növbəti mərhələdə inkişaf daha çox rahatlıq, əlçatanlıq və şəhər mühitinin keyfiyyətinin artırılmasına yönələcək.

*- Azad edilmiş ərazilərdə "gələcəyin şəhərləri"nin yaradılması potensialını necə dəyərləndirirsiniz?*

- Bu, nadir və unikal fürsətdir - şəhərləri sıfırdan qurmaq imkanı. Belə layihələr qlobal praktikada "greenfield development" kimi tanınır və innovativ həllərin tətbiqinə geniş imkan yaradır.

Bu baxımdan, ilk növbədə tələsməmək və planlaşdırmaya ciddi yanaşmaq vacibdir. Beynəlxalq və yerli ekspertlərin iştirakı ilə dərin tədqiqatlar aparılmalı, yalnız bundan sonra tikinti mərhələsinə keçilməlidir.

Yeni şəhərlərdə prioritetlər düzgün müəyyənləşdirilməlidir: piyadalar və ictimai nəqliyyat mərkəzdə olmalı, məhəllələr funksional baxımdan balanslı qurulmalı, yaşıl zonalar əvvəlcədən planlaşdırılmalıdır.

Eyni zamanda şəhərlər yerli iqlim və landşaftla uyğun şəkildə inkişaf etdirilməli, özünəməxsus kimliyə malik olmalıdır. Ən uğurlu şəhərlər bir anda deyil, mərhələli şəkildə formalaşır. Bu ərazilərin potensialı çox böyükdür və onlar yalnız yeni şəhərlərin deyil, bütövlükdə region üçün yeni inkişaf modelinin formalaşmasına töhfə verə bilər.

# Yeni Azərbaycan Partiyasının üzvləri üçün Çin dili kursunun açılış mərasimi keçirilib



**Aprelin 14-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında YAP ilə Çin Xalq Respublikasının Azərbaycan Respublikasındakı səfirliyinin birgə təşəbbüsü ilə partiya üzvləri üçün Çin dili kursunun açılış mərasimi keçirilib.**



Tədbirdə Çin səfirliyinin nümayəndələri, Azərbaycan Dillər Universitetinin nəzdində fəaliyyət göstərən Konfutsi İnstitutunun təmsilçiləri, partiyanın Gənclər Birliyinin üzvləri, Mərkəzi Aparatın və yerli təşkilatların əməkdaşları iştirak ediblər.

Tədbirdən öncə YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ilə Çinin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Lu Mey arasında görüş keçirilib. Səfir Lu Mey regionda yaranmış hərbi münaqişə fonunda Çin vətəndaşlarının İrandan təxliyəsində göstərilmiş yüksək dəstəyə görə Azərbaycan tərəfinə, şəxsən Prezident İlham Əliyevə dərin təşəkkürünü bildirib, bunu ölkələrimiz arasında dostluq münasibətlərinin növbəti təzahürü kimi qiymətləndirib. Görüşdə YAP ilə Çin Kommunist Partiyası arasında imzalanan Əməkdaşlıq Memorandumundan irəli gələn vəzifələrin uğurla icra edildiyi bildirilib, nəzərdə tutulan tədbirlər və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Sonra Çin mədəniyyətinin ayrılmaz hissəsi olan qədim çay ənənəsi və xəttatlıq sənəti nümayiş olunub.

Tədbirdə çıxış edən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Çin dili kurslarının Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq münasibətlərinin mahiyyətinə uyğun olaraq təşkil edildiyini diqqətə çatdırıb.

YAP Sədrinin müavini qeyd edib ki, müasir beynəlxalq münasibətlər sistemində müstəqil, konstruktiv və prinsipial siyasəti ilə seçilən Azərbaycan ilə Çin arasında əməkdaşlıq qarşılıqlı etimada əsaslanır və dövlət başçılarının siyasi iradəsi sayəsində ildən-ilə daha da möhkəmlənir. Onun sözlərinə görə, qlobal xarakterli yeni təhlükəsizlik çağırışlarının meydana çıxdığı və geosiyasi transformasiyaların baş verdiyi bir dövrdə ölkələrimiz arasında çoxşaxəli əlaqələrin davamlı inkişafı milli maraqların təmini baxımından müstəsna önəm daşıyır: "Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin 2025-ci ilin aprel ayında Çinə rəsmi dövlət səfəri çərçivəsində imzalanmış "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat"dan irəli gələrək çoxşaxəli əməkdaşlığın dərinləşdirilməsi istiqamətində ardıcıl fəaliyyət həyata keçirilir. Bu xüsusda elm, təhsil, humanitar və mədəni sahələrdə gerçəkləşdirilən təşəbbüslər fəal siyasi dialoq şəraitində xalqlarımız arasında qarşılıqlı anlaşmaya əsaslanan dostluğun daha da möhkəmlənməsinə xidmət edir. Bu prosesdə dövlətlərarası münasibətlərin önəmli tərkib hissəsi kimi iki ölkənin hakim partiyaları - Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyasının əməkdaşlıq əlaqələrinin mühüm rolu vardır".

Tahir Budaqov bildirib ki, 2024-cü il noyabrın 13-də partiyalarımız arasında imzalanmış Əməkdaşlıq Memorandumundan irəli gələrək məqsədyönlü tədbirlər uğurla davam etdirilir: "Yeni Azərbaycan Partiyasının üzvləri üçün Çin dili kursunun təşkili də mədəni-humanitar əlaqələrin gücləndirilməsi və dostluq körpülərinin genişləndirilməsi istiqamətində atılan növbəti mühüm addımdır. Bu, partiya fəallarının kommunikasiya imkanlarının artırılması, qarşılıqlı fikir və təcrübə mübadiləsinin intensivləşməsi xüsusunda olduqca önəmlidir".

YAP Mərkəzi Aparatının rəhbəri vurğulayıb ki, süni intellekt texnologiyalarının sürətli inkişafı, rəqəmsallaşmanın həyatın, demək olar ki, bütün sahələrinə nüfuz etməsi qlobal miqyasda yeni çağırışlar meydana çıxarıb: "Bu kontekstdə texnoloji tərəqqinin aparıcı mərkəzlərindən olan Çin Xalq Respublikasının dünya iqtisadiyyatında və sivilizasiyalararası dialoq prosesində güclənən mövqeyi Çin dilinin beynəlxalq ünsiyyət vasitəsi kimi əhəmiyyətini daha da artırır. Ona görə də bu dilin öyrənilməsi qlobal iqtisadi proseslərə daha yaxından inteqrasiya olunmağa, biznes əlaqələri, investisiya mühiti və texnoloji tərəfdaşlıq sahələrində layihələrin səmərəli icrasına əlverişli zəmin yaradır. Xüsusilə gənc nəslin, o cümlədən partiya fəallarının bu istiqamətdə biliklərinin artırılması onların beynəlxalq platformalarda aktiv təmsil olunmasına, müasir çağırışlara adekvat olaraq ölkəmizin maraqlarını effektiv şəkildə müdafiə etməsinə xidmət göstərir. Fürsətdən istifadə edərək, bu təşəbbüsün həyata keçirilməsinə verdiyi dəstəyə görə Çin Xalq Respublikasının ölkəmizdəki səfirliyinə, şəxsən səfir Lu Meyə təşəkkürümü bildirir və bütün iştirakçılara uğurlar arzulayıram. Əminəm ki, gələcəyə hesablanmış bu önəmli təşəbbüs əməkdaşlıq imkanlarını genişləndirməklə bir çox müştərək hədəflərin reallaşmasına təkan verəcək, partiyalar və ölkələrarası münasibətlərin davamlı inkişafına xidmət göstərəcəkdir".

Çin Xalq Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Lu Mey iki ölkənin liderləri tərəfindən həyata keçirilən məqsədyönlü siyasət nəticəsində Çin-Azərbaycan münasibətlərinin hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini qeyd edib. O bildirib ki, Çin Kommunist Partiyası və Yeni Azərbaycan Partiyası əldə olunmuş razılaşmalara uyğun qarşılıqlı fəaliyyəti uğurla davam etdirirlər: "Partiya və dövlət idarəçiliyi sahəsində fəal təcrübə mübadiləsi aparılır ki, bu da ikitərəfli əməkdaşlığın müxtəlif sahələrdə inkişafına mühüm töhfə verir"

Azərbaycanda Çin dilinə marağın artdığını söyləyən səfir bildirib: "Mən Çin dilini sərbəst bilən bir çox azərbaycanlı dostlarla görüşmüşəm. Bir çox gənc Çin mahnılarını böyük ustalıqla ifa edir və ənənəvi Çin incəsənətini mənimsəyir. Eyni zamanda Çinin universitetləri və analitik mərkəzləri də Azərbaycanla bağlı tədqiqatları fəal şəkildə davam etdirirlər. 2025-ci ildə 60 mindən çox Çin vətəndaşı Azərbaycana səfər etmişdir. Bu faktlar iki xalq arasında dostluğun və sivilizasiyalararası dialoqun inkişafına sadiqliyin bariz nümunəsidir. Ümid edirik ki, Çin dilini öyrənən partiya üzvləri nəsillər arasında dostluğun möhkəmlənməsinə və ikitərəfli əməkdaşlığın bütün sahələrdə inkişafına töhfələr verəcəklər. Çinin Azərbaycandakı səfirliyi bundan sonra da bütün zəruri şəraiti yaratmağa davam edəcəkdir".

Səfir Yeni Azərbaycan Partiyasının üzvləri üçün təşkil olunan kursun Çini daha yaxından tanımaq imkanı yaradacağını əlavə edib.

Daha sonra Konfutsi İnstitutunun tələbələri tərəfindən Çin milli rəqsi və ifalar təqdim olunub.

Tədbirdən sonra Çin dili kursunun ilk dərsi keçirilib.

# Azərbaycan Cənubi Qafqazda təhlükəsizliyin təminatçısı kimi mühüm rol oynayır

**Azərbaycan son dövrlərdə Cənubi Qafqazda sabitləşdirici qüvvə kimi mövqeyini gücləndirir. Bu, regional əməkdaşlığa, suverenliyə və qarşılıqlı hörmətə əsaslanan balanslı və praqmatik xarici siyasət nəticəsində mümkün olub. Dəyişən geosiyasi dinamikanın fonunda Bakı qarşıdurmadan daha çox dialoqa üstünlük verir, qonşu dövlətlər arasında diplomatik əlaqələrin və etimad quruculuğu tədbirlərinin dəstəklənməsini ön plana çəkir. Xüsusilə Ermənistanla münasibətlərin normallaşdırılması istiqamətində təşəbbüslər vasitəsilə Azərbaycan uzunmüddətli sülhə sadiqliyini nümayiş etdirir və eyni zamanda ərazi bütövlüyü və daxili işlərə qarışmamaq prinsiplərini müdafiə edir. Azərbaycanın regional platformalarda və beynəlxalq təşkilatlarda fəal iştirakı ölkənin sabitliyi təşviq edən konstruktiv aktor kimi rolunu daha da möhkəmləndirir.**



Bunu AZƏRTAC-a açıqlamasında Pakistanın beynəlxalq münasibətlər üzrə eksperti, "Gulf Observer Research Forum"un sədri Məhəmməd Əli Paşa deyib.

Onun sözlərinə görə, diplomatik səylərlə yanaşı, Azərbaycan strateji enerji və nəqliyyat layihələri vasitəsilə təhlükəsizliyin təminatçısı kimi mühüm rol oynayır: "Xəzər regionunu Avropa ilə birləşdirən əsas enerji dəhlizi kimi çıxış edən Azərbaycan, öz sərhədlərindən kənarda da enerji təhlükəsizliyinə və iqtisadi dayanıqlığa töhfə verir. Transmilli boru kəmərləri və ticarət marşrutları kimi infrastruktur təşəbbüsləri enerji təchizatını şaxələndirməklə yanaşı, iqtisadi əməkdaşlığı gücləndirir və münaqişə riskini azaldır. Bu layihələr Azərbaycanı həm regional, həm də qlobal sabitliyin təmin edilməsində əsas tərəfdaşlardan birinə çevirir.

Bundan əlavə, Azərbaycanın artan müdafiə imkanları və silahlı qüvvələrin modernləşdirilməsinə yönəlmiş siyasəti onun regional təhlükəsizliyin qorunmasındakı rolunu daha da gücləndirir. Güclü hərbi potensialını qoruyub saxlamaqla yanaşı, ölkə münaqişələrin sülh yolu ilə həllini və beynəlxalq hüquqa riayət olunmasını təşviq edir. Ümumilikdə Azərbaycanın diplomatiya, iqtisadi əlaqəlilik və müdafiə hazırlığını birləşdirən kompleks strategiyası onun regionda həm sabitləşdirici qüvvə, həm də etibarlı təhlükəsizlik təminatçısı kimi artan rolunu göstərir", - deyə ekspert bildirib.

# MİLYONLARA SEVİNC BƏXŞ EDƏN BÖYÜK ÜRƏK SAHİBİ





Uşağı sevindirmək üçün üzünə baxıb gülümsəmək, yaxud əlinə bir konfet və ya oyuncaq vermək bəs edir.

Hər iki halda uşaq da gülümsəməklə, yaxud özünəməxsus tərzdə bu jestə başqa bir formada cavab verir.

**Uşağı, xüsusən özgə uşağını sevindirmək səmimiyyət nişanəsi, qəlb genişliyi əlamətidir.**

*Uşaq bunları şüurlu şəkildə qavramasa da, sövq-təbii ilə sənin ona xeyirxah münasibətini dərk edir, borclu qalmaq istəmir.*

**Uşağın bir xüsusiyyəti də istəyini açıq şəkildə, özünəməxsus tərzdə bildirməsidir.**

Bəzən valideynlər onun istəyinin qarşısını almağa, başqa səmtə yönəltməyə çalışsalar da, onu nə aldatmaq, nə də fikrini dəyişmək olur.

Dediyinin üstündə duraraq, istədiyini təkidlə tələb edir.

Yoxsa o, uşaq olmazdı!

*Uşağın bu hiylədən uzaq, təbii davranışını anlayıb qiymətləndirmək isə bir özgə istedaddır.*

İstedad isə hər insanda olmur.

❖ ❖ ❖

Bu günlərdə Azərbaycan xalqı analoqu olmayan bir hadisənin şahidinə çevrildi.

**Son illərdə Azərbaycan Prezidenti cənab İlham Əliyevin ən çox səfər etdiyi ünvan özünün işğaldan azad etdiyi Qarabağ bölgəsidir.**

*Hər səfərində dövlət başçısı Böyük qayıdışla bağlı yeni bir obyektin təməlini qoyur, inşası başa çatan hər hansı bir tikilinin açılışını edir, uzun həsrətdən sonra doğma yurda dönərək dövlətin onlar üçün tikib təmir etdiyi mənzillərə köçən keçmiş məcburi köçkünlərlə görüşür, onların "açarvermə" mərasimində iştirak edir, ürək sözlərini söyləyir, ünsiyyət qurur.*

**Belə səfərlərində Prezidentimiz bəzən yeni evə və ya mənzilə köçənlərə qonaq da gedir, onların mənzil-məişət şəraiti ilə yerində tanış olur, hərdənbir süfrə arxasında əyləşərək çay da içir.**

*Belə görüşlər öz səmimiliyi və təbiiliyi ilə daha yaddaqalan olur.*

**Qarabağa son səfərində cənab İlham Əliyev Birinci vitse-prezident Mehriban xanım Əliyeva ilə birlikdə Xocavənd rayonunun Xanoba kəndində yeni evə köçən keçmiş məcburi köçkün ailəsinə də baş çəkdi.**

*Ailənin kiçikyaşlı övladı Ayazla dövlət başçısının və birinci xanımın isti münasibəti, maraqlı mükaliməsi yaddaşlara əbədi həkk olundu.*

**"Kamaz" sürücüsünün övladı Ayazın maşına xüsusi marağını duyan cənab İlham Əliyev onu öz maşınının sükanı arxasında əyləşdirərək:**

- Bu maşından xoşun gəlirmi? - deyə soruşduqda Ayaz uşaq təbiiliyi ilə istəyini dövlət başçısına bildirdi:

- Yox, mən qırmızı "Kamaz" istəyirəm.

Uşağın bu istəyi hər iki ali qonaqda səmimi bir gülüş doğurdu.

*Bir neçə gündən sonra isə heç kəsin gözləmədiyi və ağlına belə gətirmədiyi bir hadisə baş verdi.*

**Cənab İlham Əliyev Ayaza hədiyyə olaraq bir qırmızı "Kamaz" göndərdi!**

*Təkcə bu ailənin deyil, heç kəsin unutmayacağı bir hadisədir!*

**Həm də bu faktın arxasında Azərbaycan Prezidenti İlham Əliyevin böyük ürək və səxavət sahibi olması, hər bir Azərbaycan vətəndaşının istək və arzusuna böyük diqqətlə yanaşması, insanları sevindirməkdən zövq duyması və bunu qəlb genişliyi ilə etməsi də aydın görünür!**






*Ən əsası isə budur ki, İlham Əliyev milyonların istək və arzularını gerçəkləşdirməklə onlara unudulmayan, əbədi xatırlanan sevinc bəxş etməyi də məharətlə bacarır.*

Belə faktlar isə saysız-hesabsızdır...

❖ ❖ ❖

Azərbaycan tarixində böyük səxavət sahibləri çox olub.

Onlar insanlara təmənnasız xeyirxahlıqlar edərək həyatlarını yaxşılığa doğru büsbütün dəyişmişlər.

*Hacı Zeynalabdin Tağıyev yaddaşlarda böyük xeyriyyəçi, səxavətli insan, millətin təhsilinə şəxsi vəsaiti hesabına töhfələr verən mesenat kimi qalıb.*

**İnsanların həyatına işıq saçan insanlar arasında Ulu Öndər Heydər Əliyevin xüsusi yeri vardır.**

*Azərbaycana rəhbərliyinin hər iki dövründə bu istiqamətdə onun gördüyü işlər çoxcəhətli və çoxşaxəli olmuşdur:*

* Sovet hakimiyyəti illərində şəxsi nüfuzundan istifadə edərək ittifaq büdcəsindən ölkəmizə daha çox vəsait ayrılmasına nail olmuş, dövlət hesabına maliyyələşən bir çox nəhəng fabrik və zavodun Azərbaycanda inşasını təmin etmişdir.

* Kimya, neft-kimya, neft-maşınqayırma istehsalat müəssisələri, Bakıda Dərin Özüllər Zavodu Məişət Kondisionerləri Zavodu, bölgələrdə şərab emalı müəssisələri yaradılması yüksək məvacibli iş yerlərinin açılmasına, respublikada son məhsulun istehsalının artmasına imkan yaratmışdır.

* Aqrar sahənin inkişafı sayəsində kənd təsərrüfatı yüksəlmiş, yeni kəndlər və qəsəbələr salınmış, insanlar özlərinə yeni evlər tikmiş, təzə mənzillərə köçmüş, Azərbaycan kəndinin siması, kəndlinin məişəti büsbütün dəyişmişdir.

* Ulu Öndərin rəhbərliyi dövründə yeni ali məktəblər açılmış, fəhlə fakültələri yaradılaraq sadə ailələrin övladlarının ali təhsil almalarına şərait yaradılmış, minlərlə azərbaycanlı gənc dövlət hesabına SSRİ-nin müxtəlif şəhərlərindəki təhsil ocaqlarında nadir ixtisaslara yiyələnərək xoşbəxt gələcəklərini qurmuşlar.

* Ulu Öndər Heydər Əliyev ölkəyə yeni rəhbərliyi dövründə belə xeyirxah əməllərini davam etdirmiş, xidməti olan insanları Prezident təqaüdü ilə təmin edərək çətinlikdən qurtarmışdır.

**Heydər Əliyev siyasi kursunu layiqincə davam etdirən cənab İlham Əliyev daha irəli getmişdir.**

*Bu yolda onun dəstəkçisi həm də Heydər Əliyev Fondu və onun prezidenti Mehriban xanım Əliyeva olmuşdur.*

**İlham Əliyevin xalqa şərəf, rahatlıq və firavanlıq gətirən əməllərinin sayı-hesabı yoxdur!**

* İlham Əliyev Müzəffər Ali Baş Komandan olaraq 44 gün ərzində düşmən ordusunu məhv edərək torpaqlarımızı işğaldan azad etmiş, daha sonra antiterror əməliyyatları keçirərək ərazi bütövlüyünün, dövlət suverenliyinin təmininə nail olmuş, Azərbaycan xalqına böyük sevinc və şərəf gətirən qələbə qazandırmışdır.

* Məhz İlham Əliyevin "dəmir yumruğ"u sayəsində Azərbaycan xalqı qalib xalqa, Azərbaycan dövləti qalib dövlətə çevrilmiş, ölkə ərazisində terrorçuluğun və separatizmin kökü birdəfəlik kəsilmişdir.

**İlham Əliyevin rəhbərliyi ilə bu gün Qarabağda və Şərqi Zəngəzurda nəhəng bərpa və quruculuq işləri görülür, yeni yaşayış məntəqələri salınır, müvafiq infrastruktur yaradılır.**

Uzun illər Vətən həsrətilə əzab çəkən, bəzən çətin şəraitdə yaşayan keçmiş məcburi köçkünlər geri qayıdaraq dövlətin onlara ərməğan etdiyi evlərdə və mənzillərdə sevinc və xoşbəxtlik dolu günlərə qovuşurlar.

İlham Əliyevin səxavət və xeyirxahlıqlarının sayı bilinmir:

* Azərbaycan tarixində ən çox məscid tikən və dağıdılmış məscidləri bərpa edən İlham Əliyevdir.

* Şəhid ailələrinə, müharibə əlillərinə ən böyük diqqət göstərən, ehtiyacı olanları reabilitasiya etdirən, müasir protezlərlə təmin etdirən İlham Əliyevdir.

* İlham Əliyev və Mehriban xanım Əliyeva əl-ələ verərək yeni uşaq evləri açmış, kimsəsiz uşaqları oraya cəlb etmiş, təhsil və tərbiyələrini təmin etmiş, sosial evlər yaradaraq belə insanların həyatlarının sonrakı dövrlərində onların yeni mənzillə və işlə təmin edilməsinin əsasını qoymuşlar.

* Yüzlərlə Azərbaycan ziyalısı və sənət adamı onların diqqət və qayğısı sayəsində ölkə daxilində və xaricdə müalicə olunaraq yenidən normal həyata qayıtmışlar.

* Minlərlə gənc dövlət proqramı əsasında və dövlət hesabına xaricdə təhsil alaraq gərəkli ixtisaslara yiyələnirlər.

* Yüksək balla ölkədəki ali məktəblərə daxil olan gənclərin hər il böyük bir qrupu İlham Əliyev tərəfindən dövlət təqaüdünə layiq görülür.

* Qocalar evində yaşayanlar da daim diqqətdə saxlanılır, hər bir qayğıları Heydər Əliyev Fondu tərəfindən qarşılanır.

* İlham Əliyev gənc idmançılara xüsusi qayğı göstərir, ən yüksək nəticələr göstərərək Azərbaycan bayrağını yüksəldənləri pul mükafatları, təqaüdlər və mənzillərlə təmin edir.

* Əslində, dövləti daim inkişaf etdirmək, sülhü qorumaq və yaşatmaq, yeni iş yerləri yaratmaq, xalqın sosial rifahını dayanmadan yüksəltmək hər bir Azərbaycan vətəndaşına göstərilən daimi diqqət və qayğıdır!

**Hər bir Azərbaycan vətəndaşının Prezidenti olacağına söz verən cənab İlham Əliyev ölkəyə rəhbərliyi dövründə öz vədinə sadiq qalmağı uğurla bacarıb.**

❖ ❖ ❖

İlk dəfə prezidentliyə namizədliyini irəli sürəndə cənab İlham Əliyev açıq şəkildə bəyan etmişdi:

"Mən hər bir Azərbaycan vətəndaşının Prezidenti olacağam!"

Zaman göstərdi ki, İlham Əliyev bu açıqlamasını seçkiqabağı vəd kimi verməyib, öz fəaliyyətinin başlıca prinsipi kimi müəyyənləşdirib.

Onun Azərbaycana rəhbərlik etdiyi 23 il ərzində daim bunun şahidinə çevrildik.

* Cənab İlham Əliyev daim Azərbaycanı inkişaf etdirdi!

* Daim ölkənin iqtisadi imkanlarını artırdı!

* Daim xalqın sosial rifahının yaxşılaşdırılmasını diqqət mərkəzində saxladı!

İmkan yarandıqca hər bir ölkə vətəndaşının istəyinin gerçəkləşməsinə dəstəyini göstərdi, Azərbaycan vətəndaşının həyat səviyyəsinin yüksəlməsi üçün yorulmadan əməli addımlar atdı!

**Bütün bu yüksəlişi, yenilənmə və dəyişiklikləri hər bir ölkə vətəndaşı zaman-zaman öz həyatında, gündəlik məişətində, güzəranında aydın hiss etdi!**

*Cəmiyyətin bütün təbəqələri - uşaqlar, yeniyetmələr, gənclər, qocalar dövlətin yaratdığı şəraitdən müvafiq qaydada bəhrələnirlər.*

**Bu gün hər bir Azərbaycan vətəndaşı dövlətin onun yanında olduğunu görür, dövlət başçısının daimi qayğısını hiss edir, ardıcıl baş verən müsbət dəyişikliklərdən razı qalır...**

Yaşından, cinsindən, sosial mənsubiyyətindən, çalışdığı sahədən asılı olmayaraq.

Vətəndaş məmnunluğu, vətəndaş sevinci və sevgisi də elə budur!

**Bəxtiyar SADIQOV**

# Üç ayda ölkəmizdə 6,6 milyon ton neft, 12,6 milyard kubmetr təbii qaz hasil edilib

**Energetika Nazirliyi bu ilin birinci rübündə ölkədə karbohidrogenlərin hasilatı və ixracı ilə bağlı məlumat yayıb. Belə ki, yanvar-mart ayları üzrə Azərbaycanda 6,6 milyon ton neft (kondensatla birlikdə) hasil edilib.**

Bu həcmin 3,9 milyon tonu "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlar blokunun, 0,9 milyon tonu "Şahdəniz"in, 0,1 milyon tonu "Abşeron"un payına düşüb. SOCAR (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) üzrə neft (kondensatla birlikdə) hasilatı 1,7 milyon ton təşkil edib.

Göründüyü kimi, neft hasilatının böyük hissəsi AÇG-dən alınır. Hazırda bu blokda 7 hasilat platforması fəaliyyət göstərir ki, bunlar "Çıraq", "Mərkəzi Azəri", "Qərbi Azəri", "Şərqi Azəri", "Dərinsulu Günəşli", "Qərbi Çıraq" və "Azəri Mərkəzi Şərqi"dir.

Sözügedən dövrdə xam neft hasilatı orta hesabla gündəlik 61 min ton (450 min barel), kondensat hasilatı 13 min ton (105 min barel) təşkil edib. Ümumilikdə neft hasilatı orta hesabla gündəlik 74 min ton (555 min barel) olub.

Azərbaycan nefti dünya bazarlarına əsasən Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan kəməri ilə çatdırılır. 2006-cı ilin iyul ayından tam sistem kimi işə salınan bu möhtəşəm kəmər həmin vaxtdan fasiləsiz və təhlükəsiz fəaliyyət göstərir.

Yanvar-mart aylarında ölkədə təbii qaz hasilatı isə 12,6 milyard kubmetr təşkil edib. Hasil edilmiş qazın 3,5 milyard kubmetri "Azəri-Çıraq-Günəşli"nin, 6,9 milyard kubmetri "Şahdəniz"in, 0,4 milyard kubmetri "Abşeron" yatağının, 1,8 milyard kubmetri isə SOCAR-ın payına düşüb.

Məlum olduğu kimi, AÇG-dən səmt qazı çıxarılır və bunun əksər hissəsi Səngəçal terminalına qaxil olaraq SOCAR-a məxsus kəmərlə "Azəriqaz" sisteminə ötürülür. Hasil olunan qazın qalan hissəsi yataqlarda təzyiqi saxlamaq üçün yenidən laylara vurulur.




Xatırladaq ki, Azərbaycan 20-dən çox ölkəyə neft və 16 ölkəyə qaz ixrac edir. Hazırda ixracla bağlı bu rəqəmlər məlumdur: birinci rüb ərzində 5,2 milyon ton neft (kondensatla birlikdə) ixrac olunub. Bunun 4,8 milyon tonu konsorsiumların, 0,3 milyon tonu SOCAR-ın, 0,1 milyon tonu isə JOCAP-ın ("Joint Operating Company Absheron Petroleum" əməliyyat şirkəti) payına düşüb.

Azərbaycandan qaz alan ölkələr bunlardır: Gürcüstan, Türkiyə, İtaliya, Bolqarıstan, Yunanıstan, Rumıniya, Macarıstan, Serbiya, Sloveniya, Xorvatiya, Şimali Makedoniya, Slovakiya, Ukrayna, Suriya, Almaniya və Avstriya. Gürcüstana qaz Cənubi Qafqaz Boru Kəməri ilə 2006-cı ildən, Türkiyəyə Bakı-Tbilisi-Ərzurum kəməri ilə 2007-ci ildən və TANAP-la (Trans-Anadolu Qaz Boru Kəməri) 2018-ci ildən çatdırılır. Avropaya isə qaz 2020-ci ilin son günündən başlayaraq TAP-la (Trans-Adriatik Qaz Boru Kəməri) ixrac olunur. Suriya Türkiyə vasitəsilə Azərbaycan qazını ilk dəfə keçən il alıb.

Bu ilin birinci rübü ərzində xaricə qaz ixracı 6,5 milyard kubmetr təşkil edib. Bunun 3 milyard kubmetri Avropanın, 2,4 milyard kubmetri Türkiyənin (o cümlədən TANAP-la 1,5 milyard kubmetr), 0,8 milyard kubmetri Gürcüstanın, 0,3 milyard kubmetri isə Suriyanın payına düşüb.

Bəs "Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" yataqları istismara veriləndən bu il aprelin 1-dək hasilat və ixrac nə qədər olub? Energetika Nazirliyinin məlumatında bu da öz əksini tapıb: 675 milyon tona yaxın neft (qaz kondensatı ilə birlikdə), 519 milyard kubmetr qaz hasil edilib. "Azəri-Çıraq-Günəşli"dən 621,7 milyon ton neft, 247,4 milyard kubmetr qaz, "Şahdəniz"dən isə 53,3 milyon tona yaxın kondensat, 271,6 milyard kubmetr qaz hasil edilib. Bu dövrdə 673 milyon ton neft, 196,5 milyard kubmetr qaz ixraca nəql edilib.

Prezident İlham Əliyev karbohidrogenlərin hasilatının sabitləşdirilməsi və artırılmasını bir vəzifə kimi qarşıya qoyub. Bu il yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsində dövlətimizin başçısı demişdir: "Mən ümumilikdə iqtisadi inkişafdan razıyam. Bəli, bizim bir problemimiz var, bu da neft hasilatının təbii azalmasıdır. Bu amil ÜDM göstəricilərinə müəyyən mənfi təsir göstərir. Lakin əgər qeyri-neft və qeyri-qaz sektorunda ÜDM-yə baxsaq görərik ki, 11 ay ərzində 3,2 faiz artım qeydə alınıb, bu da pis göstərici deyil. Bu artım daha yüksək ola bilər və böyük ehtimalla olacaq. Eyni zamanda biz neft hasilatının sabitləşdirilməsi üzərində işləyirik, - bu mümkündür, - və təbii qaz hasilatının artırılması istiqamətində də addımlar atırıq. Bu da iqtisadiyyatımıza əlavə dinamika verəcək və onun böyüməsinə töhfə olacaq".

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Bakıda "AQEM məkanında davamlı inkişaf naminə qadınların səslərinin gücləndirilməsi" mövzusunda beynəlxalq konfransın açılışı olub

**Aprelin 14-də Bakıda Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) "AQEM məkanında davamlı inkişaf naminə qadınların səslərinin gücləndirilməsi" mövzusunda beynəlxalq konfransın açılış mərasimi keçirilib.**






AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova Azərbaycanın regional təhlükəsizlik təşəbbüslərinə verdiyi töhfələrin onun artan rolunu aydın şəkildə nümayiş etdirdiyini deyib. O bildirib ki, ölkəmizin AQEM-ə sədrliyi çərçivəsində qarşılıqlı etimadın gücləndirilməsi xüsusilə əhəmiyyətlidir. Çünki gender bərabərliyi, sosial inkişaf və qadınların səlahiyyətləndirilməsi artıq seçim deyil, zərurət kimi ön plana çıxır.

Komitə sədri qeyd edib ki, qadınların rəqəmsal iqtisadiyyata, xüsusilə süni intellekt sahəsinə cəlb olunmaları dayanıqlı inkişaf baxımından mühüm addımlardan biridir. Onların rəqəmsal mühitdə birbaşa iştirakı sosial dayanıqlılığın güclənməsinə töhfə verir.

"Azərbaycanda bu istiqamətdə həyata keçirilən fəaliyyətlər nümunəvi xarakter daşıyır. Qadınların dayanıqlı kənd təsərrüfatında və digər sahələrdə fəallığının artırılması, eyni zamanda onların liderlik potensialının gücləndirilməsi və tətbiq olunan siyasətlərin səmərəliliyinin yüksəldilməsi xüsusi əhəmiyyət daşıyır. Həmçinin onların regional və beynəlxalq platformalarda fəal iştirakı dialoq üçün daha geniş imkanlar yaradır. Qadınların səlahiyyətləndirilməsini real təcrübəyə və konkret nəticələrə çevirmək əsas hədəflərdən biri olmalıdır. Artıq güclü təşəbbüsləri və həyata keçirilən fəaliyyətləri praktik müstəviyə keçirməyin vaxtıdır", - deyə komitə sədri vurğulayıb.

Açılış mərasimində çıxış edən Leyla Əliyeva bildirib ki, bu gün qadınların fəal iştirakı cəmiyyətin inkişafında mühüm rol oynayır. Onlar uğurlu sahibkarlar, elm adamları, rəssamlar və liderlərdir.

Azərbaycanda qadınların rolunun daim yüksək qiymətləndirildiyini, onlara hörmətin mədəniyyətimizin və ənənələrimizin həmişə bir hissəsi olduğunu söyləyən L.Əliyeva deyib: "Bu gün bütün Azərbaycan üzrə qadınlar biznes qurur, ictimai təşəbbüslərə rəhbərlik edir və real təsir yaradırlar. Təkcə keçən il qadınlar Azərbaycanda məşğul əhalinin təxminən 50 faizini təşkil edirdi ki, bu da onların iqtisadiyyatımızda fəal və vacib rol oynadıqlarını göstərir".

O qeyd edib ki, bu gün Azərbaycanın AQEM-ə sədrliyinin davamlı inkişaf və qərar qəbuletmədə qadınların səslərini fəal şəkildə dəstəklədiyini görmək çox xoşdur. "AQEM Qadınlar Şurasının yaradılması vacib bir təşəbbüsdür", - deyən Leyla Əliyeva konstruktiv ideyaları əməllərə çevirməkdə bu platformaya uğurlar arzulayıb.




AQEM-in Baş katibi Kayrat Sarıbay isə beynəlxalq və regional təşkilatların qadınların səlahiyyətlərinin artırılması istiqamətindəki qlobal səylərdə mühüm tərəfdaşlar olduqlarını deyib. Baş katib diqqətə çatdırıb ki, onlar bu prosesdən kənarda qala bilməzlər. AQEM də daxil olmaqla, çoxtərəfli platformalar normaların formalaşmasına kömək edir, dialoqu asanlaşdırır və üzv dövlətlər arasında ən yaxşı təcrübələrin mübadiləsinə şərait yaradır.

Kayrat Sarıbay qeyd edib ki, etimadın gücləndirilməsi, iqtisadi artım və əməkdaşlığa yönələn AQEM Asiyada 28 üzv dövləti birləşdirir. Bu üzvlük dünya əhalisinin, demək olar, yarısını təşkil edən iqtisadi inkişaf, demoqrafik meyillər, mədəni dinamika və sosial strukturlar baxımından böyük bir müxtəlifliyi təmsil edir. Son onilliklər ərzində Asiyada nəzərəçarpacaq irəliləyişlər olsa da, siyasətdə, iqtisadi liderlikdə, sülh quruculuğunda və ya iqlim dəyişikliyi müzakirələrində, eləcə də bir çox qərar qəbuletmə sahələrində qadınların səsi hələ də daha az eşidilir. Bu da bugünkü konfransımızın mövzusunu daha da aktual edir.

Konfransda eyni zamanda "UN Women" təşkilatının İcraçı direktoru Sima Sami Bahousun videomüraciəti təqdim edilib. Sima Sami Bahous diqqətə çatdırıb ki, AQEM Qadınlar Şurasının yaradılması yüksək qiymətləndirilməlidir. Bu mühüm təşəbbüs qadınların dayanıqlı inkişafın mərkəzində yer almaları istiqamətində atılan əhəmiyyətli addımdır. O, bu platformanın qadınların səsinin daha aydın eşidilməsinə, onların qərarvermə proseslərində iştirakının genişlənməsinə və regional əməkdaşlığın güclənməsinə töhfə verəcəyinə inandığını vurğulayıb.

Qeyd edək ki, konfrans çərçivəsində "Kiçik və orta biznesdə qadın sahibkarlığı: Süni intellekt və rəqəmsallaşmanın imkanları" və "Ətraf mühitin qorunması və dayanıqlılığın gücləndirilməsində qadın liderliyi" mövzuları müzakirə olunacaq.

Konfransın davamı olaraq AQEM Qadınlar Şurasının ilk iclasının keçirilməsi, iclasın üzv dövlətlər arasında koordinasiya, dialoq və təcrübə mübadiləsinə yönəlmiş mandatının rəsmi olaraq tətbiq edilməsi gözlənilir.

## "Çoxtərəfli platformalar üzv dövlətlər arasında ən yaxşı təcrübələrin mübadiləsinə şərait yaradır"

**"Beynəlxalq və regional təşkilatlar qadınların səlahiyyətlərinin artırılması istiqamətindəki qlobal səylərdə mühüm tərəfdaşlardır. Onlar bu prosesdən kənarda qala bilməzlər. AQEM də daxil olmaqla, çoxtərəfli platformalar normaların formalaşmasına kömək edir, dialoqu asanlaşdırır və üzv dövlətlər arasında ən yaxşı təcrübələrin mübadiləsinə şərait yaradır. Onlar həmçinin qlobal öhdəliklərin milli səviyyədə icrası ilə əlaqələndirilməsində mühüm rol oynayırlar".**

AZƏRTAC xəbər verir ki, bunu "AQEM məkanında davamlı inkişaf naminə qadınların səslərinin gücləndirilməsi" mövzusunda keçirilən beynəlxalq konfransın açılış mərasimində AQEM-in Baş katibi Kayrat Sarıbay deyib.

O bildirib ki, etimadın artırılması, iqtisadi artım və əməkdaşlığa yönələn AQEM Asiyada 28 üzv dövləti birləşdirir. Bu üzvlük dünya əhalisinin, demək olar ki, yarısını təşkil edən iqtisadi inkişaf, demoqrafik meyillər, mədəni dinamika və sosial strukturlar baxımından böyük bir müxtəlifliyi təmsil edir. Son onilliklər ərzində Asiyada nəzərəçarpacaq irəliləyişlər olsa da, siyasətdə, iqtisadi liderlikdə, sülh quruculuğunda və ya iqlim dəyişikliyi müzakirələrində, eləcə də bir çox qərar qəbuletmə sahələrində qadınların səsi hələ də az təmsil olunur. Bu da bugünkü konfransımızın mövzusunu daha da aktual edir.

## Münasibətlərimizi qardaşlıqla yanaşı, birliyimizin gücü anlayışı ilə gələcəyə daşımaq əzmindəyik

**"Ölkələrimiz arasındakı münasibətləri yalnız qardaşlıq əsasında deyil, həm də birliyimizin gücü anlayışı ilə gələcəyə daşımaq əzmindəyik".**

AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyə Böyük Millət Məclisinin (TBMM) Qadınlar və kişilər üçün bərabər imkanların təmin edilməsi komissiyasının sədri Çiğdem Erdoğan Atabek "AQEM məkanında davamlı inkişaf naminə qadınların səslərinin gücləndirilməsi" mövzusunda keçirilən beynəlxalq konfrans çərçivəsində təşkil olunmuş "Qadın sahibkarlığının inkişafı və qanunvericiliyin təkmilləşdirilməsi" adlı müzakirələrdə səsləndirib.

O bildirib ki, qadınların istehsalda, siyasətdə, incəsənətdə və ticarətin mərkəzində yer alması bir seçim deyil, zərurətdir. Türkiyə olaraq qadınların iqtisadi ekosistemə qatılmasını həm bir haqqın bərpası, həm də inkişafın zəruri şərti kimi görürük.

Atabek qeyd edib ki, digər mühüm məsələ isə strateji sənədlərdir. Bu istiqamətdə də əməkdaşlığa hazırıq. Qadınların gücləndirilməsi üzrə strateji sənəd və fəaliyyət planı çərçivəsində onların iqtisadi və maliyyə savadlılığının inkişafı üçün işlər görürük.

## Rəqəmsallaşma qadınlara innovativ fəaliyyət sahələrində iştirak imkanı yaradır

**"Dünya iqtisadiyyatı sürətlə rəqəmsallaşır. Bu proses yalnız texnoloji dəyişiklik deyil, eyni zamanda iqtisadi və sosial münasibətlərin yenidən formalaşması deməkdir. Bu baxımdan qadınlar bu transformasiyanın mərkəzində dayanır".**

AZƏRTAC xəbər verir ki, bunu "AQEM məkanında davamlı inkişaf naminə qadınların səslərinin gücləndirilməsi" mövzusunda beynəlxalq konfrans çərçivəsində keçirilən paneldə Türkiyənin ailə və sosial xidmətlər naziri Mahinur Özdemir Göktaş deyib.

Nazir qeyd edib ki, qadınların məşğulluğu yalnız fərdi rifahı deyil, bütövlükdə ailələrin və cəmiyyətlərin güclənməsini təmin edir.

"Rəqəmsallaşma qadınlar üçün yeni imkanlar açır. Bu imkanlar onlara daha çevik iş şəraiti, bazarlara daha geniş çıxış və innovativ fəaliyyət sahələrində iştirak imkanı yaradır. Xüsusilə rəqəmsal platformalar vasitəsilə qadın sahibkarlar öz məhsul və xidmətlərini daha geniş auditoriyaya təqdim edə bilirlər. Eyni zamanda rəqəmsal iqtisadiyyat qadınların iqtisadi müstəqilliyini gücləndirir, onların qərarvermə proseslərində iştirakını artırır və sosial mövqelərini möhkəmləndirir. Bu səbəbdən qadınların rəqəmsal bacarıqlarının inkişafı, texnologiyalara çıxış imkanlarının genişləndirilməsi və onların innovativ sahələrdə iştirakının təşviqi xüsusi əhəmiyyət daşıyır", - deyə Mahinur Özdemir Göktaş vurğulayıb.

## "AQEM Qadınlar Şurasının yaradılması yüksək qiymətləndirilməlidir"

**"AQEM Qadınlar Şurasının yaradılması yüksək qiymətləndirilməlidir. Bu mühüm təşəbbüs qadınların dayanıqlı inkişafın mərkəzinə çevrilməsi istiqamətində atılan əhəmiyyətli addımdır. İnanırıq ki, bu platforma qadınların səsinin daha aydın eşidilməsinə, onların qərarvermə proseslərində iştirakının genişlənməsinə və regional əməkdaşlığın güclənməsinə töhfə verəcək".**

AZƏRTAC xəbər verir ki, bunu "AQEM məkanında davamlı inkişaf naminə qadınların səslərinin gücləndirilməsi" mövzusunda keçirilən beynəlxalq konfransın açılış mərasimində "UN Women" təşkilatının İcraçı direktoru Sima Sami Bahous videomüraciətində deyib.

O qeyd edib ki, dünya əhalisinin yarıdan çoxunu qadınlar təşkil edir və onlar iqtisadi inkişafın ayrılmaz hissəsidir. Buna baxmayaraq, qadınlar hələ də, əsasən, qeyri-formal sektorda və aşağımaaşlı işlərdə təmsil olunurlar, biznes və sahibkarlıq fəaliyyətində isə



onların iştirakı istənilən səviyyədə deyil. "Qadınların iqtisadi cəhətdən gücləndirilməsi bu problemlərin aradan qaldırılmasının əsas yollarından biridir. Bu, qadınların daha layiqli və dayanıqlı iş imkanlarına çıxışını genişləndirəcək, onların sahibkarlıq fəaliyyətində iştirakını artıracaq və innovativ iqtisadi proseslərə inteqrasiyasını sürətləndirəcək. Nəticə etibarilə qadınların iqtisadi və sosial həyatda daha fəal iştirakı cəmiyyətlərin dayanıqlı, inklüziv və balanslı inkişafına xidmət edir", - deyə Sima Sami Bahous vurğulayıb.

## "Ətraf mühitin qorunması və dayanıqlılığın artırılmasında qadın liderliyi"

**Aprelin 14-də Bakıda keçirilən "AQEM məkanında davamlı inkişaf naminə qadınların səslərinin gücləndirilməsi" mövzusunda beynəlxalq konfrans başa çatıb.**




AZƏRTAC xəbər verir ki, AQEM Katibliyinin eksperti İsmet Cahanın moderatorluğu ilə keçirilən sonuncu panel iclasda "Ətraf mühitin qorunması və dayanıqlılığın artırılmasında qadın liderliyi" mövzusu müzakirə olunub.

Monqolustanın Ailə, Əmək və Sosial Müdafiə Nazirliyinin dövlət katibi Munkhzul Lxaqvasuren qadın liderliyinin ətraf mühitin qorunması sahəsində mühüm rol oynadığına diqqət çəkib: "Onlar icmalar səviyyəsində ekoloji maarifləndirməni gücləndirirlər. Qadınların qərarvermə proseslərində iştirakı iqlim dəyişikliklərinə qarşı daha effektiv və ədalətli həllərin hazırlanmasına imkan yaradır", - deyə monqolustanlı nümayəndə bildirib.

Kamboca Krallığının Qadın İşləri Nazirliyinin dövlət katibi Man Chinda çıxışında gender bərabərliyinin təmin edilməsinin dayanıqlı inkişaf və sosial ədalət üçün əsas şərt olduğunu bildirib. Həmçinin qadınların iqtisadi imkanlara çıxışının genişləndirilməsinin yoxsulluğun azaldılmasına töhfə verəcəyini qeyd edib. O, dövlət və beynəlxalq əməkdaşlığın bu sahədə mühüm rol oynadığını diqqətə çatdırıb.

Ekologiya və təbii sərvətlər nazirinin müavini Umayra Tağıyeva qeyd edib ki, gender balansının gücləndirilməsi siyasətin mühüm tərkib hissəsidir. Ekologiya və Təbii Sərvətlər Nazirliyində ümumilikdə 1265 qadın əməkdaş çalışır, onlardan 62-si rəhbər vəzifələrdə təmsil olunur. Bu göstəricilər qadınların ekoloji siyasətdə artan rolunun bariz nümunəsidir. Həmçinin nazirlik yanında fəaliyyət göstərən Ekoloji Şurada da qadınlar təmsil olunur, ekokönüllülərin isə əksəriyyətini məhz qadınlar təşkil edir.

Qazaxıstan Respublikası Parlament Senatının Sosial, mədəni inkişaf və elm komitəsinin üzvü Asem Raxmetova sosial və mədəni inkişafın dayanıqlı cəmiyyət quruculuğunda əsas rol oynadığını vurğulayıb. O, elm və təhsilin gücləndirilməsinin ölkənin innovativ inkişafı üçün vacib olduğunu qeyd edib.

Daşkənd şəhər merinin müavini və Özbəkistanın Ailə və Qadınlar üzrə Departamentinin rəhbəri Şaxnoza Sultanova ailə institutunun gücləndirilməsinin və qadınların sosial müdafiəsinin dövlət siyasətinin prioritet istiqamətlərindən biri olduğunu vurğulayıb.

COP 29-un iqlim üzrə yüksəksəviyyəli çempionu, Milli Məclisin deputatı Nigar Arpadarai qeyri-sabitlik və münaqişələrlə dolu bir dövrün xüsusilə qadınlara daha çox təsir etdiyinə diqqət çəkib. O vurğulayıb ki, buna baxmayaraq, müxtəlif ölkələrdə qadınların səlahiyyətləndirilməsi və gələcəyə yönəlik rolunun gücləndirilməsi istiqamətində müsbət addımlar atılır. Uzun illərdir ki, Azərbaycan bu dinamika üzrə müsbət irəliləyiş nümayiş etdirir.

Panel iclas müzakirələrlə davam edib.

# Bakının sülh körpüsü

**Onilliklər boyu davam edən münaqişənin tarixin arxivinə gömülməsi ilə Cənubi Qafqaz bu gün tamamilə yeni mərhələyə qədəm qoyub. Bu yeni reallığın memarı isə postmünaqişə dövründə uzaqgörən və qətiyyətli siyasət yürüdən Azərbaycandır. Ölkəmizin təşəbbüsü ilə formalaşan sülh prosesi diplomatik bəyanatlarda əksini tapmaqla yanaşı, real müstəvidə də özünü göstərir. Regionun sosial, iqtisadi və humanitar həyatında baş verən yeniliklərdə də bunu görmək mümkündür.**



## Birbaşa dialoq

Azərbaycanın sülhməramlı liderliyinin ən mühüm göstəricilərindən biri "Sülh körpüsü" təşəbbüsüdür. Cari il aprelin 10-12-də ölkəmizdə keçirilən növbəti ikitərəfli "dəyirmi masa" Azərbaycan və Ermənistan vətəndaş cəmiyyəti nümayəndələri arasında kənar vasitəçilər olmadan birbaşa əlaqələrin qurulmasına xidmət edirdi. Erməni nümayəndə heyətinin Azərbaycana quru sərhədi vasitəsilə, delimitasiya və demarkasiya edilmiş sahədən daxil olması regionda faktiki sülhün və hüquqi qaydaların işlədiyinin bariz nümunəsidir.

Vətəndaş cəmiyyəti nümayəndələri arasında dialoq 2025-ci il avqustun 8-də Vaşinqtonda Azərbaycan, Ermənistan və ABŞ liderlərinin iştirakı ilə keçirilmiş üçtərəfli sammitdə təsdiqlənmiş ikitərəfli sülh gündəliyi çərçivəsində aparılır.

Aprelin 10-da adıçəkilən təşəbbüs çərçivəsində Azərbaycanın və Ermənistanın vətəndaş cəmiyyəti nümayəndələrinin iştirakı ilə "dəyirmi masa" işə başlayıb. "Dəyirmi masa"da iki ölkənin vətəndaş cəmiyyəti nümayəndələri arasında dialoq və birbaşa əlaqələrin təşviqi müzakirə olunub.

Ertəsi gün - aprelin 11-də Qəbələ şəhərində Azərbaycan və Ermənistan vətəndaş cəmiyyətlərinin nümayəndələrinin iştirakı ilə keçirilən ikitərəfli "dəyirmi masa" çərçivəsində Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev ilə görüş baş tutub. Görüşdə Azərbaycan hökumətinin sülh gündəliyinə sadiqliyi vurğulanıb. Ölkəmizin Vaşinqtonda Ermənistanla Azərbaycan arasında razılaşdırılmış sülh gündəliyinə və Vaşinqton sammitinin ruhuna sadiqliyi bir daha diqqətə çatdırılıb.

Həmçinin iki ölkə arasında ticarət münasibətlərinin yaranması və Azərbaycan ərazisindən Ermənistana məhsulların tranzit keçidinin təmin olunduğu qeyd edilib, TRIPP layihəsinin həyata keçirilməsi və bunun bölgədə abhavanın, bütün bir regionun nəqliyyat mənzərəsinin dəyişəcəyinə xidmət göstərəcəyi bildirilib.

H.Hacıyev qeyd edib ki, Azərbaycan və Ermənistan arasında sülh gündəliyi üzrə danışıqlar ikitərəfli xarakter daşıdığı kimi, vətəndaş cəmiyyətləri arasındakı bu mübadilələrin və etimad quruculuğu tədbirlərinin də ikitərəfli xarakter daşıması vacibdir.

Bütün bunlar bir daha təsdiqləyir ki, Azərbaycan sülh prosesini yalnız dövlət səviyyəsində deyil, həm də xalqlar arasında etimadın artırılması müstəvisində dəstəkləyir. Bu baxımdan iki ölkənin vətəndaş cəmiyyəti nümayəndələrinin qarşılıqlı səfərləri xalqlar arasında buzların əriməsində və gələcək birgəyaşayışın təməllərinin atılmasında əhəmiyyətli rol oynayır.

## Sülh rifah gətirir

Azərbaycanın strateji addımları Ermənistanı onilliklərdir davam edən regional izolyasiyadan xilas edir. Çünki yürütdüyü işğalçılıq siyasəti bu ölkəni onilliklər idi ki, dalana çevirmişdi. Bakının tranzit məhdudiyyətlərini aradan qaldırması onlar üçün sözün əsl mənasında "nəfəslik" rolunu oynayır.

Xatırladaq ki, 2025-ci il oktyabrın 21-də Prezident İlham Əliyev Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevlə mətbuata birgə bəyanatında Azərbaycanın işğal dövründən bəri mövcud olmuş Ermənistana yük tranziti üzrə bütün məhdudiyyətləri aradan qaldırdığını vurğulayıb və ilk belə tranzit yükünün Qazaxıstan taxılının Ermənistana tədarükü olduğunu bildirib.

Dekabrın 18-də Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) Ermənistana 1220 ton Aİ-95 markalı avtomobil benzini göndərib.

Bu il aprelin 14-də Azərbaycandan Ermənistana neft məhsullarının növbəti partiyası yola salınıb. Biləcəri stansiyasından Ermənistana 22 vaqon (1298 ton) dizel yanacağı göndərilib. Eyni zamanda, Rusiyadan Ermənistana Azərbaycandan tranzit keçməklə 4 vaqondan ibarət, çəkisi 240 ton olan gübrə yola salınıb.

İndiyədək Azərbaycandan Ermənistana 6312 ton dizel, 979 ton Aİ-92 benzini və 2955 ton Aİ-95 benzini ixrac olunub.

Həmçinin bu günə kimi Rusiyadan Ermənistana Azərbaycandan tranzit keçməklə 23,9 min ton taxıl, 1100 tondan çox gübrə və 68 ton qarabaşaq göndərilib.

Bu daşımalar ticarət əməliyyatı olmaqla yanaşı, sülhün gətirdiyi real rifahın Ermənistan cəmiyyətində hiss olunmasıdır.

Azərbaycanın sülh naminə atdığı addımlar beynəlxalq miqyasda da ən yüksək səviyyədə qiymətləndirilir. Prezident İlham Əliyevin "Zayed İnsan Qardaşlığı Mükafatı" ilə təltif edilməsi ölkəmizin humanist siyasətinin təsdiqidir.

Azərbaycan sülh üçün bütün təməl şərtləri yaradıb və üzərinə düşən humanitar, iqtisadi missiyanı yerinə yetirir. Ermənistandan da real addımlar gözlənilir. Çünki Vaşinqton sammitində sülh müqaviləsinin imzalanmamasının yeganə səbəbi Ermənistan konstitusiyasının preambula hissəsində Azərbaycana qarşı hələ də qalan ərazi iddialarıdır.

Regionda tam normallaşmanın əldə olunması üçün İrəvan siyasi iradə nümayiş etdirməli, gözlənilən referendum vasitəsilə konstitusiya dəyişikliyini həyata keçirməli və Azərbaycana qarşı ərazi iddialarına birdəfəlik son qoymalıdır.

Sülh və kommunikasiyaların açılması bu gün Ermənistan üçün hava və su kimi zəruridir. Azərbaycanın liderliyi ilə formalaşan bu tarixi imkan regionun bütün xalqları üçün davamlı inkişaf və təhlükəsizlik vəd edir. Bakı öz qətiyyəti ilə sübut etdi ki, barış, sadəcə, sözdə deyil, əməldə mümkündür. İrəvanın bu reallığa adekvat reaksiya verməsi isə bölgənin gələcək inkişafının xəritəsini aydınlaşdıracaq. Ən əsası da Ermənistan öz taleyinin necə olacağını müəyyənləşdirəcək ki, bu ölkə dalan olaraq qalmağı, yoxsa inkişaf və tərəqqini seçəcək.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Qlobal enerji böhranı Azərbaycan üçün risk yaratmır

## Lakin respublikamız neftin qiymətinin sabit olmasında maraqlıdır

Hörmüz boğazındakı məhdudiyyətlərlə əlaqədar yükdaşımalarda yaranan çətinliklər, eyni zamanda Yaxın Şərqdə enerji infrastrukturuna dəyən zərər neft bazarlarında qiymətlərin artmasına, bu da öz növbəsində qlobal iqtisadiyyata mənfi təsirlərini göstərir.

Müharibə nəticəsində yaranan enerji böhranının xüsusən idxalçı ölkələrə təsir göstərəcəyi, eyni zamanda neft bazarındakı dalğalanmalar nəticəsində dünya bazarında qiymət dəyişikliklərinin hələ davam edəcəyi proqnozlaşdırılır. Hazırda Yaxın Şərqdə münaqişə müəyyən qədər səngisə də, gərginlik başa çatmayıb. Beləliklə, münaqişənin nəticələrinin uzun müddət qlobal iqtisadiyyatı təhdid edəcəyi gözlənilir.

Beynəlxalq Enerji Agentliyi, Beynəlxalq Valyuta Fondu və Dünya Bankı Qrupu rəhbərlərinin yaydığı birgə bəyanatda müharibənin nəticələri ilə bağlı müəyyən məsələlərə toxunulub. Qeyd olunub ki, müharibənin təsirləri böyükdür, qlobal və yüksək dərəcədə qeyri-bərabərdir, xüsusilə enerji idxalçısı olan ölkələrə, o cümlədən aşağı gəlirli dövlətlərə qeyri-mütənasib təsir göstərir. Bu şok neft, qaz və gübrənin qiymətlərinin artmasına səbəb olub, həmçinin ərzaq təhlükəsizliyi və iş yerlərinin itirilməsi ilə bağlı narahatlıqları gücləndirib. Yaxın Şərqdə bəzi neft və qaz istehsalçıları ixrac gəlirlərində kəskin azalma ilə üzləşiblər.

Bəyanatda bildirilib ki, vəziyyət hələ də qeyri-müəyyən olaraq qalır və Hörmüz boğazında gəmiçilik tam normallaşmayıb: "Hətta boğazdan müntəzəm gəmiçilik axınları bərpa olunduqdan sonra belə əsas xammal və məhsullar üzrə qlobal təchizatın münaqişədən əvvəlki səviyyələrə qayıtması zaman alacaq. İnfrastrukturun zədələnməsi səbəbindən yanacaq və gübrə qiymətləri uzun müddət yüksək qala bilər. Təchizat zəncirindəki pozuntular nəticəsində əsas resursların çatışmazlığı enerji, ərzaq və digər sahələrə təsir göstərə bilər. Müharibə həmçinin insanların məcburi köçürülməsinə səbəb olub, məşğulluğa təsir edib, səfər və turizm həcmini azaldıb ki, bunların bərpası vaxt tələb edə bilər", - deyə bəyanatda qeyd olunub.



Milli Məclisin deputatı Vüqar Bayramov mövzu ilə bağlı qəzetimizə açıqlamasında bildirib ki, ABŞ-İsrail-İran müharibəsi, eyni zamanda Hörmüz boğazından yüklərin daşınması ilə bağlı yaranan çətinliklər qlobal iqtisadiyyata, eləcə də enerji bazarına birbaşa təsir göstərir. Onun sözlərinə görə, enerji məhsullarının qiymətlərindəki artımlar davam edir: "Xüsusən də inkişaf etmiş ölkələrdə, o cümlədən Avropa İttifaqında enerji xərclərində kəskin artımlar var. Bu da, təbii ki, dövlət xərclərində artımlarla müşahidə olunur. Mənfi təsirlərin hələ də davam etdiyini müşahidə edirik".

Deputat qeyd edib ki, Azərbaycan üçün enerji böhranının təsirləri xüsusi risk və ya çağırış yaratmır, çünki Azərbaycan enerji ölkəsidir. Həm istehsal, həm də ixrac edən ölkə olduğuna görə enerji bazarlarındakı dalğalanmalar Azərbaycanın enerji təminatına xüsusi təsir göstərmir. Təbii ki, neftin qiymətinin yüksək olması ölkəyə gələn valyutanın həcmini artırır, amma Azərbaycan daha stabil qiymətlərdə maraqlıdır. Çünki belə qiymətlər həm də stabil iqtisadi artım, bazarda az dalğalanmalar deməkdir.

Neft qiymətlərinin yüksək olmasının dünya bazarında ümumi qiymət artımlarına gətirib çıxardığını deyən V.Bayramov vurğulayıb ki, Azərbaycan da dünya bazarındakı qiymət artımların təsirlərinin minimallaşdırılması ilə bağlı tədbirlər həyata keçirir. "Xüsusən strateji ərzaq məhsulları üzrə ehtiyatların artırılması, həmçinin istehlak bazarına qlobal qiymət artımının təsirlərinin minimumlaşdırılması istiqamətində Nazirlər Kabineti tərəfindən işlər görülür. Bütün bunlarla yanaşı, müharibənin davam edəcəyi və Hörmüz boğazından yükdaşımalardakı çətinliklərin qalacağı halda bizim təklifimiz ondan ibarətdir ki, bir sıra vacib ərzaq məhsulları üzrə idxalda müddətli vergi güzəştləri tətbiq olunsun. Çünki vergi güzəştlərinin tətbiqi nəticə etibarilə dünya bazarındakı qiymət artımlarının Azərbaycan bazarına təsirlərini minimallaşdıra, bununla da məhsullar üzrə xərclərin azalmasına və qlobal inflyasiyanın Azərbaycanın istehlak bazarına təsirlərinin minimuma endirilməsinə gətirib çıxara bilər", - deyə deputat bildirib.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Ermənistan Azərbaycan vasitəsilə iqtisadi blokadadan xilas olur

## TRIPP və Azərbaycanın kommunikasiya xətləri ermənilər üçün həyat yoluna çevrilir

Ermənistanın blokadadan çıxmaq ümidi kimi təqdim olunan TRIPP layihəsi (Tramp marşrutu) və Azərbaycan vasitəsilə həyata keçirilən real yük daşımaları regionun iqtisadi xəritəsini yenidən cızır.

Uzun illər təcrid vəziyyətində qalan və logistik asılılıqdan boğulan İrəvan üçün Azərbaycan üzərindən keçən dəmir yolları yeni inkişaf mərhələsinin başlanğıcıdır. Baş nazir Nikol Paşinyanın son bəyanatları və yük daşımalarındakı statistik rəqəmlər göstərir ki, Ermənistan hökuməti son 3-4 ildir səsləndirdiyi mücərrəd "Dünyanın kəsişməsi" layihəsinin əhəmiyyətsiz olduğunu anlayaraq, Azərbaycan ərazisindən keçən yük vaqonlarını real iqtisadi çıxış yolu kimi qəbul edir.

Nikol Paşinyan ölkəsinin tamamilə yeni iqtisadi inkişaf mərhələsinə daxil olduğunu etiraf edib. Baş nazir deyib ki, bu inkişaf Ermənistanla Azərbaycan arasında formalaşmış sülh prosesi nəticəsində mümkün olub. Hökumət başçısı iddia edib ki, yaxın zamanda TRIPP layihəsinin işə salınması ilə əlaqədar böyük hadisələr gözlənilir. Paşinyan bu layihənin Ermənistanı faktiki olaraq blokada vəziyyətindən çıxaracağını söyləyib: "Ermənistan blokadanı müəyyən dərəcədə aradan qaldırıb. Azərbaycan ərazisi vasitəsilə Ermənistana dəmir yolu ilə yük daşımalarını həyata keçirmək mümkündür və davam edir. Onu da deyim: siyasi razılaşma var, ixracın da dəmir yolu ilə həyata keçirilməsi mümkündür, əlbəttə, Gürcüstan ərazisi vasitəsilə - biz Azərbaycanla TRIPP layihəsi çərçivəsində dəmir yolunu açana qədər. Bu isə çox vacibdir".

Paşinyan siyasi razılaşmanın nədən ibarət olduğuna da aydınlıq gətirib: "Siyasi razılaşma ondan ibarətdir ki, həmin dəmir yolu heç vaxt bağlanmayacaq, yəni bu, həm idxal, həm də ixrac üçün etibarlı marşrut olacaq. Amma mənim başa düşdüyümə görə, biz hələ ixrac üçün dəmir yolundan geniş istifadə etmirik. Çünki 30 il ərzində formalaşmış logistika zəncirləri mövcuddur, onların dəyişməsi üçün əvvəlcə etimad lazımdır". O hesab edir ki, logistika zəncirləri dəyişməlidir: "Çünki yük maşını ilə düşünmək ayrı şeydir, vaqonla düşünmək isə tamam başqa".

Baş nazirin vurğuladığı kimi, Cənubi Qafqazın geosiyasi və iqtisadi mənzərəsində ciddi dönüş nöqtəsi müşahidə edilir. Söhbət regionun 30 illik blokada və qarşıdurma dövründən çıxaraq təhlükəsiz logistika mərkəzinə çevrilməsindən gedir. Baş nazir fərqindədir ki, TRIPP və digər layihələrin işə düşməsi Ermənistanı təkcə Gürcüstan və İran asılılığından xilas etməyəcək, həmçinin "Şərq-Qərb" və "Şimal-Cənub" marşrutlarının iştirakçısına çevirəcək. Paşinyanın "Azərbaycan ərazisi vasitəsilə yük daşımaları mümkündür" ifadəsi də önəmli etirafdır. Deməli, yekun sülh müqaviləsinin imzalanması yubanarsa belə tərəflər arasında iqtisadi inteqrasiya prosesi davam edəcək. Siyasi səviyyədə razılaşmanın olması isə o anlama gəlir ki, texniki və siyasi maneələr aradan qaldırılıb, indi əsas məsələ iş adamlarının bu yola etibar etməsidir.



Erməni iş adamları illərdir yüklərini Gürcüstan-Rusiya sərhədindəki "Yuxarı Lars" yolu vasitəsilə daşıyıblar. Ancaq bu daşımalar yük maşınları vasitəsilə həyata keçirilib. Dəmir yolu isə daha ucuz və irihəcmli daşımalar deməkdir. Uzun illər yük maşınları ilə çətin dağ aşırımlarından keçməklə ticarət edən erməni sahibkarları üçün dəmir yolu iqtisadi effektivlik deməkdir. Baş nazirin "vaqonla düşünmək" ifadəsi iqtisadi keçidin psixoloji tərəfinə işıq tutur. Siyasi razılaşmaya əsasən, dəmir yollarının həm idxal, həm də ixrac üçün açıq qalması Ermənistanın dünyaya çıxış qapılarını artırır. Lakin bunun reallaşması yeni müqavilələr və yüklərin təhlükəsizliyinə əminlik tələb edir. O səbəbdən Paşinyan etiraf edir ki, logistika zənciri təkcə yol yox, həm də düşüncə tərzidir.

Bu vəziyyət göstərir ki, Ermənistan xarici iqtisadi asılılığını aradan qaldırmağa cəhd edir. TRIPP və Azərbaycanla kommunikasiyaların açılması zəncirvari şəkildə Türkiyə-Ermənistan sərhədinin açılmasına zəmin yaradacaq. Ermənistan iqtisadiyyatının Rusiyadan asılılığını azaltmaq üçün alternativ yollar bu ölkə üçün həyati əhəmiyyət daşıyır. TRIPP layihəsi və Azərbaycan vasitəsilə açılan kommunikasiyalar iki ölkə arasındakı quru yolu olmaqdan daha çox bütövlükdə Cənubi Qafqazın qlobal bazarlara çıxışıdır. Türkiyə-Ermənistan sərhədinin açılması isə bu zəncirin strateji halqası, İrəvanın Avropa və Aralıq dənizi hövzəsinə ən qısa çıxışıdır. "Yuxarı Lars" keçidi tez-tez təbii şərait və ya siyasi gərginliklər səbəbindən bağlanır. Azərbaycan və Türkiyə üzərindən keçən marşrutlar daha stabil və dayanıqlı logistik imkanlar vəd edir.

Paşinyanın çıxışında səsləndirdiyi "Tezliklə böyük hadisə olacaq" ifadəsi də diqqətçəkəndir. Ehtimal ki, qarşıdakı aylarda Zəngəzur dəhlizi üzrə hüquqi çərçivənin tam razılaşdırılması, Bakı ilə İrəvan arasında nəqliyyat əlaqələrinin rəsmən istismara verilməsi barədə sənədin imzalanması reallaşa bilər. Ümumən, görünən odur ki, İrəvan "Sülh gəlsin, sonra yolları açaq" prinsipindən "Yolları açaq ki, sülh qaçılmaz olsun" prinsipinə keçib. Paşinyan hökuməti erməni cəmiyyətini iqtisadi mənfəət vədləri ilə yaxınlaşan yekun sülh sazişinə hazırlayır.

Məlumat üçün əlavə edək ki, aprelin 14-də Azərbaycandan Ermənistana neft məhsullarının növbəti partiyası ixrac olunub və 22 vaqon (1298 ton) dizel yanacağı göndərilib. İndiyədək Azərbaycandan Ermənistana 6312 ton dizel, 979 ton Aİ-92 benzini və 2955 ton Aİ-95 benzini ixrac olunub. Həmçinin Rusiyadan Ermənistana Azərbaycandan tranzit keçməklə 4 vaqondan ibarət, çəkisi 240 ton olan gübrə daşınıb. Ümumilikdə indiyədək Rusiyadan Ermənistana Azərbaycandan tranzit keçməklə 23,9 min ton taxıl, 1100 tondan çox gübrə və 68 ton qarabaşaq göndərilib. Qeyd olunan rəqəmlər də aydın göstərir ki, Azərbaycanın tranzit potensialı Ermənistanın ərzaq və kənd təsərrüfatı ehtiyaclarının qarşılanmasında həlledici amilə çevrilir.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# İşıq həyatının mənası idi

**Dünya oftalmologiya elminə böyük töhfələr vermiş akademik Zərifə xanım Əliyevanın zəngin elmi irsi, tibbin müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifələrini təşkil edir. Görkəmli alimin keçdiyi şərəfli ömür yolu hər bir Azərbaycan vətəndaşı, hər bir alim və həkim üçün həyat və mənəviyyat dərsi, kamillik və müdriklik məktəbidir.**



Bu gün əbədiyyətə qovuşmasından 41 il ötən Zərifə xanım Əliyeva böyük bir mənəvi dünyanın adamı, aydın və nurlu bir şəxsiyyət idi. Alicənablığına, səmimiyyətinə, xeyirxahlığına, yüksək intellektinə, diqqət və qayğısına görə hamının hörmət və məhəbbətini qazanmış bu insan ilk növbədə həm də böyük bir ziyalı idi. Sözün həqiqi mənasında, bu böyük ziyalının insanlara bəxş etdiyi nur onun elminin dərinliyindən, mənəvi paklığından, şəxsiyyət ucalığından qidalanmışdır.

Zərifə xanım elə bir ailədə dünyaya gəlmişdi ki, onun malik olduğu xarakter, xüsusiyyətlər nəsildən-nəslə genlərlə keçmişdi. Dövrünün böyük şəxsiyyəti olmuş Əziz Əliyev övladlarına mənəvi təmizlik, paklıq aşılamışdı. Bu xüsusiyyətlər Zərifə xanımın əlindən həmişə tuturdu. O, təmkinli, dözümlü, düşüncəli idi. İşıq isə həyatının mənası idi.

"Zərifə xanım çox yüksək mədəniyyətə malik olan, çox istedadlı, bilikli insan idi. Nəinki öz peşəsində, eyni zamanda hərtərəfli istedadlı bir insan idi və bəziləri üçün o, necə deyərlər, son ümid yeri, ümid ünvanı idi. Hətta tanımadığı adamlar belə müxtəlif xahişlərlə, müxtəlif şikayətlərlə onun iş yerinə gəlirdilər. O çalışırdı ki, hər kəsə kömək göstərsin. Tanımadığı adamların xahişlərini gəlib atama çatdırırdı və o məsələlərin böyük əksəriyyəti öz həllini tapırdı. Yəni daim insanlara xidmət etmək, kömək göstərmək arzuları, amalları ilə yaşayırdı". Prezident İlham Əliyev 2013-cü ilin aprelində alimin anadan olmasının 90 illiyi münasibətilə keçirilən anım mərasimində belə demişdi. Bu davranışların hər biri bizə yaxşı tanışdır. Zərifə Əliyevadan əxz olunmuş bu keyfiyyətləri, xalqa xidməti, insanlara köməyi, onlara həyan olmağı biz illərdir ki, cənab İlham Əliyevin siyasətində duyub müşahidə edirik.

## Onun üçün elmi axtarışların sonu yox idi

Onun üçün ən böyük titul, ən şərəfli peşə həkimlik idi. Zülmətdən qurtulub yenidən dünya işığını görməyə başlayan bir xəstənin gözlərindəki sevinc Zərifə xanım üçün bütün aləmə dəyərdi. O səbəbdən həkimliyə müqəddəs peşə kimi baxırdı. Başqa cür də ola bilməzdi. Çünki Zərifə xanımın göz açıb gördüyü Əziz Əliyev, Mirəsədulla Mirqasımov, Sona Vəlixan və başqa görkəmli həkimlər öz mənəvi keyfiyyətləri ilə həqiqətən bu sənəti müqəddəsləşdirən insanlar idi.

Zərifə Əliyevanın peşəkar fəaliyyətinin ilk illəri Azərbaycanda traxoma adlı ən təhlükəli yoluxucu göz xəstəliyinin geniş yayıldığı dövrə təsadüf edirdi. Xüsusilə aran bölgələrində bu xəstəlik insanların görmə qabiliyyətinə ciddi zərbə vurur, bir çox halda korluqla nəticələnirdi. Xəstəliyə qarşı təsirli müalicə üsulları isə yox idi. Ona görə də bu infeksiya və onun ağır nəticələri ilə effektiv mübarizə təkcə oftalmologiya elmi üçün deyil, bütövlükdə respublika səhiyyəsi üçün mühüm əhəmiyyət daşıyırdı.

Belə bir dövrdə Zərifə xanım traxoma xəstəliyinə qarşı aparılan müalicəvi və profilaktik tədbirlərin təşkilində və keçirilməsində fəal iştirak etməyə başladı. O, konkret müalicə təcrübəsindən başqa, Azərbaycanda traxomanın daha geniş yayıldığı rayonlara gedir, həkim-oftalmoloqlara mühazirələr oxuyur, əhali arasında çoxlu söhbətlər aparırdı. Amma problemin dərinliklərinə vardıqca özü də anlayırdı ki, ağır xəstəliklə mübarizədə bütün bunlar kifayət deyil. Azərbaycanda regional əhəmiyyət kəsb edən göz xəstəlikləri problemini aradan qaldırmaq üçün onu elmi cəhətdən ətraflı tədqiq etmək lazımdır. Gözün peşə xəstəliklərinə dair fundamental araşdırmalara, bu xəstəliklərin effektli müalicə üsullarının və profilaktik tədbirlərin işlənib hazırlanmasına ehtiyac var.

Topladığı materialları, faktları, təcrübələri həmin illərdə üzərində işlədiyi namizədlik dissertasiyasına gətirir, özünün müalicə metodunu formalaşdırırdı. Zərifə xanım Əliyevanın təklif etdiyi müalicə üsulu tezliklə bütün respublikada tətbiq olunmağa başladı və bu, son dərəcə böyük səmərə verdi. O, 1960-cı ildə "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi" mövzusunda namizədlik dissertasiyasını uğurla müdafiə etdi. Ona görə də Azərbaycanda traxomanın sosial xəstəlik kimi ləğvi məhz Zərifə xanımın adı ilə bağlıdır.

Zərifə xanım üçün elmdə nəticələrin sonu yox idi. Görkəmli alim yaxşı bilirdi ki, elm böyük bir dəryadır. Bəşəriyyətin elmdə vaqif olduğu sirlər bu dəryada bir damla kimidir. Ona görə elmdə bir gün də dayanmaq olmaz. Əsl alim hər gün düşünməli, axtarmalı, tapıntılarını qələmə alaraq öz mühitində bölüşməlidir. Həmin illər o, daha mühüm bir problemlə - peşə ilə bağlı göz xəstəlikləri ilə məşğul olmağa başlamışdı. Əmək adamlarına kömək edən dərmanlar və müalicə üsulları yaratmağa çalışırdı. Bu məqsədlə Bakı və Sumqayıtın bəzi zavodlarında eksperimentlər keçirirdi.

Nəhayət, alim çoxillik araşdırmalarını peşə patologiyası ilə bağlı göz xəstəliklərinə həsr olunmuş doktorluq dissertasiyasında ümumiləşdirdi. Müdafiəsi 1977-ci ildə dünya oftalmologiyasının əsas mərkəzlərindən sayılan Moskva Göz Xəstəlikləri Elmi-Tədqiqat İnstitutunda oldu. Onun doktorluq işi məşhur alim və həkimlərin ən yüksək qiymətlərini aldı. Elə həmin il Zərifə xanıma tibb elmləri doktoru elmi adı verildi, Həkimləri Təkmilləşdirmə İnstitutunun Oftalmologiya kafedrasının professoru, bir ildən sonra isə kafedranın rəhbəri oldu. 1981-ci ildə akademik M.İ.Averbax adına ən yüksək mükafata layiq görüldü. 1983-cü ildə isə Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçildi.

## Fədakar alim

Zərifə Əliyeva daim elmi axtarışlarda olan və əldə etdiyi nəticələri mütəmadi şəkildə elmi ictimaiyyətlə bölüşən məhsuldar bir alim idi. O, 150-yə yaxın elmi əsərin, 12 monoqrafiyanın, dərslik və dərs vəsaitlərinin, 1 ixtira, 12 səmərələşdirici təklifin müəllifi və həmmüəllifi olmuşdur. Unudulmaz alimin həkim-oftalmoloqlar üçün nəzərdə tutulmuş dərs vəsaitləri, "Herpetik göz xəstəliyi", "Ağır virus konyunktivitləri", "Şin istehsalında gözün peşə patologiyası", "Xroniki yod intoksikasiyası ilə bağlı oftalmologiya", "Yod sənayesində gözün peşə xəstəliyinin profilaktikası" monoqrafiyaları, həmmüəlliflərindən olduğu fundamental xarakterli "Terapevtik oftalmologiya" kitabı indi də bu sahənin mütəxəssislərinin əsas istinad mənbələrindəndir. Görkəmli alimin elmi-tədqiqat işlərinin bir qismi görmə orqanının bədxassəli şişlərinin, qlaukomanın etimologiyası, diaqnostikası və müalicəsi məsələlərini əhatə edir. Onun "Gözün hidrodinamik sisteminin anatomo-fizioloji xarakteristikası", "Gözün əlaqədar dəyişiklikləri və görmə-sinir yolları" adlı monoqrafiyaları və digər əsərləri göz xəstəliklərinin yaş xüsusiyyətlərinə, "Göz sulanmasının fiziologiyası", "Göz sulanmasının müasir cərrahiyyə üsulları ilə müalicəsi" və digər monoqrafiyaları isə daktriologiyaya həsr edilmişdir. Zərifə xanım Əliyevanın qələmə aldığı "Oftalmologiyanın aktual məsələləri", "İridodiaqnostikanın əsasları" və sair kitabları keçmiş SSRİ dövründə nüfuzlu səhiyyə xadimləri tərəfindən yüksək səviyyədə qarşılanmışdır.

Dünya oftalmologiya elminin tanınmış simaları Zərifə xanım Əliyevanın elmi irsi haqqında dəyərli sözlər demişlər. Moskva oftalmologiya məktəbi Zərifə xanımı oftalmologiyanın mirvarisi adlandırırdı. Dünyaşöhrətli oftalmoloq, akademik A.Nesterov yazırdı: "Zərifə Əliyeva çox ağıllı insan və böyük professional idi. Mən onu öz sahəsinin məşhur alimi hesab edirəm. Oftalmologiyada o, birnömrəli alim idi". Akademik N.Puçkovskaya "xeyirxahlıq Zərifə xanımın həyat tərzi idi" deyərək alimin yüksək insani keyfiyyətlərə malik olduğunu vurğulamışdır. Professor A.Brovkina onu nəciblik və mənəvi paklıq timsalı adlandırmışdır. Professor N.Şulpina Zərifə xanımı dünyaşöhrətli alim adlandıraraq "Biz onu sevmişik, sevirik və ömrümüzün sonuna qədər sevəcəyik" demişdir.

Zərifə xanım həkimliyə bu münasibəti, dəyəri yeni yetişən həkim kadrlarda da görmək istəyirdi. Ona görə öz elmi fəaliyyətində səhiyyə işçilərinin mənəvi tərbiyəsi, tibbi etika və əxlaq kimi məsələlərə də xüsusi yer ayırırdı. Bu baxımdan onun 1983-cü ildə nəşr olunmuş "Həkimlərin mənəvi tərbiyəsi, deontologiya, tibbi etika və əxlaq məsələləri" adlı əsəri yalnız tibb işçilərinin stolüstü kitabı deyildi, həm də insan münasibətlərini əks etdirirdi. Zərifə xanım bu məsələləri təkcə qələmə almaqla kifayətlənmirdi. Bir həkim kimi öz şəxsi nümunəsi ilə də bu yüksək əxlaqı nümayiş etdirir, başqaları üçün örnək yaradırdı.

## Bir ömürlük sevgi

Tale 1948-ci ildə Zərifə xanımı həyatının gözəl bir təsadüfü ilə qarşılaşdırmışdı. Bu təsadüfün adı sevgi idi. O, illər sonra Azərbaycanın Ümummilli Liderinə çevriləcək Heydər Əliyevlə həmin il tanış olmuşdu. Elə ilk tanışlıqdan hiss etmişdilər ki, tale onları bir-birinə yazıb. Həmin illərdə isə ətrafda zamanın sərt ruzigarı əsirdi. Tanınmış dövlət xadimi Əziz Əliyevin el arasındakı nüfuzunu, mərkəzdə ona olan yüksək münasibəti gözü götürməyənlər vardı. Ona qarşı təzyiqlər getdikcə güclənirdi.

Heydər Əliyevin - xüsusi xidmət orqanlarının gənc zabitinin Əziz Əliyevin qızına olan münasibətindən xəbər tutanlar bunun doğurduğu təhlükələri onun nəzərinə çatdırmağı unutmamışdılar. Amma Heydər Əliyev bu məqamda gələcək vəzifə irəliləyişini deyil, sevgisini, ona könül vermiş qızın inamını üstün tutdu. Və bu fədakarlıq Heydər Əliyevin özünə də həyatının ən böyük xoşbəxtliyini qazandırdı.

1995-ci ilin 28 aprel günü - anadan olmasının 72-ci ildönümündə Ulu Öndər Heydər Əliyev onun haqqında kövrək səsi ilə bir ömürlük sevgi xatirəsini belə bölüşdü: "Zərifə xanım çox böyük alim olub. Mən hələ onunla həyat quranda o, artıq elm yolunda idi, elmlə məşğul idi. Onun elmi fəaliyyəti məlumdur. O, çox istedadlı, çox xeyirxah, çox sadə insan idi. Mən bu barədə çox danışa bilərəm. Ailəmin yaşaması, bu günlərə çatması, övladlarımın tərbiyəsi üçün və həyatımda onun əvəzsiz rolu üçün mən bu gün Zərifə xanımın məzarı qarşısında baş əyirəm. On il keçsə də, onu bir dəqiqə də unutmuram və unutmayacağam. Mənim övladlarım da bu əhvali-ruhiyyədədirlər. Onlar bu əhvali-ruhiyyədə tərbiyələniblər, formalaşıblar. Ona görə də bu gün bizim üçün müqəddəs gündür...

...Bu gün xoşbəxt gündür. Çünki bu gün Zərifə xanım kimi böyük bir insan dünyaya gəlib, mənim həyatımı xoşbəxt edib, mənə gözəl övladlar bəxş edib. Eyni zamanda qəmli gündür. On il keçsə də, mən bu qəmdən ayrıla bilmirəm".

## Sadə və xeyirxah insan

Sadə davranış, səmimi münasibət və yüksək mədəniyyət Zərifə xanım Əliyevanın xarakterinin əsas cizgiləri idi. O, qazandığı yüksək elmi ad və nüfuza baxmayaraq, hər zaman təvazökarlığı, insanlara mehriban və diqqətli münasibəti ilə seçilirdi. Xeyirxahlıq göstərməyi və ehtiyacı olanlara yardım etməyi özünün mənəvi borcu hesab edirdi. Bu səbəbdən də onu tanıyanlar üçün Zərifə xanım xeyirxahlığın canlı nümunəsi idi.

Qeyd etdiyimiz kimi, taleyin hökmü ilə Zərifə xanım milli dövlətçilik tariximizdə müstəsna yerə və rola malik Ümummilli Lider Heydər Əliyevin həyat yoldaşı, ən yaxın silahdaşı olmuşdur. Sovet dövründə "birinci xanım" anlayışı formal olaraq mövcud deyildi, dövlət rəhbərlərinin həyat yoldaşları ictimai mühitdə geniş tanınmırdılar. Bu ənənə Azərbaycanda məhz Heydər Əliyevin təşəbbüsü ilə dəyişməyə başladı. Onun respublikaya rəhbərlik etdiyi ilk illərdən etibarən Zərifə xanımın müxtəlif tədbirlərdə onun yanında görünməsi yeni bir yanaşmanın əsasını qoydu. Bu, digər rəhbər şəxslər üçün də nümunə oldu və nəticədə qadınların ictimai həyatda iştirakı daha da genişləndi.

Zərifə xanım Əliyeva yalnız elmi və ictimai fəaliyyəti ilə deyil, həm də ailə həyatındakı mövqeyi ilə də nümunəvi bir Azərbaycan qadını kimi tanınırdı. Gərgin elmi-pedaqoji fəaliyyəti və həkimlik məsuliyyətlərinə baxmayaraq, o, iş və ailə arasında balansı həmişə qoruyurdu.

Azərbaycan Prezidenti İlham Əliyev Zərifə xanımı - anasını işıqlı xatirələrlə yada salır: "Əlbəttə ki, onun unudulmaz obrazı bu gün də mənim üçün çox əzizdir, doğmadır. Eyni zamanda Zərifə xanım yüksək davranış meyarlarına malik idi. İnsanlara münasibətdə səmimiyyət, xeyirxahlıq, eyni zamanda yüksək mədəniyyət, alicənablıq - bütün bu gözəl amillər onda birləşmişdi. Zərifə xanım əsl ziyalı idi, Azərbaycan xanımına xas olan bütün müsbət keyfiyyətləri özündə birləşdirmişdi, onları təcəssüm etdirirdi.

...Mən çox xoşbəxtəm ki, Zərifə xanım kimi anam olmuşdur. Ancaq əfsuslar olsun ki, biz onu tez itirdik. Vaxtından əvvəl həyatdan getdi, hələ çox iş görə bilərdi".

Çarəsiz xəstəlik 1985-ci ildə onun ömrünə son qoydu. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva bu itkinin acısını müsahibələrinin birində belə dilə gətirmişdi: "Təəssüf ki, mənim Zərifə xanımla ünsiyyətim qısa oldu. Biz 1983-cü ildə tanış olduq, 1985-ci ildə Zərifə Əliyeva həyatdan getdi. Bu istedadlı və gözəl qadınla bağlı xatirələr hələ də mənim qəlbimdə yaşayır".

## Vicdanının səsinə sadiq şəxsiyyət

Zərifə xanım Əliyeva yüksək mənəvi məsuliyyət hissi ilə yaşayan, vicdanının səsinə hər zaman sadiq qalan bir şəxsiyyət idi. O, yalnız milli səviyyədə deyil, bəşəri problemlərin həllinə də biganə qalmır, dövrün qlobal çağırışları qarşısında fəal mövqe sərgiləyirdi. Nüvə təhlükəsinin dünyanı narahat etdiyi bir zamanda sülh və təhlükəsizliyin qorunması uğrunda çıxış edən alimlər sırasında yer alırdı. Zərifə xanım vurğulayırdı ki, sülh uğrunda fəaliyyət hər kəsin, xüsusilə də elm və mədəniyyət xadimlərinin borcudur, çünki bu, insanların rifahını və xoşbəxt yaşamaq haqqını qorumaq deməkdir.

Onu yaxından tanıyanların xatirələrinə görə, tez-tez təkrar etdiyi bir fikir görkəmli alimin həyat fəlsəfəsini aydın ifadə edirdi: "İnsan üçün ən böyük xoşbəxtlik həm düşüncəyə, həm də xeyirxahlığa xidmət etməkdir".

Akademik Zərifə xanım Əliyeva kimi şəxsiyyətlər dəyərlərin simvoludurlar. Bu dəyərlər yaşadıqca böyük alimin adı və irsi də var olacaq. Görkəmli elm xadiminin unudulmaz xatirəsi insanları daim öz işığına toplayır, həyat yolumuza, elmimizə, təhsilimizə sönməyən çıraq tutur.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# "Ağıllı ev" sahibi olmağın üstünlükləri

## Rahatlıq, təhlükəsizlik və qənaət

**Müasir dünyada ev artıq, sadəcə, yaşamaq üçün məkan deyil, həm də rahatlıq, təhlükəsizlik və zaman idarəetməsinin mərkəzinə çevrilib. Texnologiyanın sürətli inkişafı ilə birlikdə "ağıllı ev" anlayışı gündəlik həyatın bir hissəsinə çevrilir və insanların həyat keyfiyyətini nəzərəçarpacaq dərəcədə yaxşılaşdırır.**

Bu anlayışın əsasında isə müxtəlif cihazların bir-biri ilə əlaqəli şəkildə işləməsi və istifadəçinin həyatını asanlaşdırması dayanır. Məsələn, "Google Home" və "Apple HomeKit" kimi platformalar vasitəsilə evdəki bir çox cihazı tək bir sistem üzərindən idarə etmək mümkündür.

"Ağıllı ev" texnologiyalarının əsas üstünlüklərindən biri gündəlik işləri avtomatlaşdırmaqdır. Səhər yuxudan oyanarkən pərdələrin açılması, işıqların tədricən yanması və qəhvə aparatının işə düşməsi artıq arzu deyil, real həyatın bir hissəsidir. Bu cür avtomatlaşdırılmış işlər insanın günə daha rahat başlamasına kömək edir və eyni zamanda vaxt itkisinin qarşısını alır. Axşam saatlarında isə işıqların yumşaq rejimə keçməsi, otaq temperaturunun ideal səviyyəyə gətirilməsi və televizorun öz-özünə açılması ev mühitində komfortu maksimum səviyyəyə çatdırır.



Rahatlıqla yanaşı, "ağıllı texnologiyalar" təhlükəsizlik baxımından da mühüm rol oynayır. "Ağıllı kameralar", hərəkət sensorları və qapı kilidləri ev sahiblərinə uzaqdan nəzarət imkanı yaradır. Bu gün artıq klassik açar anlayışı tədricən arxa plana keçir və onun yerini daha təhlükəsiz və praktik həllər tutur. Məsələn, barmaq izi ilə işləyən ağıllı kilidlər vasitəsilə qapını açmaq mümkündür və bu həm təhlükəsizlik, həm də rahatlıq baxımından böyük üstünlük yaradır. "August Smart Lock Pro" kimi cihazlar telefon və ya biometrik identifikasiya ilə qapıya nəzarəti mümkün edir. Eyni zamanda müasir "ağıllı qurğular" vasitəsilə qapıya gələn şəxsi uzaqdan görmək və onunla danışmaq da mümkündür.

"Ağıllı ev" texnologiyaları yalnız evdə olduğunuz zaman deyil, siz evə gəlməmişdən əvvəl də rahatlıq yaradır. Məsələn, işdən çıxarkən telefon vasitəsilə kondisioneri işə salmaq mümkündür ki, evə daxil olanda sizi artıq sərin və komfortlu hava qarşılasın. Bu, xüsusən yay aylarında komfort deməkdir. Eyni cür robot tozsoranlar da sizin evdə olmadığınız vaxtda işləyərək təmizliyi təmin edir. iRobot Roomba kimi cihazlar proqramlaşdırılmış saatlarda evi avtomatik təmizləyir və siz evə qayıdanda artıq təmiz mühitlə qarşılaşırsınız. Bu, gündəlik iş yükünü əhəmiyyətli dərəcədə azaldır.

Enerji səmərəliliyi də "ağıllı ev" texnologiyalarının ən vacib tərəflərindən biridir. Ənənəvi evlərdə enerji istifadəsi çox vaxt nəzarətsiz olur, lakin "ağıllı sistemlər" sayəsində bu proses optimallaşdırılır. Məsələn, Nest Learning Thermostat istifadəçinin gündəlik vərdişlərini öyrənərək temperaturu tənzimləyir və enerji sərfiyyatını azaldır. İşıqların boş otaqlarda sönməsi və ya müəyyən saatlarda aktivləşməsi də həm qənaət, həm də ekoloji baxımdan faydalıdır.

"Ağıllı ev" anlayışı yalnız böyük və bahalı sistemlərlə məhdudlaşmır. Bu texnologiyanı addım-addım, kiçik dəyişikliklərlə də tətbiq etmək mümkündür. Məsələn, "ağıllı lampalar", prizlər və ya səsli köməkçilər evdə texnologiya ilə rahatlıq yaratmağın ən sadə yollarındandır. "Amazon Echo" kimi cihazlar vasitəsilə səsli əmrlərlə işıqları yandırmaq, musiqini qoşmaq və ya gündəlik planı yoxlamaq mümkündür. Bu isə xüsusən məşğul insanlar üçün böyük rahatlıq yaradır.

Digər mühüm məqam isə fərdiləşdirmədir. "Ağıllı ev" sistemləri istifadəçinin həyat tərzinə uyğunlaşa bilir. Hər bir insanın gündəlik rutini fərqli olduğu üçün texnologiyanın da bu fərqliliyə uyğunlaşması vacibdir. Məsələn, səhər tezdən oyanan biri üçün sistem fərqli ssenarilər qurur, gec yatan biri üçün isə tamam başqa rejimlər tətbiq edilir. Hətta evdən çıxarkən bütün cihazların sönməsi, qapının kilidlənməsi və təhlükəsizlik sisteminin aktivləşməsi kimi "bir toxunuşla idarə" funksiyaları gündəlik həyatı xeyli sadələşdirir.

Bununla yanaşı, "ağıllı texnologiyalar"ın psixoloji təsiri də diqqətəlayiqdir. Daha rahat, nizamlı və idarə olunan ev mühiti insanın stresini azaldır. Xüsusilə işdən yorğun qayıdan birinin artıq əvvəlcədən hazırlanmış - sərin, təmiz və işıqlı evə daxil olması onun əhvalına müsbət təsir göstərir. Evdə bütün cihazların sistemli işləməsi insan beynində nəzarət hissini artırır və gündəlik həyatı daha az yorucu edir.

Texnologiyanın bu qədər geniş imkanlarına baxmayaraq, ondan düzgün və balanslı istifadə etmək vacibdir. Həddindən artıq avtomatlaşdırma bəzən insanın texnologiyadan asılılığını artıra, hətta onu tənbəlləşdirə bilər. Buna görə də "ağıllı ev" qurarkən əsas məqsəd həyatın asanlaşdırılması olmalıdır, mürəkkəbləşdirilməsi yox. Sadə və effektiv həllər çox vaxt daha uğurlu nəticə verir.

"Ağıllı ev" texnologiyaları müasir həyatın ayrılmaz hissəsinə çevrilməkdədir. Onlar yalnız komfort yaratmır, həm də təhlükəsizlik, qənaət və psixoloji rahatlıq təmin edir. Barmaq izi ilə açılan qapılar, siz evə gəlməmişdən əvvəl işləyən kondisioner və təmizlik robotları artıq gələcəyin deyil, bu günün reallığıdır. Kiçik addımlarla belə bu texnologiyaları evə inteqrasiya etmək mümkündür və həmin dəyişikliklər gündəlik həyatın keyfiyyətinə ciddi təsir göstərir. Gələcəkdə isə bu sistemlərin daha da inkişaf edərək evləri tam avtomatlaşdırılmış və istifadəçiyə uyğunlaşan məkanlara çevirməsi qaçılmazdır.

*Nərminə ƏSGƏROVA,*
*"Azərbaycan"*

# İqtisadiyyat və sosial həyat

**Yaxın zamanda Bakı daha bir mühüm beynəlxalq tədbirə evsahibliyi etməyə hazırlaşır. Ümumdünya Şəhərsalma Forumunun XIII Sessiyası (WUF13) "Hər kəs üçün yaşayış yerləri: təhlükəsiz və dayanıqlı şəhərlər və yaşayış məskənləri" mövzusu ilə mayın 17-22-də Bakı Olimpiya Stadionunda keçiriləcək. Bir ay sonra baş tutacaq bu mötəbər tədbir şəhərsalma, davamlı inkişaf və urbanizasiya sahəsində qlobal müzakirələr üçün önəmli platforma olacaq.**




## WUF13: gələcəyin şəhərlərini formalaşdıran qlobal platforma

### Bakının evsahibliyi edəcəyi bu beynəlxalq tədbirin başlanmasına çox qalmayıb

Dünyanın müxtəlif ölkələrindən minlərlə iştirakçının qatılacağı tədbir çərçivəsində şəhərlərin gələcəyi, iqlim dəyişmələri, hərtərəfli inkişaf, urbanizasiya və innovativ yanaşmalar kimi aktual mövzular müzakirə olunacaq. Bakı bu forum vasitəsilə həm öz urban inkişaf təcrübəsini bölüşəcək, həm də beynəlxalq əməkdaşlıq imkanlarını genişləndirəcək. WUF13, əslində, gələcək şəhər inkişafının prinsiplərini və modellərini müəyyənləşdirəcək yol xəritəsidir. Tədbirdə memarlarla yanaşı, ekoloqlar, iqtisadçılar və müxtəlif sahələr üzrə mütəxəssislər, eləcə də əlaqədar qurumlar iştirak edəcəklər. Forum çərçivəsində dövlət rəsmiləri, akademik dairələr, qeyri-hökumət təşkilatları, şəhərsalma sahəsində mütəxəssislər və iş adamları geniş fikir mübadiləsi aparacaq, bilik və təcrübələrini paylaşmaq imkanı əldə edəcəklər. Beynəlxalq tədbir iştirakçılar arasında körpü rolunu oynayaraq, fərqli ölkələrdə hazırlanmış ideya və layihələrin qısa müddətdə təqdim olunmasına və tətbiqinə imkan yaradacaq.

Unutmayaq ki, tədbir həm də yeni ideya və təşəbbüslərin doğulduğu qlobal platforma kimi nəzərdə tutulub. WUF13 çərçivəsində təqdim olunan layihələr bütün ölkələr üçün açıq olan və real tətbiq potensialı daşıyan inkişaf modelləridir. Bu da onu deməyə əsas verir ki, WUF13 gələcəyin şəhərlərinin xəritəsini çəkən, ideyaları gerçəkləşdirən və dünya miqyasında dəyişiklik yaradan dinamik bir platforma kimi yaddaşlara həkk olunacaq.

Bu səbəbdən WUF13-ün hazırlıq prosesi ideyaların formalaşması və onların həyata keçirilməsi üçün fiziki və inzibati zəminin yaradılmasını tələb edir. Bakı Olimpiya Stadionu artıq gələcəkdə dünya şəhərlərinin taleyini müzakirə edəcək möhtəşəm platformaya çevrilməyə hazırlaşır. Beynəlxalq tədbirin keçirilməsi üçün stadionda tikinti və quraşdırma işləri bütün sürəti ilə davam edir. Hər künc, hər detal böyük bir diqqət və peşəkarlıqla işlənir. WUF13 Azərbaycan Əməliyyat Şirkətinin komandası isə tədbirin döyünən ürəyi olaraq günün hər saatı buradadır. Onların fasiləsiz fəaliyyəti, operativ qərarları və səmərəli işi forumun istənilən səviyyədə həyata keçirilməsini təmin edir. Hər şey - məkanın dizaynından, infrastruktur planlamasına, təhlükəsizlikdən nəqliyyata, akkreditasiyadan könüllülük proqramına qədər - incə bir şəkildə, ən yüksək standartlara uyğun hazırlanır. Hazırlıqlar forumun beynəlxalq səhnədə işıq saçacağı günün həyəcanını, Bakının qlobal urbanizm arenasında parlayacaq rolunu göstərir.

WUF13 Azərbaycan Əməliyyat Şirkətinin Media əlaqələri üzrə meneceri Eldar Rəsulov hazırlıqlarla bağlı deyib ki, WUF13-ün əməliyyat potensialını gücləndirmək və tədbirin bütün proseslərinə dəstək vermək məqsədilə Könüllülük Proqramı aktiv şəkildə fəaliyyət göstərir. Forumda iştirak etmək arzusu ilə 16 min nəfər müraciət edib: "Təlimləri uğurla başa vuran 2500 könüllü mərhələli şəkildə tədbirin müxtəlif sahələrinə cəlb olunacaq. Forum dövründə WUF13 könüllüləri qonaqların qarşılanmasından, qeydiyyat və informasiya xidmətlərinə, sessiya və sərgi zonalarının təşkilindən mədəni proqramların həyata keçirilməsinə qədər geniş spektrdə fəaliyyət göstərəcəklər. Onların enerjisi və fədakarlığı tədbirin yüksək səviyyədə keçirilməsini təmin edən əsas amillərdən biri olacaq".

Qeyd edək ki, tədbirin keçiriləcəyi məkanda Media Mərkəzi fəaliyyət göstərəcək və jurnalistlər üçün rahat, səmərəli iş şəraiti təmin olunacaq. Burada canlı yayım otaqları, müsahibə və stand-up mövqeləri, mətbuat konfransı otağı və digər zəruri infrastruktur yaradılıb. Forum dövründə istifadə olunacaq simsiz cihazların qeydiyyatı və radiospektrin idarə edilməsi isə İnformasiya Kommunikasiya Texnologiyaları Agentliyi ilə əməkdaşlıq çərçivəsində "WUF13 Radiospektrin idarə edilməsi" portalı vasitəsilə həyata keçiriləcək. Bu imkan həm yerli, həm də xarici media nümayəndələrinə effektiv və rahat iş şəraiti təqdim edir, tədbirin şəffaf və operativ şəkildə ictimaiyyətə çatdırılmasına dəstək olur.

WUF13 dayanıqlı şəhərlər üçün innovativ təkliflərin müzakirəsi, şəhər ərazilərinin qarşılaşdığı problemlərə cavab verəcək yeni tərəfdaşlıqların və layihələrin qurulması üçün qlobal platforma rolunu oynayacaq. Tədbir müddətində 40 əsas sessiya və 350 tərəfdaş tədbiri keçirilməsi planlaşdırılır. Dünyanın ən nüfuzlu şəhərsalma sərgisi sayılan "Urban Expo" sərgisi 35 min kvadratmetr sahədə təşkil olunacaq. Burada ölkələr, şəhərlər, bələdiyyələr, regional və BMT təşkilatları, akademik institutlar, beynəlxalq maliyyə qurumları, vətəndaş cəmiyyəti təşkilatları, fondlar və özəl şirkətlər iştirak edə biləcəklər.

Ümumdünya Şəhərsalma Forumu tarixində ilk dəfə Xəzər və Cənubi Qafqaz regionuna gələcək. Beynəlxalq platforma bölgədə yaradılmış və planlaşdırılan "ağıllı şəhər"lərin önəmini vurğulayan, şəhərsalma sahəsində innovativliyi işıqlandıran bir ayna, həmçinin gələcəyin şəhərlərini formalaşdırmaq üçün ideyaların paylaşıldığı və yeni əməkdaşlıqların doğulduğu canlı bir laboratoriya olacaq. Tarixdə ilk dəfə Bakıda mənzil və şəhərsalma məsələlərinin ən yüksək siyasi səviyyədə müzakirəyə çıxarılması isə bu sahənin qlobal gündəlikdə önəmli mövqe tutmasına xidmət edir.

Beləliklə, WUF13 şəhərlərin taleyinə toxunan, ideyaları gerçəkləşdirən və gələcəyin urban həyatını işıqlandıran qlobal işıq nöqtəsi kimi Azərbaycanın şəhərsalma və dayanıqlı inkişaf sahələrində qazandığı təcrübəni dünyaya təqdim etmək imkanı yaradır. Prezident İlham Əliyevin uzaqgörən rəhbərliyi ilə azad edilmiş ərazilərdə xüsusilə son illər həyata keçirilən "ağıllı şəhər" və "yaşıl enerji" layihələri forum iştirakçılarının diqqət mərkəzində olacaq ki, bu da ölkəmizin innovativ yanaşmalarını beynəlxalq səviyyədə tanıtmaq baxımından mühüm fürsətdir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

## Latviya ilə iqtisadi əməkdaşlığın inkişafı müzakirə olunub

**Latviyanın kənd təsərrüfatı naziri ilə görüşdə ticarət, enerji, investisiya, nəqliyyat və kənd təsərrüfatı sahələrində birgə fəaliyyətin gücləndirilməsi nəzərdən keçirilib.**



İqtisadiyyat naziri Mikayıl Cabbarov Latviyanın kənd təsərrüfatı naziri, Azərbaycan və Latviya arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın həmsədri Armands Krauze ilə görüşüb.

Görüşdə Azərbaycanın Latviya ilə əlaqələrin gücləndirilməsinə önəm verdiyi vurğulanıb. Qeyd olunub ki, 2017-ci ildə ölkələrimiz arasında imzalanmış Strateji Tərəfdaşlığın Qurulmasına dair Birgə Bəyannamə ikitərəfli münasibətlərimizin dərinləşdirilməsi üçün möhkəm baza rolunu oynayır. Bildirilib ki, Latviya ilə iqtisadi-ticarət tərəfdaşlığı inkişaf edir. Ötən il və bu ilin ilk iki ayı ərzində qarşılıqlı ticarət dövriyyəsinin həcminin artması da buna dəlalət edir. Bununla belə bu sahədə daha yüksək nəticələrə nail olmaq üçün imkanlar diqqətə çatdırılıb.

Görüşdə Azərbaycanda investorlar üçün yaradılmış əlverişli fürsətlər haqqında məlumat verilib, müxtəlif istiqamətlər, o cümlədən birgə müəssisələrin yaradılması, tranzit daşımalar, turizm və s. üzrə işbirliyinin möhkəmləndirilməsi üçün geniş perspektivlər qeyd edilib.

Tərəflər ticarət, enerji, investisiya, nəqliyyat və kənd təsərrüfatı sahələrində birgə fəaliyyətin genişləndirilməsi imkanlarını dəyərləndiriblər.

## Əsas kapitala 4 milyard manat investisiya yönəldilib

**Birinci rübdə ölkə üzrə əsas kapitala 4 milyard 49,8 milyon manat məbləğində və ya ötən ilin eyni dövrü ilə müqayisədə real ifadədə 14,9 faiz çox investisiya yönəldilmişdir.**

Dövlət Statistika Komitəsi bildirir ki, neft-qaz sektoruna yönəldilmiş investisiyaların həcmi real ifadədə 44,6 faiz artaraq 1525,9 milyon manat, qeyri-neft-qaz sektoruna yönəldilmiş investisiyaların həcmi isə real ifadədə 2,2 faiz artaraq 2523,9 milyon manat olmuşdur.

Əsas kapitala yönəldilmiş investisiyaların həcmi məhsul istehsalı sahələri üzrə real ifadədə 23,9 faiz artaraq 2286,6 milyon manat, xidmət sahələri üzrə real ifadədə 27,3 faiz artaraq 1252,8 milyon manat, yaşayış evlərinin tikintisinə yönəldilmiş investisiyaların həcmi isə real ifadədə 26,6 faiz azalaraq 510,4 milyon manat olmuşdur.

## Yanvar-mart aylarında ölkə üzrə 29,7 milyard manatdan çox ÜDM istehsal olunub

**Cari ilin yanvar-mart aylarında ölkədə 29703,2 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə real ifadədə 0,3 faiz az ümumi daxili məhsul (ÜDM) istehsal olunmuşdur. İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 1,2 faiz azalmış, qeyri neft-qaz sektorunda isə 0,2 faiz artmışdır.**

Dövlət Statistika Komitəsinin məlumatına görə, ÜDM istehsalının 33,5 faizi sənaye, 11,3 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 7,1 faizi nəqliyyat və anbar təsərrüfatı, 4,6 faizi tikinti, 3,3 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 3,2 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 2,0 faizi informasiya və rabitə sahələrinin, 23,3 faizi digər xidmət sahələrinin payına düşmüş, məhsula və idxala xalis vergilər ÜDM-in 11,7 faizini təşkil etmişdir.

Bu dövrdə informasiya və rabitə sahələrində əlavə dəyər real ifadədə 9,2, ticarət; nəqliyyat vasitələrinin təmiri sahələrində 3,7, turistlərin yerləşdirilməsi və ictimai iaşə sahələrində 2,9, nəqliyyat və anbar təsərrüfatı sahələrində 1,5, digər xidmət sahələrində 0,3, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələrində 1,2, sənayedə 0,2 faiz artmış, tikintidə isə 19,8 faiz azalmışdır.

## Sənaye məhsullarının istehsalı artıb

**Sənaye sektorunda yanvar-mart aylarında 14,9 milyard manat məbləğində və ya ötən ilin eyni dövrü ilə müqayisədə real ifadədə 0,2 faiz çox sənaye məhsulu istehsal edilmişdir.**

Emal sənayesində 2026-cı ilin yanvar-mart aylarında daha çox artım avtomobil, qoşqu və yarımqoşquların istehsalı, əczaçılıq məhsullarının istehsalı, maşın və avadanlıqların quraşdırılması və təmiri işləri, elektrik avadanlıqlarının istehsalı, toxuculuq sənayesi sahələrində olmuşdur.

## Neft ucuzlaşıb

**AZƏRTAC xəbər verir ki, dünya birjalarında neft ucuzlaşıb.**



Londonun ICE ("InterContinental Exchange Futures") birjasında "Brent" markalı neftin bir barelinin qiyməti 0,89 dollar azalaraq 98,47 dollar olub. Nyu Yorkun NYMEX ("New York Mercantile Exchange") birjasında "Light" markalı neftin bir barelinin qiyməti isə 1,74 dollar azalaraq 97,34 dollar təşkil edib.

## Dünyanın "Qordi düyünü" - Hörmüz boğazı

### O, vaxtında açılmasa, qlobal ərzaq böhranı da yarana bilər

**Bu gün dünya Amerika-İran müharibəsinin ədalətli olub-olmamasından, savaşın böyük dağıntılar törətməsindən, günahsız insanların ölümündən daha çox onun nəticəsi olan Hörmüz boğazının açılıb-açılmamasından danışır. Çünki indi Yaxın Şərqin və uzaq Qərbin dərdi Hörmüz boğazından neft daşıyan tankerlərin taleyi ilə bağlıdır.**

Dünya Hörmüz boğazında düyünə düşüb, indi bu "Qordi düyünü"nü açmaq üçün ciddi müzakirələr gedir. Artıq hamıya məlumdur ki, ABŞ-nin bütün hədələrinə baxmayaraq, İran tutduğu mövqedən çəkilənə oxşamır, dirəniş göstərir. Hətta o dərəcədə ki, Amerika NATO-ya boğazı açmaq üçün koalisiya yaratmağı təklif edib. İlk etiraz Böyük Britaniyadan gəlib. Başqa Avropa ölkələri isə susmağa üstünlük verib. Görünən odur ki, alyans ölkələri bu koalisiyaya ən azından ehtiyatla yanaşırlar.

Əvəzində ABŞ bildirir ki, Hörmüz boğazından haqq ödəyib keçən gəmiləri açıq okeanda saxlayacaq. Bir çox ekspert bunun mümkünsüz olacağını bildirir. Belə ki, Hörmüz boğazı üzərindən keçən İran neftinin ən böyük alıcıları Çin, Hindistan, Yaponiyadır və ABŞ həmin ölkələrlə münasibətləri gərginləşdirmək istəməz.

İranın boğazdan keçən gəmilərin hər birindən 2 milyon dollar tələb etməsi təbii ki, dünya bazarında neftin qiymətinə təsirsiz ötüşməyəcək. O səbəbdən dünyada ABŞ-yə qarşı ciddi bir etiraz var. Xüsusən Avropa ölkələrinin bundan daha çox əziyyət çəkəcəyi bildirilir. Belə olan halda "qoca qitə" ya bu bahalıqla razılaşmalıdır, ya da yenidən yanacaq sarıdan Rusiyadan asılı vəziyyətə düşməlidir. Bu işin ən maraqlı tərəfi İranın boğazdan keçən gəmilərə tətbiq etdiyi 2 milyonluq ödənci yuanla tələb etməsidir. Bu isə onsuz da son dövrlər dollara olan inamsızlığın daha da güclənməsi və nəticədə ABŞ-nin "dollar ağalığı"na ciddi zərbə deməkdir.

Məlumdur ki, boğazdan keçən gəmilərə nəzarəti möhkəmləndirmək üçün İran Hörmüz boğazını minalayıb. Onsuz da dar olan boğazın bir hissəsinin minalanması gəmiçilik üçün daha ciddi risklər yaradıb. Digər tərəfdən, Amerika ilə İran tərəfindən verilən bəyanatlar birjalarda nefti bahalaşdırmaqda davam edir. Məsələn, Donald Trampın Hörmüz boğazını blokadada saxlamaq, İran parlamentinin sədri Məhəmmədbaqer Qalibatın ABŞ və Avropa şirkətlərini benzinin qiymətinin bahalaşması barədə hədələri dünya bazarında neftin qiymətinin daha da yüksəlməsi ilə nəticələnib.

Bir çox mütəxəssisin hesablamalarına görə, Hörmüz boğazı ilə bağlı indiki vəziyyət dünya iqtisadiyyatında artımın aşağı düşməsinə səbəb olub. Bildirirlər ki, proses 6 ay davam edərsə, nəticələri daha pis olacaq. Bu, qlobal iqtisadiyyatın 2,9 faiz azalması, inflyasiyanın yüksəlməsi, beynəlxalq təchizat və ticarət zəncirinin qırılması, kütləvi işsizlik və sosial gərginliyin artması ilə müşayiət edilə bilər.

Məsələnin tezliklə həll edilməsinə olan inam isə azalıb, xüsusən də İslamabad danışıqlarından sonra Donald Trampın "Əlimiz tətikdədir", Məhəmmədbaqer Qalibatın isə "Savaş istəsələr, savaşacağıq" bəyanatları sülh tərəfdarlarını ümidsizliyə salıb. İran ABŞ-nin üç əsas tələbini - nüvə tədqiqatlarından əl çəkməsini, raketlərin vurma hədəfinin 500 kilometrə qədər azaldılmasını və prokis qüvvələrini dəstəkləməməsini rədd edib. Üstəlik, danışıqlar ərəfəsində boğazdan keçən gəmilərin haqq ödəməsi məsələsini də gündəmə gətirib. Odur ki, İslamabad görüşündən sonra Beynəlxalq Enerji Agentliyi, Beynəlxalq Valyuta Fondu və Dünya Bankı Qrupu rəhbərlərinin narahatlıqlarını bildirmələri təbiidir. Təbii olan həm də Yaxın Şərqdəki müharibənin enerji və iqtisadi təsirlərinə qarşı institutlarının reaksiyasını maksimum səviyyədə gücləndirmək üçün aprelin əvvəlində yaradılan koordinasiya qrupu çərçivəsində onların görüş keçirmələridir. Görüşdən sonra qrup tərəfindən birgə yayılan bəyanatda deyilir: "Bu ayın əvvəlində qeyd etdiyimiz kimi, müharibənin təsirləri əhəmiyyətli, qlobal və yüksək dərəcədə qeyri-bərabərdir, xüsusilə enerji idxalçısı olan ölkələrə, o cümlədən aşağı gəlirli dövlətlərə qeyri-mütənasib təsir göstərir. Bu şok neft, qaz və gübrə qiymətlərinin artmasına səbəb olub, həmçinin ərzaq təhlükəsizliyi və iş yerlərinin itirilməsi ilə bağlı narahatlıqları gücləndirib. Yaxın Şərqdə bəzi neft və qaz istehsalçıları da ixrac gəlirlərində kəskin azalma ilə üzləşiblər". Sənəddə həmçinin bildirilir ki, vəziyyət hələ də yüksək qeyri-müəyyən olaraq qalır və Hörmüz boğazından gəmiçilik hələ tam normallaşmayıb: "Hətta boğazdan müntəzəm gəmiçilik axınları bərpa olunduqdan sonra belə, əsas xammal və məhsullar üzrə qlobal təchizatın münaqişədən əvvəlki səviyyələrə qayıtması zaman alacaq və infrastrukturun zədələnməsi səbəbindən yanacaq və gübrə qiymətləri uzun müddət yüksək qala bilər. Təchizat zəncirindəki pozuntular nəticəsində əsas resursların çatışmazlığı enerji, ərzaq və digər sahələrə təsir göstərə bilər. Müharibə həmçinin insanların məcburi köçürülməsinə səbəb olub, məşğulluğa təsir edib və səfər və turizm həcmini azaldıb ki, bunların bərpası vaxt tələb edə bilər. Biz vəziyyəti yaxından izləməyə, müharibənin enerji bazarlarına, qlobal iqtisadiyyata və ayrı-ayrı ölkələrə təsirini qiymətləndirməyə davam edəcəyik. Eyni zamanda üzv ölkələrə dəstəyimizi və fəaliyyətlərimizi koordinasiya edəcəyik. Zərurət olduqda digər beynəlxalq təşkilatlarla əməkdaşlıq edəcək və onların təcrübəsindən istifadə edərək sabitlik, iqtisadi artım və məşğulluq təmin edən dayanıqlı bərpanın əsaslarını formalaşdıracağıq".



Bu bəyanat bir daha göstərir ki, Hörmüz boğazı ətrafında baş verən neqativ proseslər təkcə enerji sektoruna ziyan vurmur, eyni zamanda dünya iqtisadiyyatına və insanların sosial həyatına mənfi təsir göstərir.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

Deməsək olmur

# "Reklam həkim"

Azərbaycan xalqı hər zaman həkimlərə böyük etimad göstərib, onları mənəvi keyfiyyətlərinə görə yüksək qiymətləndirib. Həkim adı sağlamlıqdan savayı bilik, savad, etika və fədakarlığın simvolu kimi qəbul olunub. Çünki o, xəstəni yalnız müalicə etmir, həm də ona ümid və inam verir. Məhz fədakarlıq və əxlaqi məsuliyyət, necə deyərlər, ömürlərə ömür calayan bu peşə sahiblərini cəmiyyət qarşısında nüfuzlu və şərəfli edir.



Lakin son illər həmin nüfuzun xeyli zədələndiyini görürük. Səbəb televiziya verilişlərində, xüsusən də adlarını "sosial" qoyan proqramlarda həkimlərə geninə-boluna meydan verilməsidir. Onlar bir çox halda bu cür şoulara, yəni tamaşalara biliklərini paylaşmaq və tibbi maarifləndirmə məqsədilə deyil, pasiyent (bəlkə də müştəri) cəlb etmək üçün çıxırlar. Bu da təbii ki, həkimin peşəkar nüfuzuna xələl gətirir və o, cəmiyyətin gözündə etibarını azaldır. Ona görə də bu cür verilişlərdə həkimlərdən istifadə olunması ayrıca diqqət çəkir.

Nə yazıq ki, bir müddət əvvəl haqlı olaraq ARB kanalında fəaliyyətləri dayandırılan "Elgizlə izlə", "Səni axtarıram", "Həmin Zaur", ATV-də yayımlanan "Bizimləsən" və "Rəngarəng" kimi ziyanlı verilişlər həm də və daha çox həkimlərin hesabına geniş izləyici auditoriyasına malik idi. İnsanlar buradakı həkimlərin qəbuluna düşmək üçün günlərlə, həftələrlə telekanalların qapısında gözləməli olurdular. O ayrı mövzu ki, həmin verilişlərə düşmək də əzab və işgəncə idi. Dərdinə dərman axtaranların kimisinin bəxti gətirirdi, kimisi də ekspertlər vasitəsilə həmin həkimlərin qəbuluna düşə bilirdi. "Həkim, səni deyib gəlmişəm" deyə onun qarşısına çıxan xəstə üçün bu, bir ümid, bir çıxış yolu idi. Lakin verilişin formatı, sensasiya məqsədli təqdimatı, eləcə də müzakirə olunacaq mövzunun həftələrlə, aylarla uzadılması səbəbindən həkim özü etik və praktiki çətinliklərlə üzləşir, verilişin formatına uyğun şou göstərməli olurdu. Məsələnin daha bir ağrılı tərəfi o olurdu ki, həkim bəzən müxtəlif məsələlərə münasibət bildirərək ekspert qismində çıxış edirdi və bu "ekspert rəyi" çox vaxt verilişin "dramaturji xətti"nə uyğun olurdu. Bu zaman ağ xalatın simvolizə etdiyi peşə etikası ilə mavi ekranın tələb etdiyi reytinq oyunu arasında ciddi ziddiyyət yaranırdı. Həkim bir tərəfdən qarşısında "səni deyib gəlmişəm" ümidi ilə dayanan insanın etibarını doğrultmağa çalışır, digər tərəfdən isə verilişin ssenarisinə uyğun emosional, şişirdilmiş reaksiyalar verməyə məcbur olurdu. Nəticədə tibbi maarifləndirmə kölgədə qalır, həkimlik peşəsinin nüfuzu şou elementlərinin içində tədricən aşınmağa başlayırdı. Müğənni belə verilişlərlə toy tutduğu kimi, həkim də xəstə toplayırdı. Amma bu "toplama" artıq bilik və təcrübədən çox efir üçün hazırlanan səhnə kimi görünür, verilişin ucuz və məzmunsuz formatına uyğun şouya çevrilirdi. Qısası, bu verilişlər milli-mənəvi dəyərləri tapdalayır, cəmiyyətin gözləntilərini, ənənələrini və etik normalarını görməzdən gəldiyi üçün sosial layihədən çox şou xarakteri daşıyırdı. Həkimlərin bu ucuz şou proqramlarında birbaşa iştirak etməsi isə həm peşə məsuliyyətindən uzaqlaşmaq, həm də pasiyent qazanmaq istəyindən irəli gəlirdi.

Buna baxmayaraq, əlacı kəsilmiş insanlar həkimin hər sözünü diqqətlə dinləyir, ondan həyatını dəyişəcək bir çıxış yolu gözləyirdilər. Həkimlər isə bu insanlara "təcrübə dovşanı" kimi baxır, onları ekran üçün "nümayiş obyekti" olaraq qəbul edirdilər. Pulsuz müalicə adı altında aparılan bu təqdimatlar, əslində, həm ciddi tibbi prosesləri sadələşdirir, həm də peşəkar etikanı zədələyirdi. Xəstələr ümidlə gəlirdi, amma verilişin tempi, sensasiya və reytinq məqsədi bu ümidləri çox zaman puça çıxarırdı.

Məsələ ondadır ki, həmin verilişlərdə sözün birbaşa mənasında reklam olunan həkimlərə müraciət edən sadə, imkansız, aztəminatlı insanlar onlara az qala pir kimi baxırdılar. Bəli, "reklam" sözünü əbəs yerə işlətmədik. Çünki 2-3 saatlıq verilişin yarısı kardioloq, onkoloq, ginekoloq, uroloq, oftolmoloq, pulmanoloq və digər "uzman"ların reklamına həsr olunurdu. Aparıcılar həkimi elə təqdim edirdilər ki, guya onlar çox peşəkar, az qala əlçatmaz loğmandırlar. Amma reallıq tam fərqli mənzərəni diktə edirdi: həkim bu cür verilişlərə xəstələrin dərdlərini həll etmək deyil, tamaşaçıların diqqətini çəkmək və verilişin reytinqini artırmaq üçün çıxırdı. Verilişdə iştirak edən "reklam həkim" real tibbi yardımı ilə deyil, şou performansı ilə yadda qalırdı. Ona görə də toplumun elmli, savadlı kəsimi ekrandan boy göstərən bu həkimlərə inanmırdı. Bu gün də insanlar arasında belə deyim formlaşıb: əgər həkim özünü reklam edirsə, deməli, yaxşı həkim deyil. Savadlı həkim televiziyada görünməyə həvəs göstərməz, sakitcə başını aşağı salıb işi ilə məşğul olar.

Hələ bu harasıdır? Həkimlər öz adları ilə yanaşı, fəaliyyət göstərdikləri səhiyyə müəssisələrini, qəbul saatlarını, ödəniləcək vəsaitin məbləğini də ekrandan səsləndirirdilər, baxmayaraq ki, artıq neçə zamandır ölkəmizdə mülkiyyət formasından asılı olmayaraq bütün klinikalarda icbari tibbi sığorta tətbiq olunur. Yeri gəlmişkən, həkimlərin bir çox halda aparıcıları özləri ilə regionlara aparması hansı mətləbdən xəbər verir? Gün kimi aydındır ki, aparıcının şəxsi marağı, həkimlərlə ortaq olması onları bu addımı atmağa sövq edir. Proses təkcə tibbi xidmətin təqdimatı deyil, eyni zamanda qarşılıqlı maraqların olduğu bir əməkdaşlıq xarakteri daşıyırdı. Sadalanan bu neqativ hallar digər məsuliyyətli, savadlı həkimlərin peşə nüfuzunu zədələyir və cəmiyyətin onlara olan etimadını sarsıdırdı. Onların illərlə formalaşmış nüfuzu bu cür şouların kölgəsində qalırdı. Səriştəsizliklərini məharətlə maskalayan, estetik cərrahiyyənin elmindən xəbərsiz "plastik cərrahlar"ın belə tamaşalarda iştirakı isə ziddiyyəti bir qədər də dərinləşdirirdi. Bu, tamaşaçını cəlb etdiyi qədər də heyrətləndirirdi. Və hər kəsi bir sual narahat edirdi: "Həqiqətən bu insanlar savadlı və peşəkar cərrahlardır, yoxsa, sadəcə, efir vasitəsilə müştəri toplamağa çalışırlar?". Əslində, bu cür yollarla özünə "müştəri toplayan" saxtakarları tanıyanlar da var idi. Amma efirə əlləri çatmırdı ki, onların kimliyini xalqa söyləsin.

Nə yaxşı ki, "sosial" yarlığı ilə efirdə şou göstərən bu cür verilişlərin fəaliyyəti dayandırıldı. Çünki belə getsəydi, bu xəmir hələ çox su aparacaqdı. O verilişlər cəmiyyəti zəhərləyir, gənclərin və yeniyetmələrin dünyagörüşünü, əxlaqi dəyərlərini pozurdu. İnsanlarda zahiri görünüşə, ilğım və cazibəyə aldanmaq vərdişi formalaşdırır, əsl peşəkarlıq və biliyin qiymətini ucuzlaşdırırdı. Həkimlərin bu cür səviyyəsiz şoularda dəyərdən düşməsi illərlə davam etsə də, "ziyanın yarısından qayıtmaq da faydalıdır" prinsipinə söykənərək indi bir qədər sevinmək olar. Həmin sosial şouların bağlanması, ümumiyyətlə, bir çox müsbət nəticə ilə yanaşı, tibbin və səhiyyənin nüfuzunun bərpasına və həkimlərin peşəkar dəyərinin yenidən tanınmasına da xidmət edir.

Bütün bu reallıq fonunda ortaya çıxan sual isə budur: səhiyyə sisteminə rəhbərlik edənlər bu vəziyyətə niyə göz yumublar? İllərlə davam edən bu hal Səhiyyə Nazirliyini, TƏBİB-i, həmin həkimlərin çalışdıqları klinikaların rəhbərliyini doğrudanmı narahat etməyib? Niyə bu qədər susqunluq hökm sürüb, həkim peşəsinin nüfuzuna xələl gətirən hallara vaxtında müdaxilə olunmayıb? Bu suallar yalnız keçmişin hesabatını tələb etmir, həm də səhiyyə sistemi ilə cəmiyyət arasındakı etimadı gücləndirmək üçün səlahiyyət sahiblərinin üzərinə gələcəyə hesablanan məsuliyyət qoyur. Bu mənada bəhs olunan şouların bağlanması müəyyən ümid yaratsa da, əsas məsələ bundan sonra atılacaq addımlardır - peşəkar dəyərləri etibarlı qorumaq və belə halların bir daha təkrarlanmamasını təmin etmək.

Bu şübhəmiz əbəs deyil. SPACE-də "Gəl, danışaq", "Xəzər"də isə "Təsir dairəsi" hələ də "gəlib danışan" tamaşaçıları öz "təsir dairəsi"ndə saxlayır. Eyni süjet, eyni təqdimat, eyni məqsəd, həkimlərin də reklamları öz yerində. Bu yerdə yazmağa sözümüz qalmır. Bircə o qalır yazaq ki, televiziyaların reklam və maarifləndirmə prinsipləri daha ciddi qaydalarla tənzimlənməli, həkimlərin peşə davranışına nəzarət gücləndirilməli və sosial verilişlərin əsas missiyası təmin olunmalıdır.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

15 Aprel Beynəlxalq Ekoloji Bilik Günüdür

# Təbiəti qoruyaq, gələcəyimizi xilas edək

Planetin gələcəyi barədə düşünəndə ilk olaraq ağıla texnologiya və ya iqtisadi inkişafdan daha çox ətraf mühit gəlir. Bəşəriyyət tarixinin heç bir dövründə təbiət bu qədər ciddi təzyiq altında qalmayıb. Sürətli sənayeləşmə, şəhərlərin genişlənməsi və təbii sərvətlərdən həddindən artıq istifadə ekoloji tarazlığı pozaraq qlobal təhlükələr yaradıb. Bu reallıq fonunda ekoloji biliklərin artırılması artıq seçim deyil, zərurətə çevrilib. Məhz bu səbəbdən hər il aprelin 15-i dünyanın bir çox ölkəsində Beynəlxalq Ekoloji Bilik Günü kimi qeyd olunur.



"Təbiəti qorumadan gələcəyi qorumaq mümkün deyil" mesajını çatdıran bu tarix, sadəcə, təqvimdə bir gün deyil, bəşəriyyətin gələcəyinə verdiyi önəmin simvoludur. Ekoloji biliklərin artırılması, insanların ətraf mühitə münasibətinin dəyişilməsi və təbiətin qorunması istiqamətində maarifləndirmə işlərinin gücləndirilməsi bu günün əsas məqsədlərindəndir. Bu əlamətdar günün yaranması isə 1992-ci ildə Rio-de-Janeyro Yer Sammiti ilə bağlıdır. Həmin sammitdə ilk dəfə olaraq qlobal səviyyədə ekoloji problemlər ciddi şəkildə müzakirə edilib, davamlı inkişaf anlayışı beynəlxalq gündəliyin əsas mövzularından birinə çevrilib.

Ekologiya elmi, əslində, yeni sahə deyil. Bu termin ilk dəfə 1866-cı ildə alman alimi Ernst Haeckel tərəfindən işlədilmişdir. O vaxtdan etibarən ekologiya canlı orqanizmlərin bir-biri ilə və ətraf mühitlə qarşılıqlı əlaqələrini öyrənən mühüm elmi istiqamətə çevrilmişdir. Müasir dövrdə isə ekologiya yalnız elmi sahə kimi deyil, həm də həyat tərzi kimi qəbul olunur. Ekoloji biliklərin vacibliyi son onilliklərdə daha da artıb. Bunun əsas səbəbi isə planetimizin qarşılaşdığı problemlərin miqyasının genişlənməsidir. İqlim dəyişiklikləri, biomüxtəlifliyin azalması, su ehtiyatlarının tükənməsi, torpaqların deqradasiyası və havanın çirklənməsi artıq yalnız ayrı-ayrı ölkələrin deyil, bütün bəşəriyyətin ortaq problemidir. Xüsusilə iqlim dəyişikliyi son illərin ən aktual mövzularından biridir. Qlobal temperaturun artması, buzlaqların əriməsi və ekstremal hava hadisələrinin çoxalması insanların həyatına birbaşa təsir edir.

Dünyanın müxtəlif ölkələrində ekoloji problemlərin həlli üçün müxtəlif təşəbbüslər həyata keçirilir. Avropa ölkələri karbon emissiyalarının azaldılması istiqamətində ciddi addımlar atır, bərpaolunan enerji mənbələrinə keçidi sürətləndirir. Günəş və külək enerjisi sahəsində böyük layihələr reallaşdırılır. Skandinaviya ölkələri "yaşıl iqtisadiyyat" modelinə keçiddə öncül mövqedədir. Onlar tullantıların təkrar emalını maksimum səviyyəyə çatdıraraq ətraf mühitə təsiri minimuma endirməyə çalışırlar.

Asiya regionunda isə əhali sayının çoxluğu və sürətli sənayeləşmə ekoloji problemləri daha da mürəkkəbləşdirir. Çin və Hindistan kimi ölkələr də son illərdə "yaşıl texnologiyalar"a böyük investisiyalar yatırmağa başlayıblar. ABŞ-də isə iqlim dəyişiklikləri ilə mübarizə istiqamətində dövlət və özəl sektorun əməkdaşlığı gücləndirilir. Bu qlobal səylər göstərir ki, ekoloji problemlərin həlli yalnız bir ölkənin deyil, bütün dünyanın birgə fəaliyyətini tələb edir.

Beynəlxalq əməkdaşlıq ekoloji problemlərin həllində əsas vasitələrdən biridir. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası çərçivəsində keçirilən konfranslar ölkələr arasında dialoqu gücləndirir. Bu cür konfranslar yalnız problemlərin müzakirəsi üçün deyil, həm də konkret qərarların qəbul edilməsi üçün platforma rolunu oynayır.

Ekoloji problemlərin artması insan sağlamlığına da ciddi təsir göstərir. Havanın çirklənməsi tənəffüs yolları xəstəliklərinin artmasına səbəb olur, suyun çirklənməsi isə müxtəlif infeksiyaların yayılmasına gətirib çıxarır. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, hər il milyonlarla insan ətraf mühit faktorları ilə bağlı xəstəliklərdən həyatını itirir. Bu da göstərir ki, ekologiya yalnız təbiət məsələsi deyil, həm də birbaşa insan həyatı ilə bağlıdır.

Digər mühüm məsələ isə biomüxtəlifliyin qorunmasıdır. Meşələrin qırılması, heyvan növlərinin yox olması və ekosistemlərin dağılması planetin təbii balansını pozur. Bu baxımdan qorunan ərazilərin genişləndirilməsi və təbii ehtiyatların düzgün idarə olunması xüsusi əhəmiyyət kəsb edir. Ekoloji biliklər bu sahədə də insanlara düzgün qərarlar qəbul etməyə yardımçı olur.

Azərbaycan da qlobal ekoloji proseslərdən kənarda qalmır və bu sahədə mühüm addımlar atır. Ölkədə ətraf mühitin mühafizəsi dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Son illərdə həyata keçirilən layihələr ekoloji vəziyyətin yaxşılaşdırılmasına yönəlib. Xüsusilə bərpaolunan enerji sahəsində görülən işlər diqqət çəkir. Günəş və külək enerjisi layihələri ölkənin enerji təhlükəsizliyini gücləndirməklə yanaşı, ətraf mühitə təsirin azaldılmasına da xidmət edir.

Azərbaycanın beynəlxalq ekoloji təşəbbüslərdə fəal iştirakı da xüsusi qeyd olunmalıdır. Ölkəmiz COP29 kimi mühüm tədbirə evsahibliyi etməklə qlobal ekoloji problemlərin həllinə öz töhfəsini verir. Bu konfrans çərçivəsində qəbul olunan qərarlar inkişaf etməkdə olan ölkələr üçün mühüm maliyyə və texniki dəstək imkanları yaradır. Prezident İlham Əliyev tərəfindən 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi isə ölkənin ekoloji siyasətində yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilir. Bu təşəbbüs həm ölkə daxilində, həm də beynəlxalq səviyyədə ekoloji məsələlərə diqqətin artırılmasına xidmət edir.

Azərbaycanda ətraf mühitin qorunması istiqamətində hüquqi baza da gücləndirilib. Müxtəlif qanunlar və dövlət proqramları ekoloji problemlərin həllinə yönəlib. Su ehtiyatlarının qorunması, meşələrin bərpası, tullantıların idarə olunması kimi sahələrdə mühüm layihələr həyata keçirilir. Xüsusilə işğaldan azad edilmiş ərazilərdə ekoloji tarazlığın bərpası istiqamətində aparılan işlər böyük əhəmiyyət daşıyır.

İqlim dəyişiklikləri ölkəmiz üçün də ciddi çağırışdır. Kənd təsərrüfatı, su resursları və enerji sektoru bu dəyişikliklərdən daha çox təsirlənir. Buna görə də uyğunlaşma və azaldılma tədbirləri paralel şəkildə həyata keçirilir. Suvarma sistemlərinin modernləşdirilməsi, yeni texnologiyaların tətbiqi və alternativ enerji mənbələrinin inkişafı bu istiqamətdə atılan addımlardandır.

Cəmiyyətin bütün təbəqələrinin ekoloji məsələlərə cəlb olunması isə bu sahədə uğurun əsas şərtidir. Ekoloji problemlərin həlli yalnız dövlətin deyil, hər bir fərdin məsuliyyətidir. Beynəlxalq Ekoloji Bilik Günü bizə bir daha xatırladır ki, təbiət bizə əmanətdir. Gündəlik həyatımızda atdığımız kiçik addımlar belə böyük dəyişikliklərə səbəb ola bilər. Enerjiyə qənaət, tullantıların düzgün idarə olunması və təbiətə qayğılı münasibət hər birimizin borcudur.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*



# Ermənistanda seçkilər "ölüm-qalım" mübarizəsinə çevrilib

Ermənistanda parlament seçkiləri yaxınlaşdıqca siyasi gərginlik artır. Aprelin 13-dən seçkilərə namizədlərin irəli sürülməsi prosesinə start verilib. Bu ayın 23-dək marafona qatılacaq partiya və bloklar sənədlərini Ermənistanın Mərkəzi Seçki Komissiyasına təqdim etməlidirlər. İyunun 7-də keçiriləcək seçkilərdə iştirak edəcəyini rəsmən açıqlayan tərəflər arasında Baş nazir Nikol Paşinyanın rəhbərlik etdiyi hakim "Mülki Müqavilə" partiyası, sabiq prezident Robert Koçaryanın "Ermənistan", oliqarx Samvel Karapetyanın "Güclü Ermənistan" bloku yer alır.

Keçmiş ombudsman Arman Tatoyanın "Birlik qanadları" təşəbbüsü və ölkənin birinci prezidenti Levon Ter-Petrosyanın Ermənistan Milli Konqresi də mübarizəyə qoşulacağını bəyan edib. Milli Konqresin namizədi kimi Levon Zurabyan irəli sürülüb. Başqa bir müxalif partiya İrəvanın keçmiş merı Hayk Marutyanı namizəd kimi dəstəklədiyini bildirib. Tanınmış iş adamı Qaqik Tsarukyanın da seçkilərə qatılacağı gözlənilir.

R.Koçaryanın "Hayastan" bloku seçki siyahısı üzrə ilk 30 namizədini açıqlayıb. S.Karapetyanın "Güclü Ermənistan" alyansı da ilk 36 namizədin adlarını təqdim edib. Partiya baş nazirliyə namizəd kimi S.Karapetyanı nəzərdən keçirsə də, onun ikili vətəndaşlığının olması qanuni əngəl yaradır. Ona görə də qardaşı oğlu Narek Karapetyanın namizəd olacağı ehtimal edilir.

Ermənistan parlamentinin sədri Alen Simonyan deyib ki, Robert Koçaryan, Serj Sarkisyan, Qaqik Sarukyan, Samvel Karapetyan və keçmiş hakimiyyətlərə bağlı digər qüvvələrin səhifəsi birdəfəlik bağlanmalıdır. Simonyan bir sıra blokların seçki siyahılarını açıqlamasını belə şərh edib: "Üç müxalifət siyahısı dərc edilib - "Roboserj" siyahısı. Sadəcə, öz işçilərini qarışıq şəkildə, kim kimi xatırlayıbsa, yazıblar. Qısa desək, eyni insanlar müxtəlif "qablaşdırma"dadırlar. Rədd edilmiş keçmişin "qəhrəmanlarının" səhifəsi birdəfəlik bağlanmalıdır. Ermənistan sülhsevər, müstəqil və suveren qalacaq".

Ermənistanın Baş naziri Nikol Paşinyan seçki taktikasını sülh siyasətinə calaşdırıb. Taşir şəhərində sakinlərlə görüşü zamanı Baş nazir deyib ki, dayanıqlı sülh və müharibəsiz həyat parlament seçkilərində öz iradəsini göstərməli olan erməni xalqından asılıdır. Baş nazir bildirib ki, hakim "Vətəndaş Müqaviləsi" partiyası seçkilərdə "Tanrım, sülhün müdafiəsinə qalx" şüarı ilə iştirak edir: "Xalq bu seçkilərdə öz sülhsevər iradəsini göstərməlidir".

Hökumət başçısı çıxışlarında revanşist qüvvələrin hakimiyyətə gəlməsinin münaqişə və müharibə demək olduğunu söyləyir. Baş nazir təbliğatını xalqın həssas nöqtəsi sayılan təhlükəsizlik hissləri üzərindən həyata keçirir. Seçki prosesini hökumət dəyişikliyi yox, ölüm-qalım savaşı kimi təqdim edir. "Tanrım, sülhün müdafiəsinə qalx" şüarındakı dini çalar da maraqlı manevrdir. N.Paşinyan kilsənin ona qarşı müxalif mövqedə olduğu bir vaxtda dindar kütlənin etibarını qazanmağa çalışır.

Seçkilər yaxınlaşdıqca N.Paşinyanla "Güclü Ermənistan" blokunun lideri S.Karapetyan arasında qiyabi polemika sərtləşir. Belə ki, aprelin 11-də "Güclü Ermənistan" partiyasının mitinqi keçirilib. Hazırda ev dustaqlığında olan partiya lideri S.Karapetyan videomüraciətlə çıxışında açıq şəkildə bildirib ki, Ermənistan Moskva ilə pozulmuş münasibətləri bərpa edəcək və Rusiya istiqamətində daha aktiv siyasət yürüdəcək. Karapetyan həmçinin ordunun gücləndirilməsini əsas prioritetlərdən biri kimi təqdim edib. Çıxışda diqqətçəkən məqamlardan biri simvolik və ideoloji vurğular olub. S.Karapetyan Ermənistan üçün "Ağrı dağı"nı xüsusi önəmli dəyər kimi təqdim edib. Məlumdur ki, bu yanaşma regionda uzun illərdir davam edən ərazi iddiaları kontekstində qiymətləndirilir. O, eyni zamanda erməni kilsəsinin rolunu ön plana çəkərək, bu qurumu "erməni kimliyinin və dövlətçiliyinin əsas dayaqlarından biri" kimi dəyərləndirib.

Ermənistanın daxili siyasi mənzərəsinə nəzər saldıqda qütbləşmənin dərinləşdiyi aydın görünür. Bir tərəfdə hazırkı hakimiyyət, digər tərəfdə isə köhnə hərbi xunta və oliqarxlar dayanır. Fərqli simaların prosesə qoşulması göstərir ki, bəzi dairələrin məqsədi seçkinin "Paşinyan-Koçaryan" duelinə çevrilməməsi, alternativ axtarışında olan elektorat üçün müxtəlif seçimlərin yaradılmasıdır. Lakin əsas mübarizənin yenə də köhnə və yeni sistem arasında gedəcəyi qaçılmazdır.

N.Paşinyan parlament seçkilərini "referendum"a çevirməyə çalışır. Bildirir ki, xalqın qarşısında iki yol var, ya sülhü, ya da müharibəni seçməlidir. Hakimiyyət xalqın keçmişə olan nifrətindən seçki təbliğatı kimi istifadə edir.

Paşinyanın sülh kartına qarşı müxalifət revanşizm, şovinizm və hərbi güclənmə vədləri ilə xalqa xitab edir. S.Karapetyanın Moskva ilə münasibətləri bərpa etmək vədi bu siyasi qüvvənin Kremlin maraqlarını təmsil etdiyini açıq büruzə verir. Onun "Ağrı dağı" və kilsə vurğusu sırf revanşist düşüncəyə meyilli elektoratı cəlb etmək üçün istifadə olunan klassik kartlardır. Erməni kilsəsinin dövlət işlərinə və siyasətə bu dərəcədə alət edilməsi ölkədə dünyəvi siyasətin zəifləməsindən və kütlələri dini-ideoloji hisslərlə idarə etmək cəhdindən xəbər verir. S.Karapetyanın çıxışı Türkiyə və Azərbaycanla münasibətlərin normallaşmasına qarşı çıxan qüvvələrin manifesti də hesab oluna bilər.

Beləliklə, iyunun 7-də baş tutacaq səsvermə Ermənistanın hansı yolu izləyəcəyini və gələcək taleyini müəyyən edəcək. Erməni cəmiyyətinin verəcəyi qərar bölgədə formalaşan yeni reallıqlara ya uyğunlaşma, ya da yeni gərginlik ocaqlarına qapı açmaq mənasına gələcək. Lakin indidən görünən odur ki, siyasi marafonda kimin qalib gəlməsindən asılı olmayaraq, ölkədəki dərin qütbləşmə seçkidən sonra da daxili sabitlik üçün ciddi sınaq olaraq qalacaq.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*





# Mədəniyyət





## ● 15 Aprel Beynəlxalq Mədəniyyət Günüdür

# Keçmişə ehtiramla, gələcəyə məsuliyyətlə

**Beynəlxalq Mədəniyyət Günü bəşəriyyətin mənəvi irsini, dəyərlərini təcəssüm etdirən əlamətdar bir gündür. Bu gün insanların yaratdığı incəsənət nümunələrinin, adət-ənənələrin və mədəni irsin qorunmasının vacibliyini bir daha diqqətə çatdırır.**

Mədəniyyət xalqları bir-birinə bağlayan, onları daha yaxşı anlaşmağa və bir-birinə hörmət etməyə çağıran ən güclü körpülərdən biridir. Ona görə də bu gün yalnız keçmişin yad edilməsi deyil, həm də gələcək nəsillərə zəngin mədəni mirasın ötürülməsi baxımından böyük əhəmiyyət daşıyır.

Beynəlxalq Mədəniyyət Günü 1935-ci il aprelin 15-də Vaşinqtonda imzalanan "Bədii, elmi müəssisə və tarixi abidələrin mühafizəsi və qorunması haqqında" müqavilə ilə əlaqədar təsis olunub. Həmin günün Beynəlxalq Mədəniyyət Günü kimi qeyd edilməsi təşəbbüsü "Mədəniyyətin Müdafiəsi Beynəlxalq Liqası" adlı ictimai təşkilat tərəfindən 1998-ci ildə irəli sürülüb. O zamandan dünyanın bir çox ölkəsində 15 Aprel Beynəlxalq Mədəniyyət Günü kimi qeyd olunur.



Beynəlxalq hüquq təcrübəsində bu günün Rerix paktı kimi də tanınmasına gəlincə, ilk dəfə 1931-ci ildə Belçikanın Brügge şəhərində keçirilən konfransda rəssam Nikolay Rerix Dünya Mədəniyyət Gününün keçirilməsi təklifini irəli sürüb. 2008-ci ilin dekabırında isə Dünya bayrağı altında aprelin 15-nin Dünya Mədəniyyət Günü kimi təsdiqi üçün Rusiya, İtaliya, İspaniya, Argentina, Meksika, Kuba, Latviya və Litvanın ictimai təşkilatlarının təşəbbüsü ilə beynəlxalq hərəkat yaradılıb. Dünyanın bir sıra ölkələri kimi, Azərbaycanda da hər il aprelin 15-i Beynəlxalq Mədəniyyət Günü kimi qeyd olunur. Bu münasibətlə ölkəmizdə müxtəlif tərbirlər düzənlənir.

Azərbaycanın qədimliyi, zənginliyi və özünəməxsusluğu ilə seçilən mədəniyyəti bəşəriyyətin ümumi irsinə dəyərli töhfələr verən nadir mədəniyyətlərdən biridir. Minilliklər boyu formalaşmış bu zəngin irs xalqımızın tarixi yaddaşını, mənəvi dəyərlərini, həyat tərzini və dünyagörüşünü özündə əks etdirir. Bu gün Azərbaycan mədəniyyəti yalnız milli sərvət kimi deyil, həm də beynəlxalq səviyyədə yüksək qiymətləndirilən mədəni dəyər kimi diqqət mərkəzindədir. Məhz bu səbəbdən də ölkəmizin mədəni irsi müxtəlif beynəlxalq təşkilatlar tərəfindən qorunur, öyrənilir və təbliğ olunur.

Ölkəmiz dünyanın nüfuzlu qurumları, o cümlədən ən böyük mədəniyyət təşkilatı olan UNESCO ilə əməkdaşlıq edir. Azərbaycan 1992-ci il iyunun 3-də UNESCO-ya üzv qəbul olunub, 1996-cı ildən etibarən isə təşkilatla fəal əməkdaşlığa başlayıb. Bu əməkdaşlıq nəticəsində Azərbaycanın zəngin mədəni irsi beynəlxalq səviyyədə tanıdılıb, bir sıra maddi və qeyri-maddi mədəni irs nümunələrimiz UNESCO siyahılarına daxil edilib. Bu fakt bir daha göstərir ki, Azərbaycan mədəniyyəti yalnız regional deyil, qlobal əhəmiyyətə malikdir.

Eyni zamanda Azərbaycan Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının ən fəal üzvlərindəndir. Bu təşkilatın həyata keçirdiyi layihələr türk xalqlarının ortaq mədəni dəyərlərinin qorunması və təbliği baxımından xüsusi əhəmiyyət daşıyır. TDT-nin "Türk dünyasının mədəniyyət paytaxtı" layihəsi çərçivəsində 2016-cı ildə Şəkinin, 2023-cü ildə isə Şuşanın bu ada layiq görülməsi Azərbaycanın mədəni həyatında mühüm hadisələrə çevrilib. Xatırladaq ki, Azərbaycanın mədəniyyət paytaxtı hesab olunan Şuşa Qarabağın digər əraziləri kimi 30 ilə yaxın Ermənistanın işğalında qalmışdı. Şuşada keçirilən tədbirlər, o cümlədən "Şuşa - Türk dünyasının mədəniyyət paytaxtı - 2023" ilinin rəsmi açılış mərasimi bu qədim şəhərin yenidən regionun mədəni mərkəzinə çevrildiyini bir daha nümayiş etdirib.

Azərbaycanın zəngin mədəni irsi tarixboyu müxtəlif sınaqlarla üzləşib. 1980-ci illərin axırları, 1990-cı illərin əvvəllərində də Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur bölgələri təcavüzkar ermənilərin hücumlarına məruz qalıb. XX əsrin sonlarında respublikamızın ərazilərinin 20 faizi Ermənistan tərəfindən işğal edilib. Həmin bölgələr - Qarabağ və Şərqi Zəngəzur bölgələri ölkəmizin ən qədim və zəngin mədəniyyət ocaqlarından idi. Həmin ərazilərdə yüzlərlə dünya, ölkə və yerli əhəmiyyətli tarixi abidələr, muzeylər, kitabxanalar, teatrlar və digər mədəniyyət müəssisələri fəaliyyət göstərirdi. İşğal nəticəsində Azərbaycanın bu mühüm və zəngin irsi erməni vandalları tərəfinfən böyük dağıntılara məruz qalıb, maddi-mədəniyyət nümunələri talanıb, qarət olunub, abidələr məqsədli şəkildə məhv edilib və ya təhqir olunub. Bu vandalizm aktları beynəlxalq hüquq normalarının, o cümlədən 1954-cü il Haaqa Konvensiyasının və UNESCO-nun müvafiq sənədlərinin kobud şəkildə pozulması idi.

Vətən müharibəsindən sonra Azərbaycan dövləti işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı bərpa və quruculuq işlərinə başlayıb. Qarabağ və Şərqi Zəngəzur bölgələrində dağıdılmış şəhər və kəndlərlə yanaşı, tarixi-mədəni abidələrin bərpası da prioritet istiqamətlərdən biri kimi müəyyən edilib. Hazırda bu ərazilərdə yüzlərlə abidənin bərpası, konservasiyası və yenidən istifadəyə verilməsi istiqamətində mühüm layihələr həyata keçirilir.

Qeyd edək ki, işğaldan azad olunmuş ərazilərimizdə 2600-dən çox tarix və mədəniyyət abidəsi mövcuddur. Onlardan 706-sı dövlət qeydiyyatındadır. Xudafərin körpüləri, Şuşa qalası, Azıx mağarası, Gəncəsər, Xudavəng monastrları, Qutlu Musa türbəsi, Azıx mağarası Qarabağ və Şərqi Zəngəzurda dünya əhəmiyyətli tarix-mədəniyyət abidələridir. Artıq onların bir çoxu bərpa edilib. Eyni zamanda Üzeyir Hacıbəylinin ev-muzeyi, Molla Pənah Vaqifin məqbərəsi, Bülbülün ev-muzeyi və bir sıra tarixi məscidlər artıq bərpa edilərək istifadəyə verilib. Bu işlər yalnız tarixi abidələrin bərpası deyil, həm də milli kimliyimizin, mədəni yaddaşımızın bərpası deməkdir.

Müasir dövrdə Azərbaycan yalnız mədəni irsini qoruyan ölkə deyil, həm də beynəlxalq mədəniyyət tədbirlərinin keçirildiyi mühüm mərkəzlərdən biridir. Ölkəmizdə mütəmadi olaraq keçirilən beynəlxalq festivallar, konfranslar və sərgilər mədəniyyətlərarası dialoqun inkişafına böyük töhfə verir. "Xarıbülbül" Musiqi Festivalı, Vaqif Poeziya Günləri, Qəbələ Beynəlxalq Musiqi Festivalı, Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı, Şəki "İpək yolu" Beynəlxalq Musiqi Festivalı və Bakı Beynəlxalq Caz Festivalı bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Dünyaca məşhur incəsənət xadimləri uzun illərdir ki, davamlı olaraq ölkəmizdə həyata keçirilən beynəlxalq festivallarda, rəngarəng mədəni tədbirlərdə, maraqlı layihələrdə iştirak edirlər. Bu tədbirlər dünyanın müxtəlif ölkələrindən tanınmış incəsənət xadimlərini bir araya gətirərək Azərbaycanı beynəlxalq mədəniyyət məkanında daha da tanıdır.

Azərbaycan mədəniyyətinin qorunması və inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Bu məqsədlə qəbul edilmiş "Azərbaycan mədəniyyəti - 2040" Konsepsiyası milli mədəniyyətin uzunmüddətli inkişaf strategiyasını müəyyən edir. Prezident İlham Əliyevin təsdiqlədiyi "Azərbaycan mədəniyyəti - 2040" Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası"nın üç mərhələdə həyata keçirilməsi nəzərdə tutulur. Birinci mərhələ 2026-2030-cu illər, ikinci mərhələ 2031-2035-ci illər, üçüncü mərhələ isə 2036-2040-cı illəri əhatə edəcək.

Mədəni irsin qorunması yalnız dövlətin deyil, bütövlükdə cəmiyyətin məsuliyyətidir. Bu prosesdə alimlərin, tarixçilərin, mədəniyyət xadimlərinin, jurnalistlərin və ümumilikdə ictimaiyyətin fəal iştirakı xüsusi əhəmiyyət daşıyır. Eyni zamanda milli mədəniyyətimizin beynəlxalq səviyyədə tanıdılması, onun saxtalaşdırılmasına qarşı mübarizənin gücləndirilməsi də vacib məsələlərdəndir.

Bu gün Azərbaycan mədəniyyəti qədim köklərə söykənərək müasir inkişaf mərhələsinə qədəm qoyub. Zəngin tarixi irsimiz olan mədəniyyətimiz güclü dövlət siyasəti və beynəlxalq əməkdaşlıq sayəsində daha geniş coğrafiyada tanınır və bəşəriyyətin ümumi mədəni xəzinəsinə töhfə verməyə davam edir.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

## ● Sənət dünyası

# "Mesenat" Hacıya xalq ehtiramının bədii ifadəsidir

**Azərbaycan tarixində xeyirxahlıq, maarifçilik və milli oyanışdan söz düşəndə ilk növbədə xatırlanan Hacı Zeynalabdin Tağıyev olur. Sadə, zəhmətkeş ailədən çıxaraq böyük sərvət sahibi olan bu görkəmli şəxsiyyət qazandığı milyonları yalnız özü, ailəsi, doğmaları üçün deyil, xalqının gələcəyi naminə sərf etməyi həyat amalına çevirmişdir. Hacının təşəbbüsü ilə məktəblər açılmış, gənclərin təhsilinə şərait yaradılmış, xüsusilə də müsəlman Şərqində ilk qız məktəbinin təsis edilməsi kimi mütərəqqi tarixi addım atılmışdır.**




Hacı Zeynalabdin Tağıyevdən bəhs edərkən Bakıya xüsusi gözəllik bəxş edən, Şərq və Qərb memarlığının ən incə cizgilərini özündə birləşdirən binalardan söz salmadan keçmək mümkün deyil. O, şəxsi vəsaiti hesabına bu nadir mülkləri inşa etdirməklə, əslində, öz tarixini yaradıb.

Zeynalabdin Tağıyevin tikdirdiyi gözəl və yaraşıqlı binalar təkcə daş və divardan ibarət memarlıq nümunələri deyil, həm də bir dövrün estetik dünyagörüşünü, milli zövqünü və inkişaf səviyyəsini əks etdirən tarixdir. Tağıyev sarayı kimi möhtəşəm tikililər bu gün də öz əzəmətini qoruyaraq Bakının memarlıq inciləri sırasında xüsusi yer tutur.

Hacının bu sahədəki fəaliyyəti göstərir ki, o, şəhərsalma mədəniyyətinə dərindən bələd olan uzaqgörən bir şəxsiyyət idi. Onun tikdirdiyi binalar Bakını Qafqazın ən gözəl şəhərlərindən birinə çevirməklə yanaşı, bu gün də paytaxtın tarixi-mədəni irsinin ayrılmaz hissəsi kimi yaşayır.

Hacı Zeynalabdin Tağıyevin xidmətlərindən danışarkən qeyd etməliyik ki, bu böyük şəxsiyyət Bakının həyatında əsl dönüş yaradan layihələrin müəllifidir. Onun təşəbbüsü ilə Şollar kəndindən Bakıya bulaq suyunun çəkilməsi həmin dövr üçün şəhərin ən ciddi problemlərindən birini - insanları təmiz içməli su ilə təmin etməsini həll etmişdir. Bu mühüm addım həmçinin müxtəlif yoluxucu xəstəliklərin qarşısının alınmasına, şəhərdə sanitar vəziyyətin yaxşılaşmasına böyük töhfə vermişdir.

Bununla yanaşı, Hacı Bakıda tikiş fabriki tikdirməklə şəhərin yalnız nefti ilə deyil, sənaye məhsulları ilə də tanınmasına zəmin yaratmışdır. Xatırladaq ki, o zaman həmin fabrikdə 500-ə yaxın insan çalışaraq ailəsinə ruzi aparırdı ki, bu da Tağıyevin sosial məsuliyyətinin bariz nümunəsi idi.

Maarifçilik sahəsində isə Z.Tağıyevin xidmətləri xüsusilə diqqətəlayiqdir. O, Azərbaycanın gələcəyini savadlı gənclərdə görərək onların xaricdə və yerli təhsil ocaqlarında təhsil almaları üçün vəsait ayırmışdır. Onun maddi dəstəyi ilə təhsil alanlar sırasında Əlimərdan bəy Topçubaşov, Nəriman Nərimanov, Üzeyir bəy Hacıbəyli kimi sonradan xalqın taleyində mühüm rol oynayan görkəmli şəxsiyyətlərin adlarını çəkmək olar. Bütün bunlar göstərir ki, Z.Tağıyevin fəaliyyəti yalnız xeyriyyəçilik deyil, bütövlükdə bir millətin gələcəyinə yönəlmiş böyük və uzaqgörən missiya idi.

Uzun illər hökm sürən sovet ideologiyası bu böyük xeyriyyəçinin adını kölgədə saxlamağa çalışmış, onun xidmətlərini layiqincə qiymətləndirməmişdir. Yalnız Sovet İttifaqının süqutundan sonra xalqımız öz tarixi yaddaşına qayıdaraq Hacı Zeynalabdin Tağıyev kimi böyük bir şəxsiyyətin irsinə ehtiramını açıq şəkildə ifadə etməyə başladı.

Bu gün Bakıdakı abidəsi, adının yaşayış məntəqələrinə, küçələrə, təhsil ocaqlarına verilməsi, haqqında yazılan əsərlər və səhnələşdirilən tamaşalar bir daha göstərir ki, Tağıyev təkcə bir dövrün yox, bütöv bir xalqın mənəvi sərvətidir. Xalqımızın mənəvi kimliyinə layiqli nümunələrdən olan Hacı Zeynalabdin Tağıyevin həyat və fəaliyyəti müxtəlif zamanlarda ədəbiyyatın, incəsənət əsərlərinin əsas mövzularından olub. Bu baxımdan Nəriman Nərimanov özünün "Nadir şah" əsərində dövrün ictimai mühiti fonunda Tağıyevin şəxsiyyətini dolayı yolla da olsa, göstərməyə çalışıb. Müasir dövrdə isə onun həyatına və xeyriyyəçilik fəaliyyətinə həsr olunan publisistik və bədii əsərlər yazılmış, sənədli filmlər çəkilmişdir. Xüsusilə "Hacı Zeynalabdin Tağıyev", "Böyük mesenat" kimi sənədli filmlər bu böyük şəxsiyyətin həyat yolunu geniş auditoriyaya çatdırmışdır.

Məhz belə zəngin irs və tükənməz həyat materialı sənət adamlarını daim düşündürmüş, yeni əsərlərin yaranmasına təkan vermişdir. Bu baxımdan yazıçı-dramaturq, Əməkdar incəsənət xadimi Əli Əmirlinin qələmə aldığı "Mesenat" pyesi xüsusi əhəmiyyət daşıyır. Bu əsər əsasında Azərbaycan Dövlət Akademik Musiqili Teatrında səhnələşdirilən eyniadlı tamaşa Hacının həyat və fəaliyyətinə yeni bədii baxış təqdim edərək onun mənəvi böyüklüyünü və xalq qarşısındakı xidmətlərini bir daha tamaşaçının yaddaşına həkk edir. İkihissəli musiqili dram əsərində yalnız baş qəhrəmanın taleyi deyil, həm də onun yaşadığı dövrün mürəkkəb ictimai-siyasi mənzərəsi, bolşeviklərin hiyləgər planları fonunda Bakı milyonçularına qarşı törədilən faciələr dərin bədii həllini tapmışdır. Tamaşa bu baxımdan, sadəcə, bioqrafik təqdimat olmaqla yanaşı, bütöv bir epoxanın dramatik salnaməsi kimi çıxış edir.

Mesenat obrazını canlandıran istedadlı aktyor İbrahim Əlizadə səhnədə unudulmaz bir sənət nümunəsi yaratmağa nail olub. Onun ifasında Tağıyev həm tarixi şəxsiyyət, həm də daxili aləmi, mənəvi zənginliyi, ziddiyyətləri və insan duyğuları ilə yaşayan bir obraz kimi canlanır. Aktyorun təsirli səsi, səhnə plastikasındakı dəqiqlik, hər bir detalı incəliklə işləməsi tamaşaçıda dərin emosional təsir yaradır. İbrahim Əlizadə bu rolu ilə sənətkarlığın zirvəsini nümayiş etdirərək obrazı sanki yenidən yaşadır.

Zeynalabdin Tağıyevin həyat yoldaşı Sona xanım Ərəblinskaya obrazını canlandıran Türkel Tariqpeyma da səhnədə yüksək peşəkarlıq nümayiş etdirir. Aktrisanın zərif səhnə maneraları, daxili hissləri incə çalarlarla ifadə etmək bacarığı, obrazın emosional yükünü tamaşaçıya ustalıqla ötürməsi onun ifasını xüsusi fərqləndirir. O, Sona xanımın sədaqətini, zərifliyini, eyni zamanda qadın xarakterini peşəkarlıqla və böyük ustalıqla təqdim edərək tamaşanın ən yaddaqalan obrazlarından birini yaratmağa nail olub.

Tamaşada gənc aktrisa İranə Kərimovanın canlandırdığı Sara xanım obrazı da xüsusi koloriti ilə diqqət çəkir. Bu obraz zərifliyi, ümidləri və dövrün çətinlikləri fonunda formalaşan daxili gücü ilə seçilir. Aktrisanın səmimi və təsirli ifası, obrazın psixoloji dərinliyini uğurla açması onun səhnə performansını yaddaşlara həkk edir və gələcək yaradıcılığı üçün böyük ümidlər yaradır.

Tamaşada Azərbaycan neft sənayesinin görkəmli nümayəndələrindən biri olan Ağa Musa Nağıyev obrazı da diqqətçəkən səhnə yaradıcılığından biri kimi yadda qalır. Bu mürəkkəb və çoxşaxəli obrazı canlandıran Əməkdar artist Çingiz Əhmədov yüksək peşəkarlıq nümayiş etdirərək A.Nağıyevin xarakterini bütün incəlikləri ilə açmağa nail olmuşdur. Aktyorun səhnədəki inamlı duruşu, daxili enerjisi və emosional çalarlarla zəngin ifası obrazın həm gücünü, həm də insani tərəflərini ustalıqla təqdim edir. Çingiz Əhmədov Ağa Musa Nağıyevi yalnız tarixi şəxsiyyət kimi deyil, həm də dövrünün ictimai-siyasi burulğanlarında formalaşan canlı bir xarakter kimi tamaşaçıya çatdıraraq tamaşanın ümumi bədii yükünü daha da zənginləşdirir.

Azərbaycan tarixində ziddiyyətli şəxsiyyət və ictimai xadim kimi tanınan Nəriman Nərimanov obrazı da tamaşada diqqətçəkən məqamlardandır. Bu rolu canlandıran Şaban Cəfərov obrazın mürəkkəbliyini, daxili tərəddüdlərini və siyasi reallıqlarla üz-üzə qalan insan taleyini peşəkar səviyyədə təqdim edir.

Tamaşanın uğurlu alınmasında bütün yaradıcı heyətin əməyi xüsusi qeyd olunmalıdır. Quruluşçu rejissor, Prezident mükafatçısı Samir Qulamovun səhnə həlli, hadisələrin ritmik və emosional ardıcıllığını ustalıqla qurması əsərin ümumi təsir gücünü daha da artırır. Quruluşçu dirijor Fəxrəddin Atayevin rəhbərliyi ilə musiqi dramaturgiyası tamaşanın ruhunu tamamlayır, bəstəkar Əli Əliyevin musiqisi isə səhnədə baş verən hadisələrə dərin emosional ruh bəxş edir. Bununla yanaşı, musiqi tərtibatında Yohann (oğul) Ştraus, Salvatore Markezi və Frederik Şopen kimi bəstəkarların əsərlərindən istifadə olunması tamaşanın musiqi palitrasını daha da zənginləşdirir.

Səhnə tərtibatı, dekorasiya, geyim və qrim üzərində çalışan yaradıcı heyətin zəhməti də xüsusi vurğulanmalıdır. Hər bir detal dövrün ruhunu, estetik xüsusiyyətlərini və tarixi koloriti dəqiq əks etdirərək tamaşaçıya bütöv bir mühit təqdim edir.

Beləliklə, "Mesenat" tamaşası böyük tarixi şəxsiyyətin - Hacı Zeynalabdin Tağıyevin həyat fəlsəfəsinin, xeyirxahlıq missiyasının və mənəvi ucalığının bədii təcəssümü kimi yadda qalır. Bu tamaşa həm sənət hadisəsi, həm də milli yaddaşın dirçəldilməsi baxımından xüsusi əhəmiyyət daşıyaraq tamaşaçını düşündürən, duyğulandıran və qürurlandıran sənət nümunəsidir. Tamaşa bir səhnə əsəri kimi xalqın böyük xeyriyyəçisinə olan ehtiramının bədii ifadəsidir. Tamaşaya baxan bir daha əmin olur ki, xeyirxahlıq elə bir əməldir ki, zaman keçsə də, unudulmur. Hacı Zeynalabdin Tağıyev kimi insanlar məhz bu uca dəyərləri ilə yadda qalır və insanlığa xidmət etməyin nümunəsinə çevrilirlər. Elə dünyanı yaşadan da məhz budur - insanın insana olan mərhəməti, sevgisi və bitib-tükənməyən xeyirxahlıq duyğusu.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

## Türkiyədə Mirzə Fətəli Axundzadənin komediyası səhnəyə qoyulacaq

Türkiyədəki səfirliyimizin nəzdindəki Azərbaycan Mədəniyyət Mərkəzinin layihəsi ilə İğdır şəhərində yaradılan "Bir millət, iki dövlət" Azərbaycan-Türkiyə Gənclər Teatrının səhnələşdirdiyi ilk əsər böyük Azərbaycan dramaturqu Mirzə Fətəli Axundzadənin "Hekayəti Müsyö Jordan Həkimi-Nəbatat və Dərviş Məstəli Şah Cadükuni Məşhur" komediyası əsasında hazırlanan "Müsyö Jordan və Dərviş Məstəli Şah" tamaşası olacaq.

AZƏRTAC xəbər verir ki, aprelin 15-17-də İğdır, Qars və Ərdahan şəhərlərində tamaşanın ilk premyerası keçiriləcək. Əsəri Türkiyə türkcəsinə Azərbaycanın Xalq artisti, tanınmış teatr-kino xadimi Cahangir Novruzov çevirib.




## Azərbaycan Bolonya Beynəlxalq Uşaq Kitab Sərgisində təmsil olunur

Bolonya Beynəlxalq Uşaq Kitab Sərgisi İtaliyanın Bolonya şəhərində işinə başlayıb. Dünyanın ən nüfuzlu uşaq kitab sərgilərindən biri hesab edilən bu beynəlxalq tədbirdə Mədəniyyət Nazirliyinin və Azərbaycanın İtaliyadakı səfirliyinin nəzdində fəaliyyət göstərən Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə ölkəmiz milli stendlə təmsil olunur.



Nazirlikdən bildirilib ki, sərgidə yerli yazar və naşirlərdən ibarət nümayəndə heyəti iştirak edir. Azərbaycan stendində ölkənin aparıcı nəşriyyatları - "Libra Kitab", "Qələm", "3 alma", "Everest", "Təhsil", "Ağıllı bala", "Aspoliqraf", "Altun Kitab", "Qanun", "Ting", "Səbat" və "Radius" tərəfindən azyaşlı oxucular üçün hazırlanmış 200-dən çox adda ümumilikdə 250-dən artıq kitab və nəşr məhsulu ziyarətçilərə təqdim olunur.

# ABŞ-İran: danışıqların ikinci raundu baş tuta bilər

ABŞ İranla birbaşa danışıqların ikinci raundunu keçirməyi düşünür. Görüş Tehranın regional fəaliyyətini məhdudlaşdırmaq məqsədilə İrana qarşı iqtisadi və siyasi blokadanın gücləndirilməsi fonunda baş tuta bilər.



CNN telekanalının Donald Tramp administrasiyasındakı mənbələrə istinadən verdiyi məlumata görə, ABŞ rəsmiləri İran rəhbərliyinin nümayəndələri ilə potensial üzbəüz görüşün parametrlərini müzakirə edirlər. Bu addım İrana davamlı təzyiqlərə baxmayaraq, daha da gərginləşmənin qarşısını almaq cəhdi kimi qiymətləndirilir.

Mənbələrə görə, potensial dialoqun ikinci raundu İranın nüvə proqramı və Yaxın Şərqdəki proksi qrupların hərəkətləri də daxil olmaqla bir sıra məsələləri müzakirə etməyi hədəfləyir. Administrasiya rəsmiləri qeyd ediblər ki, görüşə hazırlıq Vaşinqtonun mövqeyinin yumşaldılması demək deyil. Əksinə, müzakirə Tehranı beynəlxalq səviyyədə daha da təcrid etmək tədbirləri ilə paralel olaraq aparılır.

Ağ Ev hesab edir ki, birbaşa əlaqələr "ABŞ-nin mövqeyini aydın şəkildə çatdırmaq" və tammiqyaslı hərbi münaqişəyə səbəb ola biləcək səhv hesablamaların qarşısını almaq üçün zəruridir. Təfərrüatları tam açıqlanmayan əvvəlki təmaslar mövcud müzakirələrin əsasını qoysa da, əsas təhlükəsizlik məsələləri üzrə hələlik əhəmiyyətli irəliləyiş əldə edilməyib.

Xatırladaq ki, ABŞ-nin vitse-prezidenti Cey Di Vens Pakistanda İranla danışıqlarda əhəmiyyətli irəliləyiş əldə edildiyini, lakin danışıqların və mümkün razılaşmanın gələcəyinin Tehrandan asılı olduğunu bildirmişdir. Amerikanın Fox News televiziya kanalına verdiyi müsahibədə isə Vens İranla danışıqların gedişatı ilə bağlı şərh verib. O, Pakistandakı İran nümayəndə heyətinin yekun razılaşma bağlamaq səlahiyyətinin olmadığını və buna görə də Amerika tərəfinin danışıqlardan çıxdığını deyib. Vens həmçinin İranın "normal iqtisadi ölkə" olmaq üçün nüvə silahı əldə etmək cəhdlərindən əl çəkməli olduğunu söyləyib. O, yekun razılaşmanın olmamasına baxmayaraq, iki tərəfin əhəmiyyətli irəliləyiş əldə etdiyini vurğulayıb. "Yaxşı danışıqlar apardıq. Düşünürəm ki, İran və ABŞ hökumətləri arasında bu qədər yüksək səviyyədə təması ilk dəfə görürsünüz", - deyə o, əlavə edib.

Vens daha əvvəl İslamabadda İranla birbaşa danışıqların razılaşma olmadan başa çatdığını demişdi. İran isə öz növbəsində razılaşmanın olmamasının ABŞ-nin həddindən artıq tələbləri ilə bağlı olduğunu açıqlamışdı.

Son məlumata görə, ABŞ və İran nümayəndə heyətləri aprelin 16-da - cümə axşamı görüşə bilərlər. Bunu ABŞ rəsmiləri "Associated Press" (AP) agentliyinə anonimlik şərti ilə bildiriblər. Onların dediyinə görə, Vaşinqton və Tehran nümayəndələri müvəqqəti atəşkəs müddəti bitməmişdən əvvəl danışıqlar aparmaq niyyətindədirlər. Rəsmilər yeni görüşün təşkili prosesinin davam etdiyini və hər iki tərəfin bunu etmək niyyətində olduğunu qeyd ediblər, lakin danışıqlarda iştirak edən nümayəndə heyətlərinin tərkibində kimlərin olacağını dəqiqləşdirməyiblər.

Mənbələrə görə, danışıqlar yenidən İslamabadda baş tuta bilər, lakin Cenevrə variantı da nəzərdən keçirilir.

ABŞ Prezidenti Donald Tramp dünən Ağ Evin qarşısında jurnalistlərə bildirib ki, İranla yeni bir razılaşma hələ mümkündür: "Biz İranla bir çox məsələdə razılığa gəlmişik, lakin nüvə məsələsində yox. Ancaq düşünürəm ki, onlar buna razı olacaqlar. Mən buna əminəm. İran nüvə silahına sahib ola bilməz. Əgər onlar bunu qəbul etməsələr, heç bir razılaşma olmayacaq". Tramp həmçinin qeyd edib ki, iranlılar özləri əlaqə saxlayır və razılaşma əldə etmək istəyirlər. Lakin o, dəqiq kiminlə danışıqlar aparıldığını açıqlamayıb.

Bu arada ABŞ-nin elan etdiyi Hörmüz boğazının qismən blokadası qüvvəyə minib. Tramp məhdudiyyətləri pozmağa çalışan İran gəmilərini dərhal məhv edəcəyinə söz verib.

***Rizvan CƏFƏROV, "Azərbaycan"***

# Hörmüz boğazında vəziyyət düzəlməsə...

## Neft idxal edən dövlətlərdə böhran daha da dərinləşə bilər

Qlobal enerji bazarında gərginlik hələ də yüksək olaraq qalır. ABŞ və İran arasında elan olunmuş atəşkəs ilk baxışda bazarda müəyyən sabitlik yaratmalı idi. Lakin reallıq göstərir ki, neft bazarındakı dalğalanma hələ də səngiməyib. Və bu, onu göstərir ki, təchizat stresi və neft daşımasında yaranmış problemlər davam edir.



Ehtimal olunur ki, bu vəziyyət Avropa da daxil olmaqla dünyanın bir çox bölgəsində yanacaq qiymətlərinin artmasına, xərclərin yüksəlməsinə və gündəlik tələbat mallarının əlçatanlığının azalmasına səbəb olacaq. Problem uzanarsa, qlobal iqtisadi artımın zəifləməsi qaçılmazdır.

Beynəlxalq Enerji Agentliyinin rəhbəri Fatih Birol Atlantik Şurasında çıxışı zamanı bu məsələyə toxunaraq bildirib ki, yaranan enerji tədarükü böhranı Avropa da daxil olmaqla bir çox regiona təsir göstərə bilər: "Böhran yanacaq qiymətlərinin artmasına və malların əlçatanlığının azalmasına səbəb olur. Xüsusilə aviasiya və dizel yanacağı sahəsində Avropada ciddi çətinliklər gözlənilir. Münaqişənin davam etməsi qlobal iqtisadi proqnozların pisləşməsinə və inflyasiyanın artmasına gətirib çıxara bilər".

Problemin mənbəyi Hörmüz boğazında davam edən məhdudiyyətlərdir. Məlum olduğu kimi, dünya üzrə neft və qaz daşımalarının təxminən 20 faizi bu strateji dəhlizdən keçir. Hazırda isə burada hərəkət tam normallaşmayıb. Tanker axınında fasilələrin davam etməsi bazardakı gərginliyi daha da artırır. Görünür, məhz buna görə enerji bazarında məhsulun qiyməti ilə birja qiyməti arasında belə ciddi fərq yaranıb.

Norveçin müstəqil araşdırma şirkəti "Rystad Energy"nin təhlillərinə görə, əgər neft emalı zavodları qiymətlərin gələcəkdə enəcəyini düşünərək alış prosesini gecikdirsələr, bazardakı sıxlıq daha da dərinləşə bilər. Belə bir vəziyyətdə hətta siyasi gərginlik müəyyən qədər azalsa belə, qiymətlərin yüksək səviyyədə qalması tamamilə mümkün görünür. Yəni şokun ən sərt hissəsi məhz neft bazarında yaşanır. Bu vəziyyətin Avropa iqtisadiyyatına təsiri xüsusilə ciddi ola bilər. Çünki Avropa sənayesi və nəqliyyat sektoru enerji resurslarından yüksək dərəcədə asılıdır. Xüsusi dizel yanacağının bahalaşması ilk növbədə yük daşımalarına, kənd təsərrüfatına və istehsal sektoruna təsir göstərəcək. Nəticədə ərzaq məhsullarının, tikinti materiallarının və gündəlik istehlak mallarının qiymətində artım müşahidə oluna bilər. Aviasiya sektoru üçün də risklər böyük görünür. Aviasiya yanacağının qiymətində artım, çox güman ki, aviabiletlərin bahalaşmasına səbəb olacaq. Bu isə həm turizm sənayesinə, həm də beynəlxalq biznes əlaqələrinə mənfi təsir göstərə bilər.

Digər tərəfdən, neft markaları arasındakı ənənəvi qiymət balansının pozulması da diqqət çəkir. Adətən, Brent nefti ABŞ-nin WTI markasından 3-5 dollar baha olurdu. Lakin son böhran zamanı bu fərq 10 dolları da keçib. Bu, bazarın normal işləmədiyini göstərir.

Bütün bunlar təsdiqləyir ki, enerji bazarında balans ciddi şəkildə pozulub. İnvestorlar və alıcılar bazardakı riskləri qiymətlərə sürətlə daxil edirlər. Bu da həm maliyyə bazarlarında, həm də real iqtisadiyyatda əlavə təzyiq yaradır. Bundan əlavə, qlobal iqtisadi artım tempinin aşağı düşməsi ehtimalı da kifayət qədər yüksəkdir. Xüsusilə Avropa ölkələri və enerji idxalından asılı iqtisadiyyatlar üçün bu vəziyyət daha həssasdır. Sənaye istehsalının azalması, xidmət sektorunda xərclərin artması və istehlakın zəifləməsi ümumi iqtisadi mənzərəni daha da mürəkkəbləşdirə bilər. Beləliklə, hazırkı vəziyyət enerji bazarında təhlükənin hələ keçmədiyini açıq şəkildə göstərir. İndi əsas məsələ atəşkəsin nə dərəcədə davamlı olması və Hörmüz boğazında daşımaların nə vaxt tam bərpa ediləcəyidir. Əgər bu proses yaxın zamanda normallaşmasa, enerji böhranının daha geniş iqtisadi böhrana çevrilməsi ehtimalı artır. Bu isə bütün dünya iqtisadiyyatı üçün ciddi sınaq ola bilər.

Hazırkı mənzərə həm də göstərir ki, enerji bazarında sabitliyin bərpası üçün təkcə siyasi bəyanatlar kifayət deyil. Əsas məsələ tədarükün tam bərpası, logistikanın normallaşması və bazarda etimadın yenidən formalaşmasıdır. Əks halda, qarşıdakı aylarda həm enerji qiymətləri, həm də ümumi inflyasiya yüksək səviyyədə qalmağa davam edəcək.

***Təhminə VERDİYEVA, "Azərbaycan"***


# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

## "AZƏRBAYCAN" qəzetinə *abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**


AZƏRBAYCAN

## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Azərbaycan futbolunda yeni "körpü"

## "Asadov Pro Bridge": strategiya, dürüstlük və sərhədsiz istedad inkişafı vizionu

Azərbaycanda inkişafına diqqət yetirilən idman növləri sırasında komanda oyunları da hər zaman ön planda yer alıb və belə qəbildən olan idman yarışlarında ölkəmizin təmsilçilərinin qazandığı nailiyyətlərin sayı az deyil.






Komanda şəklində idman növlərindən bəhs edərkən heç şübhəsiz ki, diqqət ilk növbədə futbola yönəlir. Danılmaz həqiqətdir ki, futbol öz populyarlığına, auditoriyasının sayına görə digər komanda idman oyunlarını çox geridə qoyur. Bu mənada Azərbaycanda futbolun inkişaf etdirilməsi həm də günün vacib tələblərindən biri kimi çıxış edir və bu sahədə görülən işlərin miqyası az deyil.

Azərbaycanda müstəqilliyin ilk illərində bütün sahələrdə olduğu kimi, idmanda, o cümlədən futbolda da tənəzzül müşahidə edilməyə başladı. Təəssüf ki, bu tənəzzül uzun müddət özünü göstərdi və onun fəsadlarının, əslində, bu gün də tam aradan qalxdığını söyləmək mümkün deyil.

Amma sevindirici haldır ki, bu gün ölkə futbolu müxtəlif cəbhələrdə yeniliklərlə yadda qalmaqdadır. Bunlardan biri də futbol agentliyi sahəsidir. "Azərbaycan" qəzetinə açıqlamasında rəsmi lisenziyalı FIFA agenti Emil Əsədov bildirib ki, futbol nümayəndəliyinə "Asadov Pro Bridge" agentliyi vasitəsilə yeni baxış gətirməyi planlaşdırır. Bu agentlik strategiya, dürüstlük və sərhədsiz istedad inkişafı vizionu üzərində qurulub: "Müasir futbol sənayesində agentlər əsas seçim qarşısındadırlar: qısamüddətli transferlərə üstünlük vermək, yoxsa oyunçular üçün uzunmüddətli karyera qurmaq? 2024-cü ildə "Asadov Pro Bridge" agentliyini qurarkən məqsəd təkcə bazara daxil olmaq deyil, peşəkar, beynəlxalq səviyyəli, inkişafa və qarşılıqlı etimada əsaslanan bir agentlik yaratmaq idi. Oyunçular üçün, sadəcə, transferlər etmək yox, onların karyerasında məqsədyönlü şəkildə inkişaf etmələri üçün sistemli yollar qurmaq haqda düşünürük".

"Asadov Pro Bridge"nin fəaliyyət strategiyasına Avropa klubları ilə tərəfdaşlıqla Azərbaycanda futbol akademiyasının yaradılması, beynəlxalq təlim düşərgələri, sınaq oyunları və məşqçi seminarlarının təşkili, Türkiyə, Şərqi və Mərkəzi Avropa ölkələrinin agentləri ilə əməkdaşlığın gücləndirilməsi, Şimali Afrikaya çıxış daxildir.

Agentlik hazırda həm gənclər, həm də əsas komanda səviyyəsində perspektivli futbolçuları təmsil edir. Bu futbolçular təkcə istedadlarına görə deyil, həm də düzgün düşüncə tərzi, potensial və peşəkarlıqlarına görə seçilirlər. Onların arasında "Kəpəz"in qapısını qoruyan Yusif İmanov və "Zirə"nin üzvü Rüfət Abdullazadə var.

2024-cü ilin dekabrında futbol agenti Səudiyyə Ərəbistanında keçirilən "World Football Summit"də iştirak edib və orada dünyanın müxtəlif klubları, federasiyaları və agentlikləri ilə görüşlər keçirib.

Həmsöhbətimizdən onu motivasiya edən səbəbi soruşanda, o, nə mükafatlardan, nə də titullardan danışdı. Onun diqqəti peşəkar dəyərlər üzərində idi: "Mən tək bir bölgə və ya liqa ilə məhdudlaşmıram. Mən oyunçular, klublar və agentlər üçün işləyən bir körpü inşa edirəm. Çox vaxt tezbazar transferlər və boş vədlərlə dolu olan bu sahədə sakit, lakin təsirli şəkildə müasir, etik və uzunmüddətli nəticələr üçün yeni bir standart qururuq".

Agentliyin ən böyük üstünlüyü qısa müddətdə yaradılmasına baxmayaraq, artıq qlobal layihələrin birbaşa təşkilatçısına çevrilməsidir. Martın 24-27-də Nigeriyanın Laqos şəhərində təşkil olunan beynəlxalq skautinq proqramı uğurla yekunlaşıb. Layihə "Asadov Pro Bridge Football Agency" tərəfindən həyata keçirilib və əsas məqsəd gənc futbolçuların potensialının qiymətləndirilməsi, onların peşəkar inkişafına töhfə verilməsi olub.

Proqram çərçivəsində ümumilikdə 12 futbol akademiyasının iştirakı ilə turnir formatında oyunlar keçirilib. Bu vasitə ilə skautinq prosesi daha effektiv şəkildə təşkil olunub və futbolçular real oyun şəraitində izlənilib. Turnirin yekununda seçilmiş oyunçulardan ibarət komanda ilə çempion olmuş akademiya arasında əlavə qarşılaşma baş tutub. Bu oyun seçilmiş futbolçuların səviyyəsinin daha dəqiq analiz olunmasına imkan yaradıb. İştirak edən futbolçuların yaş aralığı əsasən 16-21 yaş arasında dəyişib ki, bu da onların artıq peşəkar futbola keçid mərhələsində olduqlarını göstərir.

Emil Əsədov bildirdi ki, skautinq proqramının əsas məqsədi seçilmiş futbolçuların məhz Azərbaycan futbol bazarına yönləndirilməsi olub. Yəni əvvəlki layihələrdən fərqli olaraq, bu dəfə oyunçuların Avropaya transferi deyil, Azərbaycan klubları üçün seçim prosesi prioritet təşkil edib: "Bu yanaşma yerli futbol bazarının gücləndirilməsi, klublar üçün alternativ və keyfiyyətli oyunçu seçim imkanlarının yaradılması baxımından mühüm əhəmiyyət daşıyır. Nigeriyada keçirilən bu proqram eyni zamanda gələcək planların bir hissəsidir. Azərbaycandan gələn iki klub rəhbərinin hər biri 3 futbolçu seçib. Hazırda akademiyalarla transfer detalları barədə danışıqlar davam edir. Bu üsul, əslində, Avropa skautlarının ən çox istifadə etdiyi yoldur. Onlar 16 yaşından istedadları götürüb öz ölkələrinin əsas və ya 1-ci divizionuna aparırlar. Orada həm oyunçunu yetişdirib komanda üçün dəyərli aktivə çevirirlər, həm də gələcəkdə böyük satışlardan ciddi gəlir əldə edirlər. Belə skautinq turnirləri artıq mütəmadi xarakter alacaq və müxtəlif ölkələrdə davamlı şəkildə təşkil olunacaq. Bu isə həm futbolçular üçün daha geniş imkanların yaranmasına, həm də klubların daha sistemli və keyfiyyətli seçim etməsinə şərait yaradacaq".

***Rizvan CƏFƏROV, "Azərbaycan"***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramova əzizi
**VİDADİ BAYRAMOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadə və Milli Məclisin deputatı Cavanşir Paşazadə xarici işlər naziri Ceyhun Bayramova əzizi
**VİDADİ BAYRAMOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramova əzizi
**VİDADİ BAYRAMOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İnşaat Mühəndisləri İnstitutu tərəfindən Sabir Musa oğlu Sadıqovun adına verilmiş NB 950437 nömrəli diplomun etibarsız hesab olunması barədə 11.04.2026-cı il tarixdə "Azərbaycan" qəzetində dərc edilmiş elan etibarsız sayılır.

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən "AZECO CLEAN" MMC-yə verilmiş EL-289/2025 qeydiyyat nömrəli, 02.09.2025-ci il tarixli lisenziya itdiyi üçün etibarsız sayılır.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 3718**
**Sifariş 482**

**Qiyməti 60 qəpik**